N°27 • APREL 2021

# BİZNES HƏYATI

ASK-nın dövri jurnalı



# QARABAĞ AZƏRBAYCANDIR!

# "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan xalqı böyük Zəfərlə ərazilərini Ermənistan işğalından azad edərək, tarixinin ən yaddaqalan və şanlı dövrünə qədəm qoydu. Ölkənin ərazi bütövlüyünün bərpası dövlətimiz üçün beynəlxalq hüququn və milli-mənəvi dəyərlərin aliliyinin nümayişidir. Otuz ilə yaxın bir müddət ərzində erməni qəsbkarları tərəfindən maddi və mədəni sərvətləri talan edilmiş ərazilərimizin yenidən həyata qaytarılması ölkənin siyasi-iqtisadi suverenliyinin güclənməsinin mühüm dayaqlarından biri olacaqdır.

Azərbaycan iqtisadiyyatının tərkib hissəsinə çevrilməsi məqsədilə işğaldan azad edilmiş bölgələrdə məskunlaşma, layiqli yaşayış və iqtisadi fəallıq təmin ediləcək, bu ərazilərdə həyata keçiriləcək quruculuq-bərpa işləri ölkəmizin sosial-iqtisadi inkişafının əsaslarını daha da möhkəmləndirməklə yanaşı, Azərbaycanın yeni inkişaf prosesində mühüm mərhələ olacaqdır.

İşğaldan azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması istiqamətində hər bir şəxsin göstərəcəyi dəstək tarixi qələbəmizə, qüdrətli və güclü Azərbaycan naminə milli birlik ideyasına, suveren və təhlükəsiz yaşamaq məqsədimizə mühüm töhfə olacaq. Bu sahədə bütün potensialın fədakarlıqla səfərbər edilməsi ölkəmizin inkişafında birgə uğur salnaməsi yaradaraq, qələbəmizi daha da parlaq edəcəkdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşma üçün müasir və layiqli həyatın təmin edilməsi, bütün sahələrdə quruculuq-bərpa və abadlıq işlərinin aparılması, habelə təhlükəsiz yaşayışın, səmərəli fəaliyyətin və rifahın davamlı artmasının dəstəklənməsi məqsədilə qərara alıram:

1. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradılsın.

2. Müəyyən edilsin ki:

2.1. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs (bundan sonra – Fond) Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir;

2.2. Fondun fəaliyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirmək üçün Müşahidə Şurası yaradılır;

2.3. Fondun fəaliyyətinə cari rəhbərliyi 3 (üç) üzvdən – sədr və onun iki müavinindən ibarət İdarə Heyəti həyata keçirir.

3. Fondun təsisçisinin səlahiyyətlərinin həyata keçirilməsi aşağıdakılara həvalə edilsin:

3.1. Azərbaycan Respublikasının Prezidentinə:

3.1.1. Fondun nizamnaməsinin təsdiqi və nizamnamə fondunun miqdarının müəyyən edilməsi, onlarda dəyişiklik edilməsi;

3.1.2. Fondun strukturunun təsdiqi;

3.1.3. Fondun idarəetmə orqanlarının yaradılması;

3.1.4. Fondun Müşahidə Şurası üzvlərinin, İdarə Heyəti sədrinin və sədrin iki müavininin vəzifəyə təyin və vəzifədən azad edilməsi;

3.1.5. Fondun ləğvi və yenidən təşkili;

3.2. Fonda:

3.2.1. bu Fərmanın 3.1-ci bəndində qeyd edilənlər istisna olmaqla, "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikası Qanununun 8.2-ci maddəsində publik hüquqi şəxsin təsisçisinin səlahiyyətlərinə aid edilmiş digər məsələlərin həlli.

4. Fondun vəsaitləri aşağıdakı mənbələr hesabına formalaşır:

4.1. fiziki və hüquqi şəxslərin ianələri;

4.2. qrantlar;

4.3. qanunla qadağan olunmayan digər mənbələr.

5. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası 15 gün müddətində Fondun nizamnaməsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

6. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. Fondun dövlət qeydiyyatına alınması üçün onun nizamnaməsi təsdiq edildikdən sonra 3 (üç) gün müddətində "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada tədbirlər görsün;

6.2. dövlət qeydiyyatına alındığı gündən Fondun inzibati bina ilə təmin olunması və maddi-texniki təminatı məsələlərinin həlli üçün bir ay müddətində tədbirlər görüb Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

7. Müəyyən edilsin ki, Fond dövlət qeydiyyatına alınanadək bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulmuş vəsait Fondun xüsusi xəzinə və bank hesablarında toplana bilər.

8. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

8.1. Fond fəaliyyətə başlayanadək bu Fərmanın 7-ci hissəsinə uyğun olaraq Fondun vəsaitinin xüsusi xəzinə və bank hesablarında toplanmasını təşkil etsin;

8.2. Fondun fəaliyyətinin təşkili və təmini üçün tələb olunan vəsaiti hər il üçün dövlət büdcəsinin layihəsində nəzərdə tutsun;

8.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 4 yanvar 2021-ci il




Azərbaycan Respublikasının İqtisadiyyat naziri Mikayıl Cabbarovun “Sahibkarlar Günü” münasibətilə təbriki




“Qalib ölkənin sahibkarı olmaq qürurunu yaşamaq bizə nəsib oldu”
















Azərbaycanın xarici ticarət dövriyyəsi:
gömrük statistikası nəyi göstərir?


# BİZNES HƏYATI

APREL, 2021
№27

**Redaksiya şurası:**
Məmməd Musayev
Şahmar Mövsümov
Azər Əmiraslanov
Tahir Mirkişili
Ziyad Səmədzadə
Vüsal Qasımlı
Niyazi Səfərov
Anar Kərimov
Orxan Məmmədov
Ədalət Muradov
Aliyə Əzimova
Camal Yanqın
Bəxtiyar Ağayev
Vüqar Zeynalov

**Baş redaktor**
İlhamə Abdullayeva

**Art dizayner**
Niyazi Quliyev

Xəbər bloklarının hazırlanmasında www.ask.org.az saytının materiallarından istifadə edilmişdir.
Müəllif mövqeyi redaksiyanın mövqeyilə üst-üstə düşməyə bilər. Reklam materiallarının məzmununa görə redaksiya məsuliyyət daşımır.
Jurnal Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) tərəfindən təsis edilmişdir.

Azərbaycan Respublikası, Bakı şəhəri, AZ1010
Nizami küç. 90 A, Landmark III, II mərtəbə
Tel: (+99412) 465 76 92/93
E-mail: office@ask.org.az
iabdullayeva@ask.org.az
www.ask.org.az





# Bütün yollar Qarabağa aparır: dirçəliş planları

*Qarabağın 30 illik erməni işğalından azad edilməsi qarşıdakı on illər ərzində ölkənin sosial-iqtisadi inkişafında həlledici amillərdən biri olacaq. Bu çağırış hökumətin 2020-ci ilin yekunları ilə bağlı müşavirəsinin ana xəttini təşkil edib.*

Azərbaycanın tarixi qələbəsinin banisi olan prezident İlham Əliyev 2021-ci il üçün görüləcək işləri açıqlayıb. İlk növbədə, Qarabağın tezliklə dirçəlişi məqsədilə azad edilmiş ərazilərdə infrastrukturun, ən vacib kommunikasiya layihələrinin və digər obyektlərin bərpası üçün mərhələli planlar elan edildi.

**İnkişaf konsepsiyasına start verildi**

Azərbaycan ordusunun parlaq qələbəsindən və Azərbaycanın dövlət sərhədlərini dünya birliyi tərəfindən tanınan tarixi hüdudlara qaytarmış bəyanatın imzalanmasından dörd aydan bir qədər artıq vaxt keçib. Bu nisbətən qısa müddət ərzində işğaldan azad

Dövlətin infrastrukturun bərpa edilməsi və bu bölgəni inkişaf etdirilməsi üzrə səyləri, eləcə də burada mövcud olan iqtisadi potensial və təbii ehtiyatlar qeyri-neft sektoruna yerli və xarici sərmayələrin cəlb edilməsi üzrə əsas bazaya çevriləcək.

edilmiş ərazilərin minalardan təmizlənməsi, yol tikintisi, elektrik enerjisi infrastrukturunun çəkilməsi, mobil rabitə sistemlərinin quraşdırılması üzrə genişmiqyaslı işlərə başlanılıb, həmçinin başqa istiqamətlərdə layihələndirmə işləri gerçəkləşdirilir.

“İşğaldan azad edilmiş torpaqların bərpası və inkişafı konsepsiyası dövlət başçısının tapşırığına uyğun olaraq hazırlanıb. Onun hazırlanması və müzakirəsi prosesində İqtisadi Şurada bütün rəylər nəzərə alınıb və aidiyyəti üzrə təqdim edilib”, – deyə iqtisadiyyat naziri Mikayıl Cabbarov hökumətin iclasında bildirib.

Nazirin sözlərinə görə, Qarabağ bölgəsinin bərpası və inkişafı üzrə kompleks yanaşmanı təmin etmək üçün konsepsiya ilə nəzərdə tutulmuş tədbirlərin dörd mərhələdə həyata keçirilməsi planlaşdırılır.

“İlkin mərhələdə idarəetmə və təhlükəsizlik, infrastruktur məsələlərinin həllini, növbəti mərhələlərdə isə sosial xidmətlərin fəaliyyətini, iqtisadiyyatın yenidən qurulması və inkişafı məsələsini özündə ehtiva edir”,– deyə nazir bildirib.

Şübhəsiz ki, dövlətin infrastrukturun bərpa edilməsi və bu bölgəni inkişaf etdirilməsi üzrə səyləri, eləcə də burada mövcud olan iqtisadi potensial və təbii ehtiyatlar qeyri-neft sektoruna yerli və xarici sərmayələrin cəlb edilməsi üzrə əsas bazaya çevriləcək.

Qarabağın dirçəlişi konsepsiyasının əsasında iqtisadi rayonlaşdırma prinsipi dayanır ki, bu, hər bir rayonda mövcud olan mineral ehtiyatlara, torpaqların və təbii landşaftın özəlliklərinə və iqtisadiyyatın oturuşmuş ənənəvi sahələrinə əsaslanr. Önəmli məqam kimi rayonların hər birindəki nəqliyyat qovşaqları, yəni onların bərpa edilən nəqliyyat dəhlizlərinə, tikilməkdə olan avtomobil yollarına və dəmir yollarına, hava limanlarına və s. yaxınlığı müəyyən edilib. Bu amil həm də rayonların hər birinin gələcək profilinə və iqtisadiyyatının ixtisaslaşmasına yetərincə təsir göstərəcək.

## Qarabağın Dirçəliş Fondu

Konsepsiya sərmayə layihələri ilə yanaşı, infrastruktur layihələrinin həyata keçirilməsində də dövlət-özəl tərəfdaşlıq mexanizmlərindən geniş istifadəni nəzərdə tutur. Belə ki, yol nəqliyyat və bələdiyyə infrastrukturunun bərpası, ənənəvi və alternativ enerji istehsalı, irriqasiya və meliorasiya sistemləri və s. üzrə dövlətlə birlikdə həyata keçirilən layihələrə özəl, o cümlədən beynəlxalq kapitalın fəal cəlb ediləcəyi gözlənilir. Belə bir sxem dövlət vəsaitlərinə qənaət etməklə yanaşı, layihələr üzrə daha səmərəli idarəetməni təmin etməyə və investisiya xərclərini azaltmağa imkan yaradacaq.




İşğaldan azad edilmiş ərazilərdə özəl sərmayə qoyuluşunu stimullaşdırmaq üçün xüsusi güzəştli iqtisadi rejimin tətbiqi planlaşdırılır. O cümlədən, Azərbaycanda texnoparkların və sənaye məhəllələrinin yaradılması üzrə qazanılmış zəngin təcrübə burada istifadə edilə bilər. Sərmayəçilərin cəlb edilməsi üçün rezidentlərə istehsal məqsədləri üçün satın alınan texnoloji avadanlıqların idxalı ilə bağlı geniş vergi imtiyazları təqdim edilir, gömrük rüsumları və ƏDV sıfırlanır, güzəştli kreditlər verilir, kommunal ödənişlər, binaların icarəsi və s. üzrə güzəştlər edilir. Qarabağ bölgəsinin inkişafına sərmayə yatırmaq istəyən investorları bu cür və bəlkə də daha geniş güzəştlər gözləyir. Özəl və beynəlxalq donorlardan (BMQ), kommersiya banklarından və sərmayəçilərdən, o cümlədən xaricdə yaşayan azərbaycanlı iş adamlarının vəsaitlərinin cəlbi də planlaşdırılıb.



Bu vəsaitlərin cəlb edilməsinin və istifadəsinin üzərində nəzarətin optimallaşdırılması, sərmayəçilərlə işin koordinasiya edilməsi və onların işğaldan azad edilmiş rayonlarda tikinti və bərpa işlərində iştirakı üçün Prezident İlham Əliyev 4 yanvar 2021-ci il tarixdə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsinin yaradılması haqqında fərman imzalayıb və onun Müşahidə Şurasını təsdiq edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin baş analitiki Günay Quliyevanın sözlərinə görə, fondun məqsədi fiziki və hüquqi şəxslərdən ianələr, beynəlxalq qrantlar cəlb etmək, "diaspor-sərmayələr" modelindən yararlanma, ən əsası, bu prosesin mərkəzləşdirilmiş və şəffaf idarə olunmasını təmin etməkdir. Fonda maliyyələşdirmə mənbələrindən biri yaxın gələcəkdə dövlət zəmanəti ilə buraxılacaq olan Qarabağ istiqrazları ola bilər.

Fonda yetərincə vəsaitin toplanması müəyyən vaxt aparacaq və birinci mərhələdə Qarabağın Dirçəliş Konsepsiyasının təşəbbüslərinin çoxunun maliyyələşdirilməsi bu ilin dövlət büdcəsində nəzərdə tutulmuş 2,2 milyard manat hesabına təmin ediləcək.

## Doğma torpaqlara aparan – yollar

2021-ci il üçün nəzərdə tutulan işlərin çərçivəsində əsas diqqət təhlükəsizlik məsələlərinə, infrastruktur tikintisinə, habelə kənd təsərrüfatı potensialından istifadənin başlanılmasına yönəldiləcək. Təhlükəsizlik məsələlərinə toxunan Prezident İlham Əliyev bildirib ki, ilkin vacib məsələ azad edilmiş ərazilərin minalardan təmizlənməsidir. Bu iş son dərəcə qısa müddətdə aparılmalı, minalanmış sahələrin miqyası (xüsusilə Ağdam və Füzuli rayonlarında) və minalanmış ərazilərin xəritələrinin olmaması nəzərə alınarsa, istehkamçıların sayı və onların texniki təchizatı artırılmalıdır.

Ərazilərin minalardan təmizlənməsi prosesi bu gün magistral yolların tikintisi, elektrik verilmə xətlərinin çəkilməsi və prioritet infrastruktur obyektlərinin tikintisi üzrə genişmiqyaslı işlərin aparıldığı ərazilərdə daha fəal gedir. Qarabağ bölgəsində bu cür tikinti sahələri gündən-günə çoxalır.

Ən fəal tikinti işləri Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa avtomobil yolunun çəkilməsində görülür. Bundan əlavə, Horadizdən Zəngilana, oradan Qubadlıya, daha sonra Laçın rayonuna yol layihələndirilir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Toğanalıdan Kəlbəcərə yol tikintisi layihəsinin icrasına da başlanılıb.

"Digər vacib layihəyə də artıq start verilib. Bu, Toğanalı – Kəlbəcər yoludur, bu da çox çətin relyefdən keçən bir yoldur. Bəzi yerlərdə yüksəklik 3500 metr olduğuna görə qış aylarında bu yoldan istifadə etmək çox çətindir. Ona görə tunellərin tikintisi nəzərdə tutulur, müvafiq göstərişlər verilib və bu layihə də indi icra edilir. Eyni zamanda, göstəriş verilib ki, Horadizdən Zəngilana, oradan Qubadlıya və oradan da Laçın rayonuna qədər yol çəkilsin və hazırlıq işləri g edir. Onu da əlavə etməliyəm ki, Toğanalıdan Kəlbəcərə çəkiləcək yol Laçın rayonuna da davam etdiriləcək. Beləliklə biz iki tərəfdən, – həm şimaldan, həm cənubdan Laçın və Kəlbəcər rayonlarına yol-nəqliyyat

infrastrukturu yaradacağıq", – deyə dövlət başçısı vurğulayıb.

Azad edilmiş ərazilərdə mərhələli şəkildə dəmir yolu layihələri həyata keçiriləcək: Yevlax-Ağdam dəmir yolu xəttinin çəkilməsi və daha sonra onun Xankəndiyə qədər çatdırılması üçün hazırlıq işləri aparılır, yaxın planlara Horadiz-Füzuli xəttinin, perspektivdə Füzuli-Şuşa hissəsinin tikintisi daxildir. Eyni zamanda, Horadiz-Ağbənd dəmir yolu xətti yenidən tikiləcək ki, bu da Ermənistan ərazisindən keçən dəhlizin açılmasından sonra Naxçıvan Muxtar Respublikasındakı dəmir yolu şəbəkəsi ilə birləşəcək.

Qarabağ bölgəsinin nəqliyyat infrastrukturunun ən vacib komponenti Füzuli rayonunda beynəlxalq hava limanının tikintisi olacaq, burada tikinti işlərinə başlanılıb. Daha bir hava limanının tikilməsi Laçın və ya Kəlbəcər rayonlarında planlaşdırılır. Lakin sadalanan rayonlar dağlıq ərazi olduğundan, burada hava limanının tikintisi üçün uyğun nisbətən düz bir ərazi tapmaq lazımdır, bunun üçün müvafiq tədqiqatlar aparılır.

"Bu, həm Qarabağ bölgəsinin inkişafı üçün lazımdır, çünki bütün növ təyyarələr enə biləcək – həm Füzulidə, həm Kəlbəcər-Laçın zonasında. Eyni zamanda, Şuşaya gəlmək istəyən xarici qonaqlar rahat Füzuliyə enib, oradan avtomobillə Şuşaya gedəcəklər. Aeroportun tikintisi ilə paralel olaraq artıq Füzuli şəhərindən beynəlxalq uçuşların təşkili ilə bağlı ilkin araşdırmalar aparılmalıdır. Beynəlxalq aeroport beynəlxalq uçuşlar təşkil etməlidir. İlk növbədə, bizim aviaşirkətimiz "AzAL" bu məsələ ilə bağlı ciddi işləsin ki, aeroport açılandan sonra dərhal bizim qonşu ölkələrin bəziləri ilə hava nəqliyyatı təmin edilsin", – deyə dövlət başçısı bildirib.



## Qayıdış işığı

Bölgənin elektrik enerjisi infrastrukturunu bərpa etmək üçün bu il də böyük səylər göstəriləcək. Energetika naziri Pərviz Şahbazovun sözlərinə görə, "Azərişıq" ASC Füzuli rayonu, Cəbrayıl şəhəri və Hadrut qəsəbəsindəki enerji obyektlərinin bərpasına başlayıb, həmçinin Cəbrayıl rayonunun sərhəd zastavaları elektrik enerjisi ilə təmin edilib. Keçən ilin sonundan başlayaraq Şuşada 75 kilometrlik iki dövrəli 110 kilovoltluq elektrik ötürmə xəttinin çəkilməsi davam edir və 110/35/10 kilovoltluq yarımstansiyanın tikintisinə də başlanılıb.

"Növbəti mərhələdə isə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın, Şuşa, Ağdam və Kəlbəcər rayonlarında, ümumilikdə 308 kilometr elektrik verilişi xəttinin çəkilməsi və yeni yarımstansiyaların tikilməsi ilə 110 kilovoltluq şəbəkə yaradılacaq", – deyə energetika naziri bildirib.

Yaxın perspektivdə İranla birlikdə "Xudafərin" və "Qız qalası" hidroqovşaqlarında elektrik stansiyalarının tikintisi planlaşdırılır, həmçinin Kəlbəcər və Laçın rayonlarında çaylarda su elektrik stansiyalarının yaradılması məsələsi də gündəmdədir. Gələcəkdə Qarabağda 200 MVt gücündə bir günəş elektrik stansiyasının tikintisi nəzərdə tutulur.

Azad edilmiş ərazilərin qazla təchizi məsələsi də diqqətdən kənarda qalmayıb. P.Şahbazovun sözlərinə görə, SOCAR-ın hazırladığı proqrama əsasən, uzunluğu 416 km olan qaz kəmərinin çəkilməsi planlaşdırılır.

İşğaldan azad edilmiş ərazilərdə təsərrüfat təşəbbüslərin inkişafına gəldikdə isə, mütəxəssislərin fikrincə, ən qısa zamanda ən böyük gəliri aqrar layihələr təmin edə bilər.

"İşğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi ilə bağlı işlərə artıq başlanılıb. Nazirlik "Azərkosmos" ASC ilə birlikdə azad olunmuş ərazilərdə mövcud əkin torpaqlarının xəritələrini hazırlayır. Hazırda həmin torpaqlarda əkinlərin



aparılması, o cümlədən çoxillik bitkilərə aqrotexniki qulluq tədbirlərinin göstərilməsi məqsədilə ilkin işlərə başlanılıb", – deyə kənd təsərrüfatı naziri İnam Kərimov bildirib.

Onun sözlərinə görə, 2020-ci ildə Azərbaycanda 1 milyon hektardan çox ərazidə taxıl səpini aparılıb, azad olunmuş ərazilər hesabına sonrakı illərdə əkin sahəsi balansının 10% artırılması planlaşdırılır. Xüsusilə, Ağdam rayonunun təmizlənmiş ərazilərində 700 hektardan çox ərazidə taxıl səpini aparılıb və bu proses davam edir.

Bərəkətli əkin sahələri, suyun bolluğu, dağ otlaqları və əlverişli iqlim şəraiti, nəticədə, Qarabağ bölgəsini ölkənin əsas ərzaq bazasına çevirəcək.

### Şəhərlərin baş planları hazırlanır

Bunun üçün Azərbaycan hökuməti açıqladığı hədəflər üzrə fəaliyyətini davam etdirir. Azərbaycan prezidenti bu il Novruz bayramını Şuşada, Cıdır düzündə qeyd etməklə tarixi qələbəmizi dünyaya yaydı.

"2004-cü ildən başlayaraq, hər il mən Azərbaycan xalqını Novruz bayramı münasibətilə təbrik edərkən deyirdim ki, biz öz doğma torpaqlarımıza qayıdacağıq.

> Prezident İlham Əliyev: "Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır".

Deyirdim ki, biz ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Deyirdim ki, biz Novruz bayramını torpaqlarımız işğaldan azad olunandan sonra Qarabağda qeyd edəcəyik və bu gün gəldi. Bu gün biz Novruz bayramını qədim şəhərimizdə, Azərbaycanın mədəniyyət paytaxtı Şuşada qeyd edirik. Bu, tarixi hadisədir. Bu, böyük xoşbəxtlikdir. Allah Azərbaycan xalqının dualarını eşitdi. Hər il Novruz bayramı ərəfəsində hamımız yəqin ki, fikirləşirdik, bir-birimizə deyirdik, inşallah, gələn il Novruz bayramını Qarabağda qeyd edək, gələn il Novruz bayramını Şuşada qeyd edək və bu gün gəldi. 28 ildən sonra biz Şuşaya qayıtdıq. Novruz bayramını Cıdır düzündə qeyd edirik, tarixi ədaləti bərpa etmişik.

Biz Şuşanı bərpa edəcəyik, mütləq bərpa edəcəyik. Artıq bərpa işlərinə start verildi. Bu gün Şuşada olarkən artıq verdiyim tapşırıqların yerinə yetirilməsi ilə tanış oluram. Biz nəinki Şuşanı, azad edilmiş bütün torpaqları bərpa edəcəyik. Quruculuq işləri başlamışdır, infrastruktur layihələrinə start verilmişdir. Ziyanın hesablanması aparılır, şəhərlərin baş planları hazırlanır. Birinci növbədə, Ağdam şəhərinin və Ağdam rayonunun bütövlükdə baş planı hazırlanır, onun ilkin versiyası mənə təqdim edildi. Mənim tapşırıqlarımı nəzərə almaq şərtilə indi bunun üzərində iş gedir və yaxın gələcəkdə baş plan təsdiq olunacaq. Ondan sonra bərpa işləri azad edilmiş bütün torpaqlarda başlanacaq. Ermənilər 30 il bizim torpaqlarımızı dağıdıblar. Biz isə bu torpaqları bərpa edəcəyik, çünki bu torpaqların sahibləri biziz – Azərbaycan xalqıdır".



# BİZNES HƏYATI

**Mikayıl Cabbarov**
Azərbaycan Respublikasının
İqtisadiyyat naziri

*Müstəqil Azərbaycanın banisi, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası milli iqtisadi inkişaf modelinin formalaşmasına və iqtisadi islahatların uğurlu icrasına, sahibkarlığın genişləndirilməsinə möhkəm təməl yaradıb.*

"Sahibkarlığın inkişaf etdirilməsi, sərbəst iqtisadiyyata yol verilməsi, bazar iqtisadiyyatının yaradılması bizim strateji yolumuzdur", - deyən Ulu Öndərin digər sahələrdə olduğu kimi, özəl bölmənin inkişafı ilə bağlı qəbul etdiyi taleyüklü qərarlar, dövlət proqramları bu sahənin inkişafında xüsusi rol oynayıb, sahibkarlığı iqtisadi siyasətin prioritet istiqamətlərindən birinə çevirib.

Ümummilli Liderin ölkəmizin hərtərəfli inkişaf kursunun Prezident İlham Əliyev tərəfindən böyük inam və qətiyyətlə davam etdirilməsi nəticəsində ölkəmiz mühüm uğurlara imza atıb, iqtisadiyyatın dayanıqlı inkişafı təmin olunub, Azərbaycan iri layihələrin fəal iştirakçısına, regionun siyasi, iqtisadi və mədəni mərkəzinə, dünyada söz sahibinə və etibarlı tərəfdaşa çevrilib.

Dövlət başçısının "Ölkəmizin gələcək inkişafı sahibkarlığın inkişafından asılıdır" strateji xəttinə uyğun olaraq, sahibkarlıq sahəsində həyata keçirilən ardıcıl və sistemli islahatlar, qanunvericiliyin təkmilləşdirilməsi, şəffaf inzibati tənzimləmə və dövlət dəstəyinin genişləndirilməsi, sahibkarların hüquq və mənafelərinin etibarlı müdafiəsi və s. sahələrdə həyata keçirilən tədbirlər nəticəsində bu gün sahibkarlıq iqtisadiyyatın aparıcı qüvvəsinə çevrilib.

Azərbaycan dövləti sahibkarlara hərtərəfli və mütəmadi dəstək nümayiş etdirir. Ölkəmizdə koronavirus pandemiyasının iqtisadiyyata təsiri nəzərə alınaraq, dərhal çevik proqramlar həyata keçirilib və özəl sektorun dəstəklənməsi istiqamətində yeni alətlər tətbiq edilib. Maliyyə dəstəyi, vergi güzəştləri və tətilləri, güzəştli kreditlərin verilməsi mexanizminin təkmilləşdirilməsi, sahibkarların dövlət zəmanətli kreditləri asan və şəffaf formada əldə etməsi üçün Elektron Kredit Platformasının yaradılması və s. tədbirlər pandemiya şəraitinin özəl bölməyə mənfi təsirlərinin minimallaşdırılması baxımından müstəsna əhəmiyyət kəsb edir.

Həyata keçirilmiş islahatlar və uğurlu nəticələr Azərbaycanın iqtisadi imkanlarının daha da artmasına, sahibkarlığın davamlı inkişafına, Azərbaycan vətəndaşının rifahına xidmət edir.

**Hörmətli sahibkarlar!**

Məlum olduğu kimi, 2020-ci il Azərbaycan tarixinə Böyük Qələbə ili kimi yazıldı. 44 günlük Vətən müharibəsi Azərbaycan Ordusunun və xalqımızın möhtəşəm zəfəri ilə başa çatdı. Bu qələbə Ali Baş Komandan, Prezident İlham Əliyevin qətiyyəti, siyasi iradəsi, uzaqgörənliyi, müzəffər Ordumuzun şücaəti, qəhrəmanlığı, ölməz şəhidlərimizin qanı, xalqımızın birliyi və döyüş əzmi hesabına qazanıldı.

İşğaldan azad edilən ərazilərimizin böyük iqtisadi və investisiya potensialı biznes üçün yeni imkanlar açır. Azad olunmuş bölgənin faydalı qazıntılarla zəngin olmasını, iqtisadiyyatın, xüsusilə kənd təsərrüfatının və turizmin inkişafı üçün yüksək potensialın mövcudluğunu nəzərə almaqla, dövlət baş-

çısının tapşırıqlarına uyğun olaraq, həmin regionlarda infrastrukturun qurulması, tikinti, abadlıq işlərinin aparılması, kiçik və orta sahibkarlığın inkişafına dəstək göstərilməsi istiqamətində hazırlıq işləri görülür, yeni layihələr hazırlanır. "Ağıllı" texnologiyaların tətbiqi işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasına və Böyük Qayıdışa töhfə verəcək.

Azad edilmiş ərazilərimizlə bağlı Azərbaycan hökumətinin vahid konsepsiyasına uyğun olaraq, biznesin Qarabağa qayıtması, bu ərazilərdə sahibkarlıq subyektlərinin formalaşması və inkişafı, özəl investisiyaların cəlb olunması qarşıda duran mühüm hədəflərdəndir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan rəqəmsal transformasiyanın yeni mərhələsinə qədəm qoyub. Bu istiqamətdə sistemli və məqsədyönlü addımlar atılır. Belə ki, qlobal iqtisadiyyatda rəqabət qaydalarını dəyişən Dördüncü Sənaye İnqilabında Azərbaycanın mövqeyinin gücləndirilməsi və bu sahədə aparıcı ölkələr arasında yer almasının təmin edilməsi, rəqəmsal iqtisadiyyat üzrə çağırışların, təşəbbüslərin, strategiyaların, layihələrin təhlilinin və koordinasiyasının həyata keçirilməsi məqsədilə İqtisadiyyat Nazirliyinin tabeliyində "Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi" publik hüquqi şəxs yaradılıb. Azərbaycan Dünya İqtisadi Forumunun Dördüncü Sənaye İnqilabı Mərkəzləri Şəbəkəsinə qoşulub və 4SİM Afilə edilmiş Azərbaycan Mərkəzi fəaliyyətə başlayıb.

İqtisadiyyatın neftdən asılılığının azaldılması və rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılması, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, rəqəmsal iqtisadiyyatın inkişafı, yeni yanaşmalar, innovasiyalar və texnologiyaların tətbiqi ilə sosial-iqtisadi sahədə daha yüksək nəticələr əldə edilməsi qarşıdakı illərdə strateji hədəflərimizdəndir.

Heç şübhəsiz ki, Azərbaycan sahibkarları da bu hədəflərə nail olunması üçün bütün imkanlarını səfərbər edərək, ölkəmizin iqtisadi inkişafında həlledici rol oynayacaqlar.

**Hörmətli sahibkarlar!**

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Sahibkarlar Günü"nün təsis olunması sahibkarların fəaliyyətinə verilən yüksək qiymətlə bərabər, biznesin inkişafına göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Fürsətdən istifadə edərək, sizi "Sahibkarlar Günü" münasibətilə ürəkdən təbrik edir, Azərbaycan iqtisadiyyatının, özəl bölmənin inkişafına verdiyiniz töhfəyə görə minnətdarlığımı bildirir, Vətənimizin tərəqqisi naminə fəaliyyətinizdə uğurlar arzulayıram.





**Məmməd Musayev**
Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti

# “Qalib ölkənin sahibkarı olmaq qürurunu yaşamaq bizə nəsib oldu”

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayevin müsahibəsi.

*– Məmməd müəllim ilk sualım iqtisadiyyat naziri cənab Mikayıl Cabbarovun paylaşdığı tvitlə bağlı olacaq. Nazir bildirib ki, işğaldan azad edilmiş ərazilərimizdə reallaşdırılacaq layihələrin dəstəklənməsi məqsədilə İqtisadiyyat Nazirliyinə 470-ə yaxın müraciət daxil olub. Bu məsələni şərh etməyinizi xahiş edirik.*

– Ümummilli Liderimiz Heydər Əliyevin müəllifi olduğu müasir Azərbaycanın inkişaf strategiyasının ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən müdriklik və uzaqgörənliklə davam etdirilməsi ölkəmizdə bütün sahələrdə olduğu kimi, iqtisadiyyatın davamlı və dayanıqlı inkişafını təmin etmiş, sağlam bazar münasibətləri və azad rəqabət mühiti yaranmışdır.

Bu gün nəinki milyonlarla azərbaycanlının, eləcə də bütün türk dünyasının görkəmli siyasi xadimi olan ölkə Prezidenti 200 illik tariximizdə Azərbaycan torpaqlarını işğaldan azad edən ilk fateh dövlət başçısı kimi tanınır. 44 günlük vətən müharibəsi məhz onun qətiyyətli mövqeyi və dəmir iradəsi, Azərbaycan əsgərinin rəşadəti, xalqımızın birliyi, həmrəyliyi nəticəsində mümkün olmuşdur.

Bilirsiniz ki, torpaqlarımızın işğaldan azad olunması hər bir Azərbaycan vətəndaşının ən böyük arzusu idi. Bütün xalqımız bu amal uğrunda dəmir yumruq kimi birləşdi. Həmçinin iş adamlarının təşkilatlandığı Azərbaycan Sahibkarlar Konfederasiyası öz mandatına uyğun olaraq fəaliyyətini qurdu, sahibkarlarımız Ali Baş Komandanın ətrafında sıx birləşdilər. Bir faktı qeyd edim ki, noyabr ayının 2-də hələ müharibənin qızğın vaxtı idi, Azərbaycan Sahibkar Konfederasiyası, İqtisadiyyat naziri hörmətli Mikayıl müəllimin rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakı ilə Türk Ticarət və Sənaye Palatasının Bakıda konfrasını keçirdi. Konfrans

"Azərbaycanın sosial-iqtisadi inkişafının yeni dövrü" mövzusunda idi. Bir növ artıq müharibənin gedişatı göstərirdi ki, bizi nə gözləyir. Və təbii ki, bu konfransda da bütün türk dünyasının nümayəndələri iştirak etdilər. Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Türkiyədən böyük bir nümayəndə heyəti gəlmişdi. Möhtərəm cənab prezident gərgin iş qrafikinə baxmayaraq, ölkə nümayəndələrini qəbul etdi. Həmin konfransda bəyanat qəbul olundu və biz artıq bu dövrdən hazırlıq işlərinə başladıq. Və mən Mikayıl müəllimə öz təşəkkürümü bildirmək istəyirəm ki, konfransda əvvəldən sona qədər iştirak etdi, hətta fərdi qaydada qonaqlarımızı, palata rəhbərlərini də qəbul etdi. Müharibə bitdikdən sonra biz Konfederasiyanın Rəyasət Heyətinin qərarı ilə Qarabağda iş qurmaq istəyən sahibkarların təkliflərini toplamaq məqsədilə işçi qrupu yaratdıq. Artıq sahibkarların təqdim etdiyi 68 təklifi hökumətə təqdim etmişik. Bu gün bu işlərdə bütün sahibkarlar iştirak etmək istəyir, sadəcə indiki dövr daha fərqli yanaşma tələb edir. Cənab prezidentin rəhbərliyi ilə Qarabağı yeni bir formada dirçəldəcəyik. Artıq bir çox layihələr var: "Yeni memarlıq", "Ağıllı şəhər", "Ağıllı kənd", "Yeni iqtisadiyyat". Bunlar bir növ bizim Qarabağı bölgənin ən çiçəklənən regionu edəcəkdir.

*– Sahibkarlarımızın Yaşat Fondu və Qarabağ Dirçəliş Fondu ilə əməkdaşlığını necə qiymətləndirirsiniz?*

– Çox müsbət qiymətləndiririk. Azərbaycan sahibkarları dövlətimiz, xalqımız üçün tale yüklü bütün məsələlərdə onlarla birlikdədirlər. Hər iki Fond çox böyük işlər görür və biz yaxından əməkdaşlıq edirik. Qeyd edim ki, əksər sahibkarlar xeyirxah işlərinin, etdikləri yardımların reklam olunmasını sevmirlər. Hər kəs özü bildiyi kimi bölgərə, rayonlara müxtəlif formada kömək edir. Qarabağ Dirçəliş Fondunun Müşahidə Şurasında iqtisadiyyat və ədliyyə nazirləri, o cümlədən Azərbaycan Dövlət İqtisad Univeritetinin rektoru Ədalət Muradov da təmsil olunur. Ədalət müəllim eyni zamanda Konfederasiyanın üzvüdür və Elm, təhsil və peşə təlimi üzrə iş komissiyasının sədridir. Bir növ sahibkarlar Ədalət müəllimin timsalında təmsil olunurlar. Və biz artıq planlaşdırmışıq ki, işçi qayda da icraçı direktor Rəhman Hacıyevlə görüşərək, əməkdaşlıq müqaviləsi bağlayaq. Bu müqavilənin əsas məqsədi həm Azəbaycan daxilində, həm də xaricdə çalışan sahibkarları fonda yönəldərək ümumi konsepsiyaya uyğun məsələlərdə dəstək vermək olacaqdır.

> *Bütün müharibə dövründə ölkə başçısının ətrafında sıx birləşərək "Dəmir Yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər.*

*– Yeri gəlmişkən Məmməd müəllim, yerli sahibkarlar Qarabağda daha çox hansı sahələrin bərpası ilə bağlı işlər görə biləcək?*

– Yuxarıda dediyim kimi, bütün məsələlər planlı şəkildə həyata keçiriləcək. Burada böyük layihələrlə bərabər insanların geri qayıtması, kiçik və orta sahibkarlığın, xüsusən kənd təsərrüfatının inkişafı ilə bağlı təkliflər var. Biz bu müraciətləri toplayıb İqtisadiyyat Nazirliyinə təqdim edirik.

*– Bəs iş adamları öz vəsaitləri hesabınamı bu işləri görəcəklər yoxsa ki, yenə də bankların kreditlərinə bel bağlayacaqlar?*

– Mən onun tərəfdarıyam ilk növbədə öz vəsaitləri hesabına fəaliyyətlərini qursunlar. Kredit ən sonuncu seçim aləti olmalıdır. Burada beynəlxalq təşkilatların layihələrindən yararlanmaq da mümkündür. Məsələn, Azərbaycan Sahibkarlar Konfederasiyası İslam Ticarət, Sənaye və Kənd Təsərrüfatı Palatasında ölkəmizi təmsil edir. Və biz Palata ilə görüşüb, danışıqlar aparmışıq. Onlar Azərbaycanda ekoloji cəhətdən təmiz kənd təsərrüfatı layihəsini həyata keçirmək istəyirlər. Çünki bizim torpaqlarımız zəngindir, keyfiyyətli, ekoloji cəhətdən təmiz məhsullar yetişdirmək imkanlarımız yüksəkdir. Bu layihənin Qarabağda gerçəkləşməsi barədə kofrans da keçiriləcək. Bu yaxınlarda Türk Ticarət və Sənaye Palatasının Azərbaycana səfəri gözlənilir. Və səfər çərçivəsində biznes təşkilatlarının rəhbərləri də ölkəmizə gələcəklər. Bugün Azərbaycanda da bu işləri görə biləcək yetəri qədər milli şirkətlərimiz var. Biz həm Azərbaycanın, həm də digər ölkələrin sahibkarlarının birgə çalışmasının tərəfdarıyıq ki, keyfiyyətli rəqabət mühiti formalaşsın.

*– Əlbəttə, rəqabət olan yerdə inkişaf da olur. Bəs sahibkarlarımızın öz nüfuz və əlaqələrindən istifadə edərək, bərpa prosesinə xarici bank, maliyyə təşkilatlarının kreditlərini cəlb etməsi mümkündürmü?*

– Bəli. Çox gözəl sual verdiniz. Türk Ticarət və Sənaye Palatasına daxil olan dövlətlərin iştirakı ilə Bakıda keçiriləcək biznes-forum bu istiqamətdə yaxşı imkan yaradacaq. Bu forumda təbii ki, Türk Şurasının üzvləri olan Türkmənistan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Macarıstan və Türkiyə iştirak edəcək. Hətta Macarıstan çox fəal iştirak edir. Macarıstanın "Exim" bankı investisiya fondunun təsis edilməsilə bağlı Türk Şurası-



nın rəhbərliyilə danışıqlar aparır. Buraya inkişaf etmiş bankların cəlb edilməsi nəzərdə tutulur. Və biz istəyirik ki, Qarabağın dirçəlişində tək Azərbaycan deyil, bizim türk qardaşlarımız, dost ölkələr də iştirak etsinlər. Birlikdə Qarabağda işlər görək, ən yeni texnologiyalara əsaslanan müəssisələr yaradaq.

*– Məmməd müəllim, bəs xarici ölkələrdə fəaliyyət göstərən azərbaycanlı iş adamları ilə bağlı vəziyyət necədir? Yəni, onların bu prosesdə iştirakı nə dərəcədə gözlənilir? Maraq göstərənlər varmı?*

– 2020-ci il Şanlı Zəfər ili kimi tarixmizə həkk olundu, 2021-ci ildə isə Azərbaycan dövləti müstəqilliyinin 30 illiyini qeyd edəcək. Bu il bütövlükdə tarixi bir ildir. Müstəqilliyimizin ilk illərində özəl sektorların ÜDM-də payı 1% idi, bu gün isə böyük milli sahibkarlar təbəqəsi formalaşıb. Artıq ölkəmizdən kənarda öz biznesini qurmuş və nüfuza malik azərbaycanlı iş adamlarının sayı artıb. Bizim Nazirliyə təqdim etdiyimiz 68 müraciətin arasında Gürcüstandan, Ukraynadan, İtaliyadan, Rusiyadan və digər ölkələrdən təkliflər də var. İtaliya-Azərbaycan Sənaye və Ticarət Palatası təsis olunub və Konfederasiya da oranın üzvüdür. Bu Palata da çox böyük maraq göstərir və orada da azərbaycanlı iş adamları az deyil. Mən fəxrlə deyə bilərəm ki, azərbaycanlı iş adamları Hollandiyada, Almaniyada, İtaliyada, Gürcüstanda, Qazaxıstanda, Özbəkistanda, Rusiyada və Türkiyədə daha çoxdur. Xarici ölkələrdəki müxtəlif tədbirlərdə artıq bizi orada yaşayan və işləyən həmvətənlətimiz qarşılayırlar və onlarla birlikdə həmin beynəlxalq tədbirlərin iştirakçısı olmaq xüsusi bir hissdir. Onların böyük nüfuzları var, bu həm də bizim gücümüz deməkdir. Güc birlikdədir.

*– Sahibkarlarımız üçün də əslində Qarabağ çox böyük bir stimuldur...*

– Əlbəttə. Fevral ayında cənab baş nazirin rəhbərlik etdiyi nümayəndə heyəti ilə Türkiyəyə səfər etdik. Qalib ölkənin sahibkarı olmaq qürurunu yaşamaq bizə nəsib oldu. Türkiyədəki iş adamları Azərbaycana gəlmək, iş görmək, fərdi qaydada kömək etmək istəklərini bildirdilər. Biz onların bu istəklərini çox müsbət qarşıladıq. Qarabağın işğaldan azad olunması sahibkarlara əlavə bir stimul verdi. Buna görə Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi Şanlı Azərbaycan Ordusuna minnətdarıq.

*– Məmməd müəllim, bu il 25 Aprel – Sahibkarlar Gününü tam fərqli bir hisslə qeyd edəcəyik. Müstəqilliyimizin 30-cu ilində yenidən Qarabağdan danışırıq, onun dirçəldilməsi planlarını müzakirə edirik. Bu ayrıca bir xoşbəxtlikdir. Sahibkarlarımıza ürək sözlərinizi eşitmək istərdik.*

– Bütün müharibə dövründə ölkə başçısının ətrafında sıx birləşərək "Dəmir Yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığına qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər.

Arzu edirəm ki, köçkünlərimiz tezliklə doğma yurd-yuvalarına dönsünlər və bu gün sökülüb viran qoyulmuş və iqtisadi infrastrukturu dağılmış Qarabağın hər bir guşəsini birlikdə quraq.

Ona görə də ölkəmizin iqtisadi inkişafı naminə Azərbaycanda iş quran bütün sahibkarlara can sağlığı və fəaliyyətlərində böyük uğurlar diləyirəm.

Biz isə Sahibkarlar konfederasiyası olaraq dövlətimizin qüdrəti naminə müdrik rəhbərimiz İlham Əliyevin rəhbərliyi altında bu missiyanı daşımağa hazırıq.

*– Müsahibə üçün təşəkkür edirəm.*



**Tahir Mirkişili**
Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri

# "Müasir dünyada rəqabətdə qalib gəlməyin tək yolu innovativ olmaqdır"

2021-ci ildə ölkə iqtisadiyyatı ilə bağlı qanunvericilikdə hansı yeniliklər gözlənilir, ölkənin iqtisadi siyasətində nə kimi dəyişikliklər ola bilər? Bununla bağlı "Biznes Həyatı" jurnalının suallarını Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili cavablandırır.

*– 2020-ci ili iqtisadiyyatın vəziyyəti baxımından dünya və Azərbaycan üçün necə qiymətləndirirsiniz?*

– 2020-ci il hər şeydən əvvəl Azərbaycan Respublikasının dövlətçilik və müstəqillik tarixinə möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə işğal altında olan ərazilərin azad edilməsi, işğalçı Ermənistan üzərində qazanılan möhtəşəm hərbi-siyasi-iqtisadi Qələbə ili kimi həkk olundu. Bu qələbə uzun illər ərzində ardıcıl olaraq, boyük işgüzarlıq, peşəkarlıq və ən əsası, milli birlik hesabına Azərbaycanın bütün resurslarının bir dəmir yumruq kimi birləşib düşmənlərimizi məğlub etməsilə mümkün olmuşdur. Bu qələbə 100 illər ərzində görülən və görüləcək işlərdən daha böyükdür.

2020-ci il üçün iqtisadiyyatımızın əvvəlcədən planlaşdırılmış inkişaf proqnozları yüksək olmuş, 2020-ci ilin 1-ci rübünün iqtisadi göstəriciləri bu proqnozların reallığa yaxın olduğunu göstərmişdir. Lakin 2-cü rübün başlanğıcından etibarən Covid-19 pandemiyasının dünyada, o cümlədən Azərbaycanda geniş yayılması təbii olaraq hökumətin hədəflərini dəyişmiş, dövlət başçısı cənab İlham Əliyevin göstərişi ilə vətəndaşların sağlamlığı əsas meyar kimi seçilmiş, iqtisadi aktivlik planlı şəkildə məhdudlaşdırılmışdır. Ümumilikdə, 2020-ci il bütün dünyada olduğu kimi Azərbaycanda da COVID-19 pandemiyası ilə mübarizə şəraitində keçmişdir.

İl ərzində dünya neft bazarında qiymətlərin kəskin ucuzlaşması iqtisadi böhranın əhatəliyini və kəskinliyini daha da artırmışdır. Böhran dünya əmtəə qiymətlərinin enerji sektorunda 18.3% ucuzlaşması, qeyri-enerji sektorunda 16.1% bahalaşması, dünya ərzaq qiymətləri 6.5% yüksəlməsi, neftin qiymətinin isə 33% düşməsi ilə

müşaiyət olunmuşdur. Belə bir şəraitdə qlobal Ümumi Daxil Məhsul 5%-dən çox azalmış, qlobal borclar rekord artım göstərib və qlobal ümumi daxili məhsulun 355%-inə çatıb.

Beləliklə, 2020-ci ilə Azərbaycan 3 cəbhədə – pandemiya ilə, qlobal böhran və işğalçı Ermənistan ilə mübarizə aparmış və bunun üçün kifayət qədər resurslarını səfərbər etmişdir.

Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerdə qərarlaşmış və dünyanın 10 ən islahatçı ölkələri sırasına daxil edilmişdir.

2020-ci ildə ölkəmizdə Ümumi Daxili Məhsul 4.3% azalsa da, sənayenin qeyri neft-qaz sektorunda məhsul istehsalı 12,5%, kənd təsərrüfatında məhsul istehsalı 2% artmış, inflyasiya isə 2.8% olmuşdur.

Xarici ticarət dövriyyəsinin azalmasına baxmayaraq, ticarət saldosu müsbət 3 mlrd. dollar olmuşdur. 2020-ci ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 11,4% artaraq 707 manat təşkil etmişdir.

*– Azərbaycan hökuməti pandemiyadan zərərçəkən iqtisadi sahələrə dövlət dəstəyi tədbirləri həyata keçirdi. Bu dəstək tədbirlərini nə dərəcədə effektiv hesab edirsiniz?*

– Dövlət Başçısı cənab İlham Əliyevin və 1-ci vitse-Prezident Mehriban xanım Əliyevanın birbaşa rəhbərliyi ilə həyata keçirilən bu tədbirlər pandemiyanın yayılma səviyyəsini kəskin azaltmağa və minimum itkilərlə üzləşməyə səbəb olmaqla yanaşı, iqtisadiyyatımızın da gözlənilən itkilərinin minimuma endirilməsinə səbəb olmuşdur.

Koronavirus pandemiyası ilə mübarizə sahəsində təxirəsalınmaz tədbirlərin görülməsi üçün qısa bir müddətdə büdcə vəsaitlərinin səfərbər edilərək maliyyə təminatının yaradılması öz təsirini göstərmişdir. Pandemiyanın yaratdığı problemlərə baxmayaraq strateji layihələrin icrası, iqtisadi, sosial və institusional islahatların həyata keçirilməsi, ordu quruculuğu və hərbi potensialın gücləndirilməsi sahəsində görülən işlər öz müsbət nəticələrini vermişdir.

Koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması üçün dövlət başçısının 19 mart 2020-ci il tarixdə imzaladığı sərəncam ilə əhatəli proqramın icrası bütün subyektlər tərəfindən yüksək qiymətləndirilmişdir.

*COVID-19 pandemiyasının geniş yayılması kollektiv orqan olan Milli Məclisin də işinə xeyli təsir edib. Amma buna baxmayaraq, Milli Məclisin işində qısa müddətdə informasiya texnologiyalarının geniş tətbiq olunması işgüzarlığın artırılmasına müsbət təsir edib.*

Dəstək proqramı çərçivəsində Məşğulluq və sosial rifah tədbirlərinin ölkə əhalisinin demək olar ki, yarısını əhatə etməsi, orta aylıq əməkhaqqının 11.4% artması təqdirəlayiq haldır.

Pandemiyaya qarşı iqtisadi tədbirlər paketi çərçivəsində fərdi sahibkarlara, muzdlu işçilərin əməkhaqqlarına göstərilən maliyyə dəstəyi, pandemiyanın təsir etdiyi sahələrdə çalışan sahibkarlara əldə etdikləri mənfəətin 75%-i miqdarında güzəştlərin tətbiq edilməsi və digər çoxsaylı güzəştlər iqtisadi mühitə müsbət təsir göstərmişdir. Avropa İttifaqının 2020-ci il Biznes Muhiti hesabatında ölkəmizdə çalışan Avropa İttifaqı şirkətlərinin 75%-nin pandemiya dövründəki Azərbaycan iqtisadiyyatına mənfi təsirlərin minimallaşdırılması istiqamətində həyata keçirilən tədbirləri dəstəkləməsi müsbət haldır. Ümumilikdə bu dəstək tədbirlərindən 300 mindən çox fiziki və hüquqi şəxslər faydalanmışlar.

*– Hansı dəstək mexanizm və alətlərini daha uğurlu hesab edirsiniz?*

– Dəstək proqramının genişliyi və sürətli icrası bütün alətləri səmərəli etmişdir. Həm birbaşa ödəmələr, həm də işçilərin əmək haqqlarının bir hissəsinin ödənməsi, böyük vergi güzəştləri sahibkarlara ayaqda qalmağa ciddi dəstək olmuşdur. Maliyyə dəstəyi mexanizmlərinin tətbiqi isə iqtisadi subyektlərin maliyyə öhdəliklərində müddətin artırılmasını təmin etməklə yanaşı yeni layihələrdə güzəştli kreditlərə əlçatanlığı təmin etmişdir. Bütün bunlarla yanaşı iqtisadiyyatın daha sürətli inkişafı üçün yeni alətlərə və mexanizmlərə hər zaman ehtiyac yaranır və yeni alətlərin tətbiqi üçün müvafiq işlər də aparılır.

*– 2020-ci il həm də Milli Məclisə seçkilər ili kimi yadda qaldı. Ötən bir ildə Parlamentin, xüsusən də İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin fəaliyyətində nəyi qeyd etmək istərdiniz?*

– 2020-ci il dünyada dövlət idarəetmə sistemləri üçün sınaq ili oldu. İndiyə qədər görünməmiş bir böhranla üz-üzə gələn ölkələr vətəndaşların sağlamlığı və iqtisadiyyatın qorunması üçün mümkün olan bütün vasitələrdən istifadə etməyə çalışdılar.

VI çağırış Milli Məclis qarşısında da mühüm işlər dururdu. Ötən il mart ayının 10-da Milli Məclisin ilk iclasında çıxış edən Prezident İlham Əliyev parlamentin qarşısında olan çağırışları dəqiq təhlil



etdi və müvafiq tövsiyələrini verdi. Dövlət başçısı fəaliyyətdə əsas istiqamətlər kimi kəmiyyətə deyil, keyfiyyətə üstünlük verilməsini, müasir dövrün tələblərinə uyğun fəaliyyət göstərməyi, mövcud qanunvericilik bazasını təhlil etməyi və təşəbbüskar olmağı göstərdi. Ötən 1 il ərzində Milli Məclis dövlət başçısının tövsiyə etdiyi bu istiqamətlərdə fəaliyyət göstərərək müsbət nəticələr əldə etməyə çalışmışdır.

COVID-19 pandemiyasının geniş yayılması kollektiv orqan olan Milli Məclisin də işinə xeyli təsir edib. Amma buna baxmayaraq, Parlamentin işində qısa müddətdə informasiya texnologiyalarının geniş tətbiq olunması işgüzarlığın artırılmasına müsbət təsir edib. Plenar iclaslarda konstruktiv müzakirələrin aparılması, komitə iclaslarında ictimai iştirakçılığın təmin olunması, qanun layihələrinin müzakirəsində üçüncü tərəflərin iştirak etməsi qəbul olunan qanunların keyfiyyətinin artırılmasına xidmət etdi.

Ötən bir il ərzində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində 65 qanun layihəsi müzakirə olunub və qəbul edilib. Müxtəlif məsələlərin sahibkarlarla müzakirəsi üçün 4 işçi qrup yaradılıb və geniş təhlillər aparılıb. Mövcud qanunvericilik aktlarının təhlili üçün xarici təcrübədən yararlanmaq məqsədilə geniş araşdırmalara başlanılıb. Qanun layihələrin müzakirəsinin daha əhatəli və inkluziv olması üçün müvafiq addımlar atılıb. İnanırıq ki, görülən bu işlər qəbul edilən qanunverici aktların keyfiyyətinin daha da artırılmasına gətirib çıxaracaqdır.

*“Rəqabət Məcəlləsi” böyük bir sənəddir. Əsas məsələ qəbul ediləcək sənədin real işlək mexanizmlərini müəyyən etmək və bunun üçün zəmin yaratmaqdır.*

*– Prezident “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ini təsdiqləyib. Sənədlə əlaqədar Komitə qarşısına hansı hədəfləri qoyub?*

– Azərbaycan Prezidenti tərəfindən müəyyən edilən bu prioritetlər iqtisadi siyasət üzrə fəaliyyət göstərən bir komitə kimi bizim fəaliyyətimizin istiqamətlərini müəyyən etmişdir. Qəbul ediləcək bütün qanunverici aktlar bu prioritetlərə istiqamətlənməli və müəyyən ediləcək milli hədəflərə çatmaqda hüquqi çərçivə yaratmalı və iqtisadi subyektləri bu məqsədlərə xidmət etməyə sövq etməlidir. Bu məqsədlə komitədə müvafiq təhlillər aparılır, beynəlxalq təcrübə öyrənilir, mövcud qanunvericilik təhlil olunur, iqtisadi subyektlərlə qanunların icra vəziyyətini öyrənmək üçün mütəmadi görüşlər keçirilir.

*– Komitənin yaxın və orta müddət üçün fəaliyyət gündəliyi barədə nə deyə bilərsiniz?*

– Komitənin iş planı Milli Məclisin plenar iclasında təsdiq olunub. Planımızda 2020-ci ilin Dövlət Büdcəsinin icrasını müzakirə etmək, bəzi məhsulların idxalının və satışının ƏDV-dən azad olun-

masını müəyyən edən qanunverici aktlar hazırlamaq, kölgə iqtisadiyyatının azaldılması, dövlət satınalmalarının təkmilləşdirilməsi və s. məsələlərlə bağlı yeni qanunverici aktların qəbulunu planlayırıq.

*– Sahibkarlar səbirsizliklə "Rəqabət Məcəlləsi"ni gözləyir. Sənədlə bağlı işlər hansı mərhələdədir?*

– "Rəqabət Məcəlləsi" böyük bir sənəddir. Əsas məsələ qəbul ediləcək sənədin real işlək mexanizmlərini müəyyən etmək və bunun üçün zəmin yaratmaqdır. Məcəllənin işlənib hazırlanmasını tezləşdirən bir çox qanunverici aktların təkmilləşməsi üzərində iş gedir. Məsələn, dövlət satınalmaları və kölgə iqtisadiyyatının azaldılması üçün qəbul ediləcək yeni qanunlar bu sıradan olan qanunlardandır. Bu kompleks işlərin nəticəsində sonda Rəqabət Məcəlləsi də işlənib hazırlanacaqdır.

*– Tahir müəllim, Sizi texnologiyalar, innovasiyaların tətbiqi sahəsində bir ekspert kimi tanıyırıq. Bu gün dünyanın texnoloji inkişafında Azərbaycanın imkanlarını necə dəyərləndirirsiniz?*

– Dünya 4-cü sənaye inqilabı dövrünə sürətlə daxil olmaqdadır. Davranış qaydaları, qərar mexanizmləri, iqtisadi reallıqlar sürətlə dəyişir və texnologiyaların hökmranlıq dövrü başlamışdır. Bu reallıqla uzlaşmaq üçün Azərbaycanda da müvafiq addımlar atılır, texnoloji transfer mərkəzləri yaradılır. Əhalinin və ərazinin böyük hissəsini əhatə edən internet infrastrukturu yaradılmışdır. Texnoloji biliyə yiyələnmək gənclər arasında çox populardır.

Texnologiyaların hökmran olduğu dövrdə hər bir ölkənin bu inkişafa qoşulmaq üçün bərabər şansları vardır. Amma bunun üçün tələb olunan imkanlar da olmalıdır. İlk öncə insan resursları və insan kapitalının inkişafına nail olmaq lazımdır. Bu istiqamətdə düşünürəm ki, əlavə işlərin görülməsinə ehtiyac vardır. Ölkəmizin texnolji inkişafını daha da sürətləndirən milli hədəflərin müəyyən edilməsinə ehtiyac var. İnanıram ki, Milli Prioritetlər ilə müəyyən olunacaq milli hədəflər bu istiqamətdə lazımi işlərin görülməsinə imkan yaradacaq.

*– Bəzi ekspertlər "Qarabağ vadisi" kimi təkliflər səsləndirirlər. İqtisadçı kimi bu barədə nə düşünürsünüz?*

> *Azərbaycan Prezidenti tərəfindən müəyyən edilən bu prioritetlər iqtisadi siyasət üzrə fəaliyyət göstərən bir komitə kimi bizim fəaliyyətimizin istiqamətlərini müəyyən etmişdir. Qəbul ediləcək bütün qanunverici aktlar bu prioritetlərə istiqamətlənməlidir.*

– Düşünürəm ki, dünyada artıq bir dəfə reallaşdırılmış ideyaların təkrarlanması bir çox hallarda effekt verməyə bilir. Yeni ideyalar, yeni fikirlər və təkrarsız layihələr uğur qazana bilir. Qarabağda Vətən müharibəsində əldə etdiyimiz qələbə də məhs bu cür yeni və təkrarolunmaz ideyaların tətbiqi sayəsində mümkün olmuşdur. İlk öncə yeni ideyaların mənbəyi olan insan resurs və kapitalının inkişafına maksimum diqqət ayırmaq lazım olacaq. Bu məqsədlə, məsələn, Qarabağ Universitetinin yaradılması, bu unversitetdə daha çox İT yönümlü ixtisasların tədris olunması sonra yeni ideya və lalayihələrin meydana çıxmasına şərait yaradacaqdır. Qarabağın inkişaf imkanları xeyli çoxdur.

*– Azərbaycan Sahibkarlar Konfederasiyasına sahibkarlardan daxil olan məktublarda maliyyə əlçatanlığı məsələsi daim qaldırılır. Sahibkar ucuz maliyyə tapa bilmədiyini bildirir. Bunun üçün nə etmək lazımdır?*

– Maliyyə əlçatanlığın genişləndirilməsi üçün dövlət tərəfindən müxtəlif addımlar atılsa da kommersiya banklarında maliyyə dəstəyi şərtlərindən bir çox sahibkarlar şikayət etməkdədirlər. Aparılmış təhlillər göstərir bu sahədə irəliləyişlərə nail olmaq üçün bankların iqtisadiyyatda rolu daha genişlənməli, maliyyə resurslarının maya dəyəri aşağı salınmalı, lüzumsuz xərclər azaldılmalı, banklarda olan likvid vəsaitlərin iqtisadiyyata maneəsiz transmissiyası təmin olunmalıdır. Digər tərəfdən, maliyyə əlçatanlığının yalnız banklar tərəfində deyil, investisiya fondları tərəfindən də təmin olunmasına nail olmaq lazımdır. Məhs investisiya fondlarının inkişafı bir çox maraq kəsb edən innovativ layihələrin reallaşmasına mühüm dəstək ola bilər.

*– Azərbaycanın milli sahibkarlığını necə görürsünüz? Nəyi dəyişməyi təklif edərdiniz?*

– Azərbaycanda milli sahibkarlıq hər zaman inkişaf edib. Çətin sınaqlardan üzü ağ çıxıblar. Ölkəmizin güclənməsi yolunda mühüm səy göstəriblər. Bu nəticələrə nail olmaqda dövlət başçısı cənab İlham Əliyevin sahibkarlara olan qayğısı həlledici rol oynayıb.

Dünya sürətlə dəyişdikcə sahibkarlarımız qarşısında da mühüm çağırışlar yaranmaqdadır. Sahibkarlarımız daim yeni ideyaların, texnologiyaların tətbiqinə çalışmalı, əlavə dəyər yaradan sahələrin inkişafına xüsusi diqqət yetirməlidirlər. İnnovativ olmaq, daim axtarışda olmaq, dünya ilə ayaqlaşmaq, rəqabət qabiliyyətli olmaq, qanuni fəaliyyət göstərmək – bütün bunlar müasir sahibkarlığın əsas hədəflərindən olmalıdır. Müasir dünyada rəqabətdə qalib gəlməyin tək yolu innovativ olmaqdır.

*– Müsahibə üçün təşəkkür edirik.*



**Məhərrəm Quliyev,**
Goranboy rayon
İcra Hakimiyyətinin başçısı

# "Goranboyda iş qurmaq istəyən hər kəs üçün şəffaf mühit yaradılıb"

Azərbaycanın torpaqlarını işğaldan azad etməsi uğrunda apardığı şanlı müharibədə əzmkar əhalisi, milli sahibkarları ilə fərqlənən rayonlarımızdan biri də Goranboydur. Müsahibimiz Goranboy rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevdir.

*– Goranboy 44 günlük Vətən müharibəsi dövründə işğalçı Ermənistanın artilleriya hücumundan ən çox zərərçəkən rayonlarımızdan biridir. Eyni zamanda ərazi bütövlüyümüz uğrunda öz canlarından keçən qəhrəman övladları var. Hazırda rayonda sosial-iqtisadi vəziyyət necədir, hansı işlər görülür?*

– Azərbaycan xalqının böyük oğlu, Müasir Azərbaycan Respublikasının qurucusu Heydər Əliyevin siyasi iradəsi ilə, 1994-cü ildə Azərbaycan və Ermənistan arasında əldə olunmuş atəşkəs rejimi Dağlıq Qarabağ məsələsinin siyasi-diplomatik müstəvidə, sülh yolu ilə həll olunması üçün vaxt imkanı yaratsa da, bu həll prosesi 26 ildən artıq müddət idi ki, mənasız və nəticəsiz danışıqlarla davam edirdi. ATƏT-in Minsk Qrupunun fəaliyyətsizliyi, dünyanın ikili standartları, beynəlxalq ədalətsizlik və erməni siyasi dairələrinin məsuliyyətsiz çıxışları, onsuz da mənasız yerə uzanan bu danışıqların limitinin bitdiyini göstərməkdə idi. Prezident cənab İlham Əliyevin də bildirdiyi kimi, bu nəticəsiz və mənasız danışıqlar belə davam edə bilməz. Bizim də səbrimizin bir son həddi var. Valday Konfransında cənab İlham Əliyevin qarşısında Paşinyanın özünü itirməsi və çıxışı zamanı "Qarabağ Azərbaycandır" deməsi onun siyasi savadsızlığını bir daha sübüt etdi. Paşinyanın Şuşa şəhərində əyyaş vəziyyətdə rəqs etməsi və təlxək hərəkətləri isə Azərbaycan xalqının və onun Ali rəhbərinin, onsuz da tükənməkdə olan səbrini bitirirdi. 12 iyul 2020-ci il tarixdə isə Ermənistanın Tovuz təxribatı artıq düşmənin yeni ərazi iddialarında olduğunu nümayiş etdirdi. Məqsəd isə regionda yeni gərginlik mənbəyi yaratmaq, Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalı məsələsini ikinci plana keçirtmək, üçüncü döv-

lətləri münaqişəyə cəlb etmək idi. 27 sentyabr 2020-ci il - Ali Baş Komandanımız cənab İlham Əliyevin əmri ilə əks hücum əməliyyatları ilə, torpaqlarımızın azad olunması uğrunda Vətən müharibəsinin başlanması kimi Müstəqil Azərbaycanın müasir tarixinə qızıl hərflərlə qeyd olundu. Bu şanlı tarixi Azərbaycan xalqı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev və onun Komandanlığı altında Azərbaycanın Rəşadətli, Müzəffər Ordusu yazdı.



Artıq Qarabağ bölgəsində infrastrukturun bərpasına başlanıb. Tezliklə həmin ərazilərdə digər quruculuq-abadlıq işləri və sosial-iqtisadi layihələr də icra ediləcək. Bunun üçün indidən zəruri infrastruktur qurulur ki, bərpa prosesində heç bir problem yaranmasın. İnfrastruktur layihələrinin sürətlə həyata keçirilməsi dövlət başçısının bu sahədə işlərin tezliklə başa çatdırılması üçün verdiyi tapşırıqların vaxtında yerinə yetiriləcəyindən xəbər verir.

Qeyd etmək istəyirəm ki, 1-ci Qarabağ savaşında olduğu kimi 2-ci Qarabağ-Vətən müharibəsində də goranboylular Cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, bir daha öz Qəhrəmanlıq və mübarizliyini nümayiş etdirdilər. 1-ci Qarabağ savaşı zamanı erməni işğalçılarına bir qarış da torpaq verməyən goranboylular, birlik və cəsarət göstərərək onilliklər boyu erməni tapdağında olan Ağcakənd-Gülüstan ərazilərini düşməndən azad etmişdir. Prezidentimiz, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə, Müzəffər Ordumuzun 44 günlük Vətən müharibəsində apardığı rəşadətli döyüş əməliyyatlarında iştirak edən minlərlə goranboylu öz adlarını növbəti dəfə tarixə qəhrəman kimi yazdırdılar. Bu Şanlı Vətən müharibəsində 56 goranboylu Şəhidlik zirvəsinə ucaldı, 242 döyüşçü Qazi adını qazandı, onlarla döyüşçümüz müxtəlif orden və medallarla təltif edildi. Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə, həmyerlimiz, Qızılhacılı qəsəbəsindən Həsənov Saleh Valeh oğlu Vətən müharibəsində göstərdiyi xüsusi fədakarlıq və şücaətinə görə "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adına layiq görüldü.

Hazırda rayonumuzda əsaslı tikinti-quruculuq və yenidənqurma işləri, böyük infrastruktur layihələrin icrası davam etdirilir. Belə ki, Prezident cənab İlham Əliyevin müvafiq tapşırığına əsasən, Goranboy şəhər Olimpiya-İdman Kompleksinin, 38 km-lik Əlirzalı-Xan Qərvənd -Yeniyol-Təklə-Aşağı Ballıqaya-Səfikürd-Rəhimli-Tap Qaraqoyunlu avtomobil yolunun, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın birbaşa tapşırığı və Heydər Əliyev Fondunun təşəbbüsü ilə "Yeniləşən Azərbaycana-yeni məktəb" layihəsi əsasında, 720 şagird yerlik Goranboy şəhər 1 nömrəli və 960 şagird yerlik Dəliməmmədli şəhər məktəblərinin tikinti işləri davam etdirilir. Goranboy şəhər 1 saylı uşaq bağçası-Körpələr evi müasir üslubda yenidən qurulmuşdur. Rayonda "Qalib Qroup", "Gilan and Knauf", "Retro" Gips Üzlük-Suvaq Yapışdırıcı İstehsalı, "Antim" MMC, "Kaskad-Aqro" MMC və "Türk Yapı Sənaye" müəssisələri, "Med Life" Diaqnostik və Estetik Mərkəzi fəaliyyət göstərir. Rayonda aqrar sahənin inkişafında cənab Prezidentimizin təşəbbüsü ilə yaradılmış "Region Aqro"nun xüsusi payı vardır. Belə ki, 4,7 min ha sahədə yaradılmış Aqroparkda 2,0 min ha sahədə "pivot" və meyvə bağları üçün "damcılama" suvarma sistemləri quraşdırılmış, 11 km-lik avtomobil yolu, "Şəmkir Maşın" kanalından 12,1 km-lik su kəməri çəkilmiş, 400 min kub metrlik 2 ədəd su anbarı, 18 min tonluq taxıl anbarı, toxumpaketləmə zavodu, inzibati və yardımçı binalar inşa edilmiş, 64 ədəd texnika alınmış, 1,4 min ha sahədə taxıl, 93 ha sahədə yonca əkilmiş və 150 nəfər işlə təmin edilmişdir. Qızılhacılı qəsəbəsi ərazisində fəaliyyət göstərən "Kaskad-Agro"MMC-yə məxsus istixananın ümumi sahəsi 5 hektardır. İstixanaya 8,5 milyon manata yaxın vəsait xərclənmiş, 70 nəfər işlə təmin edilmişdir. İllik istehsal gücü 1500 ton olan istixana, məhsullarını, əsasən xarici, qismən də daxili bazara çıxaracaqdır. Muzdurlar kəndində fəaliyyət göstərən 920 başl iribuynuzlu, südlük və damazlıq heyvandarlıq kompleksin nəzdində süd məhsullarının emalı müəssisəsinin və damazlıq qoyunçuluq təsərrüfatının da yaradılması nəzərdə tutulmuşdur. Bütün bunlar reallaşdıq-

dan sonra, ümumilikdə 150 yeni iş yerinin yaradılması gözlənilir.

*– Məlumdur ki, bütün xalqımız, eləcə də sahibkarlarımız Ali Baş Komandan İlham Əliyevin ətrafında dəmir yumruq kimi birləşdilər və torpaqlarımızın azad olunması uğrunda haqq savaşında əllərindən gələni etdilər. Bununla bağlı Goranboy rayonunda çalışan sahibkarlarımızın əməyinə Rayon İcra Hakimiyyəti yüksək qiymət verdi. Dövlətimizin inkişafına xidmət edən dövlət-özəl sektorun bu əməkdaşlığı barədə nə deyə bilərsiniz?*

– Bu Vətən müharibəsində goranboylu sahibkarlar da ordumuza mənəvi və maddi dəstəyini göstərməkdə açıq həmrəylik və fəallıq nümayiş etdirdilər. Goranboylu sahibkarlar, iş adamları tərəfindən Azərbaycan Silahlı Qüvvələrinin və YAŞAT Fondunun bank hesablarına ümumilikdə, 554900 (beş yüz əlli dörd min doqquz yüz) manat vəsait köçürüldü. Bundan əlavə, Şəhid dəfnlərinin və yas mərasimlərinin təşkilinə, Şəhid ailələrinə və Qazilərə maddi yardımlar təşkil edildi. Bütün bu xidmətlərə və yüksək vətənpərvərlik nümayiş etdirdiklərinə görə, həmin sahibkarlar, iş adamları və ictimai fəallar RİH tərəfindən yüksək qiymətləndirildi, o cümlədən 39 sahibkara RİH Başçısının Fəxri Fərmanları təqdim edildi.

Bildiyiniz kimi, ölkə iqtisadiyatında özəl sektorun xüsusi payı var, bu sahəyə də dövlət başçısının diqqət və qayğısı daim özünü göstərməkdədir. Bu baxımdan sahibkarlıq fəaliyyətinin genişləndirilməsi və stimullaşdırılması məqsədi ilə dövlət tərəfindən güzəştli kreditlərin verilməsi, texnika və texnoloji avadanlıqların təminatında 40 faiz dövlət güzəştinin tətbiqi və uzunmüddətli faizsiz ödəmələrin həyata keçirilməsi təqdirəlayiqdir. O cümlədən, rayonda da bütün iş adamları; sahibkarlar, fermerlər və istehsalçılar bu səmərəli imkanlardan maksimum yararlanırlar. Goranboy rayonunun kənd təsərrüfatı yönümlü rayon olduğunu nəzərə alsaq, burada aqrolizinq fəaliyyətinin daha da geniş miqyasda inkişafının təmin olunması istiqamətində əsaslı işlər görülür. Belə ki, rayonda "Goran Aqro" və "Umud Aqro" müəssisələri vasitəsi ilə, fermer və digər istehsalçılara müxtəlif aqrolizinq xidmətləri göstərilir. Son 2 ildə heyvandarlığın inkişafı ilə bağlı da müəyyən yüksək nəticələr əldə olunmuşdur. Rayonda mövcud 5 cins heyvandarlıq kompleksi var ki, burada 900 baş iribuynuzlu yüksək məhsuldar südlük və ətlik heyvanlar saxlanılır. Bu da bölgədə əhalinin heyvandarlıq məhsullarına olan gündəlik tələbatının ödənilməsi və xüsusən də, daimi iş yerlərinin yaradılmasında önəm daşıyır.

*– Müharibə dövründə işğalçılar tərəfindən rayona və sahibkarlara dəyən ziyanın hesablanması ilə bağlı hansı işlər görülür?*

– Dəfələrlə düşmənin açdığı atəş nəticəsində yaşayış məntəqələrimiz, hərbi təyinatı olmayan mülki binalarımız tamamilə dağıdılmış və ya yararsız hala salınmışdır. Əsasən əkinçilik və maldarlıqla məşğul olan kənd sakinlərinin örüş və torpaq sahələrində, həyətlərində hədəf alınaraq həlak edilmələri ermənilərin insanlıqda hansı payın sahibi olduqlarını bir daha təsdiq etdi. Rayonun Tap və Tap Qaraqoyunlu, Yenikənd, Qaraçinar, Meşəli, Şahməmmədli kəndləri, Yuxarı və Aşağı Ağcakənd, Qızılhacılı qəsəbələri ilə yanaşı digər yaşayış məntəqələri də düşmənin ağır artilleriya atəşlərinə tutulub. Açılan ağır artilleriya atəşləri nəticəsində 366 yaşayış evinə ziyan dəymiş, 5 yaşayış evi isə tamamilə dağıdılmışdır. Ərazisinə atılan raket və artilleriya mərmilərinin sayı 700-dən çox olmaqla, ən çox mərmi atılan rayon Goranboy oldu. Düşmənlə təmas xəttində yerləşən rayonun sosial və iqtisadi sahədə inkişafının təmin olunması üçün dövlət başçısı tərəfindən lazımi addımalar atılmışdır. Gəncə-Qazax iqtisadi rayonuna daxil olan Goranboy rayonunda iqtisadiyyatın düzgün tənzimlənməsi bəhrəsini vermiş, əhalinin işsizliyi minumum səviyyəyə düşmüşdür. Coğrafi baxımdan əlverişli mövqedə yerləşən Goranboyun ərazisindən beynəlxalq magistral yolun, xarici ölkələrin ehtiyaclarını və enerji təhlükəsizliyini təmin edən neft-qaz kəmərlərinin keçməsi rayonun iqtisadi imkanlarını daha da artırır. Erməni hərbi birləşmələrinin törətdikləri təxribat rayonun dinc sakinlərinə vurduğu ziyanla yanaşı, iqtisadiyyatına da mənfi təsirini göstərmişdir. Ağır artilleriya və raketlər rayonun fauna və florasına xeyli ziyan vurmuşdur. Düşmənin atdığı raketlər bəzən əkin sahələrinə düşdüyündən



torpağın üst münbit qatını yararsız hala salmış, meşələrimizə düşən mərmilər yanğınlara səbəb olduğu üçün rayonun fauna və florasına güclü mənfi təsir göstərmişdir. Suqovuşan kəndinin işğaldan azad olunması strateji əhəmiyyətli olması ilə birgə iqtisadiyyatımıza müsbət təsirini elə həmin gündən göstərməyə başladı. Suqovuşan su anbarından buraxılan suyun nəticəsində minlərlə hektar əkin sahəsinin davamlı olaraq suvarılması kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə ediləcəyinin qarantıdır. Hazırda Suqovuşan su anbarından Goranboy rayonunun Əlirzalı, Xan Qərvənd, Boluslu, Yeniyol, Balakürd kəndləri və Qızılhacılı qəsəbə sakinləri İncəçay vasitəsilə istifadə edirlər.

*– Bu gün Goranboyun iqtisadi xəritəsinə toxunsaq hansı sahələri qeyd etmək olar? Əhalinin əsas məşğulluğu nədən ibarətdir və hansı sahələrin inkişaf perspektivini yüksək qiymətləndirirsiniz?*

– Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev 13 sentyabr 2002-ci il tarixində Goranboy rayonuna tarixi səfəri zamanı demişdir: "Goranboy rayonu Azərbaycanın iri, çox böyük iqtisadi potensiala malik və strateji xarakter daşıyan rayonudur".

Məhz Ümummilli Liderimizin rayonumuzun sosial-iqtisadi potensialını tam mənası ilə ifadə edən bu dəyərli sözlərini rəhbər tutaraq ifadə etmək istəyirəm ki, rayonda yüngül sənayenin, mədən sənayesinin, iqtisadiyyatın müxtəlif sahələri üzrə emal müəssisələrinin, kənd təsərrüfatının və ticarətin inkişafı üçün hər cür əlverişli təbii imkanlar mövcuddur. Əhalinin əsas məşğuliyyəti isə əkinçilik və heyvandarlıqdır. Əkinçilikdə taxıl, pambıq, tütün, şəkər çuğunduru, qarğıdalı, tərəvəz, bostançılıq və yem bitkilərinin becərilməsinə üstünlük verilir. Rəsmi statistik məlumata əsasən, iri buynuzlu mal-qaranın sayı-39150 baş, xırda buynuzlu (qoyun və keçi) – 198260 baş, ev quşları – 401 min 750 ədəd təşkil edir. Ötən ildə 4 min 930 ton ət, 42 min 104 ton süd, 22 milyon 759 min ədəd yumurta və 404 ton yun istehsal olunmuşdur. Vətən müharibəsi dövründə də rayonumuzda tikinti, abadlıq və quruculuq işləri öz axarı ilə davam etdirilmiş, goranboylular ön cəbhədə olduğu kimi, arxa cəbhədə də əzmlə çalışmışdır. Rayonumuzda daha çox meyvəçiliyin, heyvandarlığın, xüsusən də süd emalı və meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi müəssisələrinin yaradılması və inkişaf perspektivlərini yüksək qiymətləndirirəm. Rayonun ən iri sənaye-istehsal müəssisəsi olan "Qalib Qroup"MMC-də aqrar sahənin inkişafında mühim rol oynayacaq kənd təsərrüfatı texnikalarının istehsalına başlanılacaq ki, bu da rayonda fermerlərin aqrotexnika tələbatının ödənilməsinə və kənd təsərrüfatının daha da inkişafına öz töhfəsini verəcəkdir.

> *Goranboy rayonunun kənd təsərrüfatı yönümlü rayon olduğunu nəzərə alsaq, burada aqrolizinq fəaliyyətinin daha da geniş miqyasda inkişafının təmin olunması istiqamətində əsaslı işlər görülür.*

*– Bildiyiniz kimi, yeni sahibkarlıq subyektlərinin yaradılması, regionların inkişafı, daim ölkə prezidenti İlham Əliyevin diqqət mərkəzindədir. Goranboy rayonunda sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı nələri demək olar?*

– Möhtərəm cənab İlham Əliyevin qeyd etdiyi kimi, bu gün Azərbaycanda çox güclü sahibkarlar sinfi yaranıb. Son illərdə dünyada bir sıra arzuolunmaz tendensiyaların müşahidə edilməsinə baxmayaraq, Azərbaycan nəinki öz dayanıqlılığını qorumağa, hətta iqtisadi potensialını əhəmiyyətli dərəcədə artırmağa nail olub. Qlobal risklər şəraitində Azərbaycanın davamlı inkişaf templərini saxlamasını şərtləndirən mühüm amillərdən biri də ölkəmizdə özəl bölmənin inkişafının yüksək səviyyədə dəstəklənməsi ilə bağlıdır. Respublikamızda dövlət sahibkarlığın inkişafına həm siyasi, həm də maddi dəstək verir. Azərbaycan iqtisadiyyatı uzun illər ərzində neft amili ilə sıx bağlı olub. Bununla belə, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən məqsədyönlü siyasət, uğurlu inkişaf modeli sayəsində ölkəmiz neft amilindən asılılıq sindromundan yan keçib. Zamanında həyata keçirilən islahatlar, şaxələndirmə siyasəti Azərbaycan iqtisadiyyatının dayanıqlılığını şərtləndirir. "Əsrin müqaviləsi" və digər kontraktlar çərçivəsində ölkəmizə gələn neft gəlirləri gələcək inkişaf baxımından prioritet sayılan sahələrə, o cümlədən də, iqtisadiyyatın diversifikasiya edilməsinə, ağırlıq mərkəzinin tədricən qeyri-neft sektoruna istiqamətləndirilməsinə yönəldilir ki, bütün bunlar da son nəticədə respublikanın dinamik sosial-iqtisadi inkişafında öz əksini tapır. Prezident İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq Azərbaycan elə bir dayanıqlı iqtisadiyyat qurmağı hədəfləyib ki, burada neft amili başlıca rol oynamasın.

Goranboyda sahibkarlığın inkişafı və biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı demək istəyirəm ki, bu gün rayonumuzda kifayət qədər şəffaf və əlverişli mühit formalaşdırılmış, yerli sahibkarlar və digər iş adamları üçün öz biznes və sahibkarlıq fəaliyyətlərini yaratmaq və genişləndirmə-



ləri üçün bütün mövcud imtiyaz və imkanlardan maneəsiz istifadə etmək şəraiti yaradılmışdır.

Xüsusi ilə qeyd edirəm ki, rayon ərazisində sahibkarlıq məqsədi ilə, RİH tərəfindən tikintiyə müvafiq icazə sənədlərinin verilməsi elektron qaydada həyata keçirilir. Bu da dövlət idarəsi ilə sahibkar arasında şəffaflıq və operativliyin təmin olunması baxımından önəmlidir. Biznes mühitinin daha da yaxşılaşdırılması ilə bağlı rayonun turizm imkanlarından səmərəli istifadə olunması məqsədə müvafiq olardı. Çünki Goranboy rayonunun təbii-coğrafi mövqeyi burada turizm-biznes sahəsinin inkişafı üçün geniş imkankların olduğunu göstərir. Cənab Prezidentimizin qayğısı ilə həyata keçiriləcək 8 kəndi birləşdirən 36 km Aşağı Ağcakənd-Todan avtomobil yolunun tikintisi bu zonada turizm və biznes mühitinin inkişafı üçün yeni töhfələr verəcəkdir.

*– İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Goranboy rayonunda sahibkarlara verilən güzəştli kreditlər daha çox hansı sahələri əhatə edir?*

– Bildirirəm ki, İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayonumuzda da sahibkarlığın inkişafını sürətləndirmək məqsədi ilə yerli sahibkarlara güzəştli kreditlər verilmişdir. Həmin vəsaitlər əsasən kənd təsərrüfatı sahəsini, o cümlədən əkinçilik və heyvandarlıq sahələrini əhatə etmişdir. Ötən dövr ərzində kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət tərəfindən 2,8 milyon manat subsidiya ödənilmiş, sahibkarlığın inkişafının stimullaşdırılması məqsədilə 1028 sahibkar Sahibkarlığın İnkişafı Fondu tərəfindən verilən 19 milyon manat güzəştli kreditdən bəhrələnmişdir.

*- Prezident İlham Əliyev hər bir icra başçısının işinə həm də rayona cəlb olunan özəl sərmayənin həcminə görə qiymət veriləcəyini deyib. Rayonlarda özəl sərmayənin cəlb olunmasına marağı artırmaq üçün hansısa əlavə tədbirlərə ehtiyac varmı?*

- Mən düşünürəm ki, rayonda özəl sərmayənin cəlb olunmasına marağı artırmaq üçün öncə sahibkarların, bütün iş adamlarının sərmayə yatırımına, investisiya qoyuluşuna inam və etibarın yaradılması vacibdir. Hesab edirəm ki, biz Goranboyda buna nail olmuşuq. Bu baxımdan da son 2 ildə rayonda sahibkarlığın inkişafı, o cümlədən özəl sərmayə yatırımı ilə bağlı diqqətçəkən işləri, faktları qeyd etmək olar. Nümunə olaraq, yerli iş adamları Xaliq Mustafayevin Goranboy şəhərində şəxsi vəsaiti hesabına inşa etdirdiyi "Medlife" estetika və sağlamlıq mərkəzini, Qalib Mustafayevin qurduğu "Evalar" toxuculuq fabrikini, Qızılhacılı qəsəbəsində inşa edilmiş və müasir texnologiya ilə idarə olunan "Kaskod Aqro" MMC və digərlərini göstərmək olar. Mən sahibkarlarla, iş adamları ilə keçirdiyim bütün fərdi və ümumi görüşlərdə qeyd etmişəm ki, Goranboyda iş qurmaq istəyən hər kəs üçün şəffaf mühit yaradılıb və biz də dövlət idarəçiliyi təmsilçiliyini yerinə yetirən şəxslər kimi, daim sahibkarlara, iş adamlarına dəstəyimizi göstərməyə hazırıq.

*– 25 Aprel – Sahibkarlar Günüdür. Fürsətdən istifadə edib, rəhbərlik etdiyiniz rayonda çalışan və burada iş qurmaq istəyən sahibkarlara sözünüz...*

– Goranboy rayonu sahibkarlığın inkişafı üçün, sahibkar və iş adamlarının sərmayə yatırımı üçün olduqca əlverişli bölgədir. Bir daha qeyd edirəm ki, bu rayonun coğrafi mövqeyi, təbii sərvəti, faydalı qazıntıları, münbit torpağı, zəngin tarixi, əlverişli turizm potensialı, təmiz suyu və havası imkan verir ki, burada sahibkarlar, iş adamları tərəfindən genişmiqyaslı işlər görülsün. Mən bütün görüşlərdə, tədbirlərdə vurğulamışam və bir daha qeyd edirəm ki, bütün yerli sahibkarları və burada iş qurmaq istəyən iş adamlarını Goranboy rayonunda yeni layihələrin icrasına, müasir və daha böyük istehsal müəssisələrinin yaradılmasına, mövcud potensial imkanlardan maksimum istifadə etməklə turizmin inkişaf etdirilməsinə dəvət edirəm.

Biz goranboylular həmişə olduğu kimi, bundan sonra da həyata keçirilən möhtəşəm quruculuq işlərində daha da yaxından iştirak edəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin böyük diqqət və qayğısına əməli işimizlə cavab verəcək, müstəqil Azərbaycanımızın inkişafı naminə üzərimizə düşən bütün vəzifələri layiqincə yerinə yetirəcəyik.

*İlhamə Abdullayeva*



**Nicat İmanov,**
İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsinin rəisi

# Dövlət-sahibkar münasibətlərində "horizontal platforma"nın qurulması hədəflənir

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində bir sıra stuktur dəyişiklikləri həyata keçirilib. Bu dəyişikliklərin bir hissəsi Vergi siyasəti Baş İdarəsinin fəaliyyətini əhatə edib. Baş idarənin rəisi Nicat İmanov dəyişikliklərin mahiyyəti və qarşıya qoyulan əsas məqsədləri şərh edib.

**– Nicat müəllim, Vergi siyasəti Baş İdarəsində aparılmış son struktur dəyişiklikləri nələri əhatə edir və bu, hansı zərurətdən irəli gəlib?**

– Dövlət Vergi Xidməti bu gün Azərbaycanda iqtisadi inkişafın təmin edilməsində, sahibkarlığın dəstəklənməsi prosesində fəal iştirakçıya çevrilə bilib və ötən illər bir daha göstərdi ki, vergi orqanları ölkənin iqtisadi inkişaf strategiyasının hazırlanmasında və həyata keçirilməsində öz töhfələrini vermək iqtidarındadır. Bu gün hər bir sahənin fəaliyyət prioritetləri hökumətin başlıca vəzifəsi olan davamlı iqtisadi artımın təmin edilməsinə istiqamətlənməlidir.

Məlum olduğu kimi, qanunvericiliyin ictimai münasibətlərin tələblərinə uyğunlaşdırılması və onun icra mexanizmlərinin effektivliyi əlverişli biznes mühitinin formalaşdırılması üçün böyük əhəmiyyət daşıyır. Bu baxımdan, vergi qanunvericiliyinin tətbiqi zamanı sahibkarların qarşısına çıxan çətinliklərin öyrənilməsi, bu istiqamətdə dövlət vergi orqanları ilə sahibkarlar arasında qarşılıqlı birgə əməkdaşlığa əsaslanan horizontal münasibətlərin qurulması vergi siyasəti üzrə prioritet istiqamətlərdən biridir.

Təsadüfi deyil ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də cəmiyyət, biznes və dövlət üçlüyünün əhəmiyyəti vurğulanmaqla yanaşı, biznesə dost dövlət idarəetməsi iqtisadi yüksəlişin təməl amilləri sırasında qeyd edilib. Həmçinin, İqtisadiyyat Nazirliyinin rəhbərliyi tərəfindən vergi ödəyiciləri ilə vergi qurumları arasında münasibətlərin yeni müstəvidə qurulması, dialoq formatında görüşlərin keçirilməsi, assosiasiyalarla bağlı görülməli olan işlərin intensivləşdirilməsi barədə tapşırıqlar verilib.

Sahibkarların maraqlarını təmsil edən sahibkar birlikləri,

assosiasiyaları və digər ödəyici qrupları ilə qarşılıqlı əməkdaşlığa əsaslanan birgə fəaliyyətin təmin edilməsi məqsədilə iqtisadiyyat nazirinin müvafiq əmrinə əsasən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Vergi siyasəti Baş İdarəsində struktur dəyişiklikləri aparılıb, Qanunvericiliyin monitorinqi və sahibkarlıq subyektləri ilə iş idarəsi, o cümlədən idarənin tərkibində Sahibkar birlikləri və assosiasiyaları ilə iş şöbəsi yaradılıb. Yeni strukturun formalaşdırılmasında əsas məqsəd birgə fəaliyyət zamanı dövlətlə sahibkarlar arasında münasibətləri dialoq platformasında inkişaf etdirmək, sahibkarların vergi qanunvericiliyi ilə əlaqədar qarşılaşdıqları sektoral problem və çətinliklərin dinlənilməsi, qanunvericilikdə və inzibatçılıqda olan çatışmazlıqların müəyyən edilərək aradan qaldırılmasından ibarətdir.

**– Sahibkar birlikləri və assosiasiyaları ilə iş şöbəsinin fəaliyyət prinsipi nədən ibarət olacaq?**

– Son illərdə vergi sahəsində aparılan islahatlara nəzər salsaq, görərik ki, dövlət-sahibkar münasibətlərinin yeni müstəviyə çıxarılması, qarşılıqlı dialoqa əsaslanan işgüzar münasibətlərin qurulması diqqət mərkəzindədir. Struktur dəyişiklikləri, əslində, bu proseslərin davamıdır. Dövlət-sahibkar münasibətlərində horizontal platformanın qurulması hədəflənir. Qurulan iş, ilk növbədə, sektoral problemlərin davamlı olaraq öyrənilməsi və inkişaf perspektivləri, bu məqsədlə qanunvericilik strukturunu necə dəyişmək barədə dövlət qurumlarının məlumatlı olmasını təmin edəcəkdir. Nəticədə sektor üzrə vergi mexanizmlərinin təkmilləşdirilməsi, dəstək tədbirlərinin görülməsi və yeniliklərin tətbiqi üçün əlverişli şərait yaranmış olacaq. Bu, həm də sahibkarlarla dialoq mesajının cəmiyyətə əyani çatdırılmasıdır. Yeni yaradılmış şöbə müxtəlif fəaliyyət sahələri üzrə sahibkarlıq birlikləri və assosiasiyaları, ictimai birliklər, ticarət palataları və digər ödəyici qrupları ilə aktiv ünsiyyətdə olacaq. Qarşıya qoyulan hədəflərə nail olmaq və qanunvericiliyin tətbiqinin sahibkarlıq subyektlərinin fəaliyyətində yaratdığı müsbət və mənfi halları araşdırmaq üçün bir neçə istiqamətlərdə işlərin görülməsi nəzərdə tutulub.

“

*Dövlət Vergi Xidməti bu gün Azərbaycanda iqtisadi inkişafın təmin edilməsində, sahibkarlığın dəstəklənməsi prosesində fəal iştirakçıya çevrilə bilib və ötən illər bir daha göstərdi ki, vergi orqanları ölkənin iqtisadi inkişaf strategiyasının hazırlanmasında və həyata keçirilməsində öz töhfələrini vermək iqtidarındadır.*

**– Sahibkarların qarşılaşdıqları problemlərin həlli istiqamətində hansı işlərin görülməsi nəzərdə tutulur?**

– Sahibkarlığın qarşısında duran problemlərin müəyyən olunması məqsədilə sahibkar birlikləri və assosiasiyaları ilə mütəmadi olaraq görüşlərin və müzakirələrin təşkil edilməsi, müəyyən edilmiş real problemlərin həlli istiqamətində vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsinə dair təkliflərin verilməsi nəzərdə tutulur. Hər şeydən öncə, sektorlar üzrə mövcud problemlər və çətinliklər barədə aydın təsəvvür yaradılmalıdır. Bu məqsədlə ayrı-ayrı sektorlar üzrə fəaliyyət göstərən assosiasiyalarla sistemli bir şəkildə iş aparılacaq.

Qeyd edim ki, artıq aktiv fəaliyyət göstərən sahibkar birlikləri və assosiasiyalarla fəal əməkdaşlığa başlanılıb. Bu il fevralın 22-də sahibkarların ictimai birlikləri ilə videokonfrans formatında ilk görüş keçirilib. Həmin görüşün nəticəsi olaraq, sektorlardakı mövcud çağırışlar və onların həlli üçün görə biləcəyimiz işlərlə bağlı təkliflərin formalaşdırılması barədə razılaşma əldə edilib. Hazırda Dövlət Vergi Xidməti tərəfindən müvafiq assosiasiyalarla birgə hər bir vergi növü üzrə sahibkarların qarşılaşdıqları problemlər və çatışmazlıqlar barədə məlumatlar toplanılır. Daha sonra bu məlumatlar emal ediləcək və qarşılıqlı müzakirələr zamanı həmin problemlərin obyektivliyi, habelə alternativ həlləri, yaxud yeni formatın hazırlanması zəruriliyi aydınlaşdırılacaq.

Görüşlərimiz zamanı vergi ödəyiciləri tərəfindən daimi xarakter alan pozuntu halları barədə, eləcə də qanunvericiliklə bağlı vahid yanaşmanın təmin edilməsi üçün assosiasiyalar məlumatlandırılacaq. Onlar da öz növbəsində xarakterik nöqsanlar, habelə vergi orqanının izahları barədə məlumatları sektorda çalışan sahibkarlıq subyektlərinin diqqətinə çatdıracaqlar ki, nəticədə informasiya mübadiləsinin çevikliyi və intensivliyi artmış olacaq. Həmçinin inzibatçılıq sahəsində qarşıda duran çətinliklərin aradan qaldırılmasında həmin sektorlara müvafiq dəstək veriləcək. Bu, sənədləşmələrin tərtibi, elektron sənədləşmədəki çətinliklərin aradan qaldırılması, yeni elektron xidmətlərin tətbiqi və ya təkmilləşdirilməsi ola bilir. Yəni məqsəd sahibkarların inzibatçılıq yükünü azaltmaq, praktiki təcrübəyə uyğun inzibatçılığın qurulmasıdır ki, onlar üçün ikili iş yükü yaranmasın.



Sahibkarlar qarşılaşdıqları problemlər, mövcud vergi siyasəti, həmçinin sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər verə bilərlər. Bu əməkdaşlıq dövlət-sahibkar tərəfdaşlığının inkişaf etdirilməsinə, qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində sahibkarların daha yaxından cəlb olunmasına imkan verəcək.

**– Builki Vergi Forumunda səsləndirilən yeni fikirlərdən biri də gələcəkdə Vergi Məcəlləsinin strukturunun dəyişdirilməsi ilə bağlı idi. Bu, hansı zərurətdən irəli gəlir?**

– Dövlət Vergi Xidmətinin qarşısında duran hədəflərin icrası baxımından, Vergi Məcəlləsinin yeni strukturunun hazırlanması və mövcud tərtibat formasında dəyişikliklərin edilməsi nəzərdə tutulur. Vergi Məcəlləsinin strukturunun dəyişilməsinin və yeni redaksiyada hazırlanmasının zəruriliyi bir neçə səbəblə bağlıdır. Əvvəla, Məcəllənin daha anlaşılan olması və rəqabətqabiliyyətliliyinin təmin edilməsi üçün zəruri dəyişikliklər edilməsi vacibdir. İkincisi, ölkəyə xarici investisiyaların cəlb edilməsi baxımından daha stabil Vergi Məcəlləsinə ehtiyac vardır. Xarici investorlar müəyyən zaman intervalında vergi mühitinin sabit qalacağına əmin olmalıdırlar. Üçüncüsü, fəaliyyət sahələri üzrə vergiyə cəlb edilən əməliyyatların detallı şəkildə tənzimlənməsi üçün Vergi Məcəlləsinin yeni strukturuna ehtiyac vardır. Sahibkarların ictimai birlikləri ilə aparılan işin məqsədlərindən biri də budur. Nəhayət, Azərbaycanın vergi xidmətinin son illərdə əldə etdiyi beynəlxalq təcrübəyə nəzər salsaq, görərik ki, beynəlxalq vergi münasibətlərinə inteqrasiyanın təmin olunması baxımından bütün bunları özündə əks etdirən, daha qlobal xarakter kəsb edən yeni qanunvericilik sənədinin işlənib hazırlanması məqsədəuyğundur.

> *Son illərdə vergi sahəsində aparılan islahatlara nəzər salsaq, görərik ki, dövlət-sahibkar münasibətlərinin yeni müstəviyə çıxarılması, qarşılıqlı dialoqa əsaslanan işgüzar münasibətlərin qurulması diqqət mərkəzindədir.*



**Firdovsi Fikrətzadə,**
Aqrar Tədqiqatlar Mərkəzinin direktoru

# "Ölkəmizdə getdikcə inkişaf edən orta sahibkarlar sinfi yaranır"

*2020-ci ilin nəticələrinə görə, qlobal pandemiya səbəbindən tətbiq edilən məhdudiyyətlər Azərbaycan iqtisadiyyatının 4% kiçilməsinə səbəb oldu. İqtisadiyyatın bəzi sektorları pandemiyadan ciddi zərər çəksələr də, kənd təsərrüfatı sahəsində əksinə 2 % artım qeydə alındı. Sektorun mövcud vəziyyəti və ilin yekunları üzrə nəticələri Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Firdovsi Fikrətzadə ilə müzakirə etdik.*

*– Nəzərə alsaq ki, pandemiyaya qarşı ilk addımlardan biri sərhədlərin bağlanması oldu, bu zaman ölkənin ərzaq məhsulları ilə təminatında yerli məhsulların payının artması baş verdi. Kənd təsərrüfatında qeydə alınan artım əlbəttə ki, bu məsələnin həllində müsbət rol oynadı. Ən çox artım hansı sahələrdə qeydə alındı?*

– 2020-ci il məhsul ilində, Azərbaycanda meyvə, tərəvəzlərdə, kartofda, pambıq, həmçinin heyvandarlıq məhsullarının istehsalında artım tempi davam etdiyindən, sizin də qeyd etdiyiniz kimi ümumən kənd təsərrüfatında artım müşahidə olundu. Quraqlıq səbəbindən yalnız buğda istehsalında geriləmə qeydə alındı. Rəqəmlərlə ifadə etsək, məhsul istehsalında ən böyük artım tempi pambıqçılıqda 14%, tütün istehsalında 15%, şəkər çuğundurunda 6,9%, kartof istehsalında 3,3%, tərəvəz istehsalında 1,4%, üzüm istehsalında 3,1% oldu. Ötən ilin ümumi göstəriciləri ayrı-ayrı məhsullar üzrə belə xarakterizə olunur. Ümumən bitkiçilikdəki artım 0,8%, heyvandarlıqda 3,1% idi. Bilirsiniz ki, bitkiçilikdə artım tempi daha çox buğda, taxıl istehsalındakı geriləməyə görə 0,8% təşkil edib. Bildiyiniz kimi, quraqlıq səbəbindən təqribən 100 min hektar sahədə suvarma problemləri yarandı və bununla əlaqədar nisbi geriləmə oldu. Qalan məhsulların istehsalında isə artım müşahidə olundu.

*– 2020-ci ildə subsidiya qaydalarında dəyişiklik oldu. Bu dəyişikliklərin müsbət tərəfləri hansılardır?*

– 2020-ci ildə qəbul olunmuş yeni subsidiya qaydaları bir neçə cəhətdən əlamətdar idi. İlk növ-

bədə, bu subsidiya siyasəti fermerləri aqrotexniki qaydalara əməl etməyə daha çox stimullaşdırır. Yəni, artıq gübrə və pestisidlərə görə subsidiya şirkətlərə deyil, birbaşa fermerlərə verilir. Bu isə fermerin daha çox gübrə və pestisiddən istifadə edərək öz əkin proseslərini aqrotexniki qaydalara uyğun qurmasını stimullaşdırır. İkinci tərəfi, çoxillik əkinlərə dair subsidiya siyasətində köklü dəyişikliklərin edilməsidir. Belə ki, bu qaydalar kənd təsərrüfatında yüksək əlavə dəyər yaradan meyvəçilikdə çoxillik əkmələrinin genişləndirilməsinə marağı artırdı. Və ümumilikdə subsidiya dəstəyi mexanizmlərindəki dəyişikliklər gübrə və pestisid təchizatı bazarını liberallaşdırdı. Bilirsiniz ki, hələ 2019-cu ildən kənd təsərrüfatı texnikasının lizinqlə, güzəştli yollarla, o cümlədən cins heyvanların güzəştli yollarla satışı sistemi tam olaraq liberallaşdırıldı. Yəni, bu subsidiya mexanizmlərində aparılan islahatlar da həm şəffaflığın, həm də effektivliyin yüksəldilməsi baxımından mühüm rol oynadı.

*– Kənd təsərrüfatı məhsullarının ixrac tərkibində çeşid müxtəlifliyi necədir, daha çox hansı məhsulları xarici bazara çıxara bilirik?*

– Kənd təsərrüfatı məhsullarının ixracında əsas pay faraş pomidora, xurma, pambıq məhsulları və fındıq ləpəsinə məxsusdur. Ötən ilin ixracında bir sıra əlamətdar dəyişikliklər oldu. O da onunla əlaqədardır ki, bizdə çəyirdəkli meyvələr qrupu yəni şaftalı, ərik, gilas, gilənar məhsullarının ixrac göstəriciləri demək olar ki, ənənəvi alma, armud, heyva məhsullarının ixrac göstəricilərini üstələdi. Bu yeni bir trenddir və artım mütəmadi olaraq davam edir. Kiçik bir trend olsa da qeyd edim ki, son illər noxudu idxal edirdik amma hazırda yerli istehsalla tamamən əvəzlənib, hətta az həcmdə olsa da noxud ixracı da reallaşıb. Ötən il, həmçinin, bizim faraş kartof ixracımızın həcmi ilk dəfə 80 min tondan yuxarı həddə çatdı.

*– İxrac olunan məhsulların bazar arealında hansısa yenilik varmı, yeni bazarlara çıxa bilmişikmi?*

– Bu proses tədricən gedir. Bizim ixracımız ağırlıqlı olaraq MDB ölkələrinin payına düşür. Amma hal-hazırda yeni bazarlara çıxmaq trendi yaranır. Məsələn, fındıqda bazar tam differensialdır, məhsulun çox hissəsi Avropa və digər ölkələrə ixrac olunur. Nar şirəsini Avropa, soğanı, kələmi artıq bəzi Şərqi Avropa ölkələrinə də satırıq. Rusiya bazarına ixracın mühüm rol oynamasında bir məsələni də nəzərə almaq lazımdır ki, bu ölkə dünyanın ən böyük kənd təsərrüfatı və ərzaq məhsulları idxalçısıdır.

> *Son illər Azərbaycanın pambıqçılıq sektorunda tətbiq etdiyimiz yeni toxumlar artıq həm onun lif uzunluğu, həm də lif çıxımı üzrə məhsuldarlıq göstəricilərinin artımını şərtləndirir. Məhz buna görə ildən-ilə keyfiyyət göstəriciləri yüksəlir.*

Bizə qonşu olmayan regionlar belə, məsələn Afrika, Latın Amerikası, Avropa şirkətləri də Rusiyaya mal satmağa maraqlıdırlar. Rusiyanın ixracımızda üstünlüyünün əsas səbəblərindən biri də budur. Həm də bir növ Rusiya və digər MDB ölkələriylə bir-birimizi müəyyən mənada tamamlayırıq. Məsələn Rusiya, Qazaxıstan, Ukrayna daha çox taxıl istehsalında ixtisaslaşıb, bizim isə taxıl idxal etməyə ehtiyacımız var. Ancaq bu ölkələrin də faraş meyvə-tərəvəzə ehtiyacı var ki, bunları da Azərbaycan ixrac edir.

*– Kənd təsərrüfatı məhsullarının idxalında öndə olan məhsulların yerli məhsullarla əvəzlənməsi perspektivini necə görürsünüz?*

– Kənd təsərrüfatı məhsullarının idxalında 3-4 məhsul üstünlük təşkil edir. Birincisi, bizim idxal həcmində ən böyük paya malik olan ərzaqlıq buğdadır. Həmçinin, bitki və günəbaxan yağlarıdır ki, onların xammal təminatında olan bitki yağını əsasən Ukrayna və Rusiyadan alırıq. Şəkər, düyü xammalı idxalı da əsas etibarilə yüksəkdir. Ət və südlə özünü təminat göstəricilərimiz 80-85% səviyyəsindədir, yəni bu göstəricidə də idxaldan ciddi asılılığımız yoxdur və təqribən 200 milyon dollar dəyərindədir. Perspektivdə bizim daha çox ət və süd məhsulları üzrə idxalımızın həcminin azalması gözlənilir. Hesablamalar göstərir ki, bizim mövcud kənd təsərrüfatının əkin strukturunun optimal səviyyəsini, təbii iqlim xüsusiyyətlərini, iqtisadi göstəricilərini nəzərə alsaq buğda, şəkər, günəbaxan və qarğıdalı yağı xammalı, düyü və çay üzrə idxal əməliyyatları davam edəcək.

*– Yuxarıda qeyd etdiniz ki, pambıq tədarükündə artım olub. Bu, pambıq mahlıcının ixracında da özünü göstərirmi?*

– Azərbaycan pambığı mahlıc və iplik formasında ixrac edir. Ancaq bizim hesablamalar göstərir ki, ölkəmizdə əlavə dəyər zəncirinin böyüməsi üçün böyük imkanlar var. Apardığımız hesablamaya görə, hazırda təqribən 240 milyon manatlıq pambıq xammalı istehsal olunur. Biz lif və mahlıc formasında onun dəyərini təxminən 400 milyona çatdırırıq. Amma iplik və parça mərhələsinə çatdırmaqla məhsul üzrə zəncirin dəyərini 3.6 milyard manata yüksəldə bilərik. Bundan ötrü iplik istehsalının təqribən 4 dəfə, parça istehsalının həcminin isə 60 dəfədən çox artırılmasına ehtiyac var. Hazırda xaricə satdığımız pambıq məhsullarının ixracında artım var, ancaq

perspektivdə hədəflər yetişdirilən pambığın ölkə daxilində ən azı parça səviyyəsinə qədər istehsalına nail olmaqdır.

*– Pambıq mahlıcını hansı ölkələrə satırıq və keyfiyyət göstəricilərimiz alıcıları qane edirmi?*

– Mahlıcı Türkiyə, Çin, MDB və Avropa ölkələrinə satırıq. Bilirsiniz ki, getdikcə dünyada təbii xammal mənbələri məhdudlaşır deyə daha çox kimyəvi, sintetik ipliklərdən istifadə göstəriciləri artır. Bazarda istənilən növ pambığa ehtiyac yaranıb. Son illər Azərbaycanın pambıqçılıq sektorunda tətbiq etdiyimiz yeni toxumlar artıq həm onun lif uzunluğu, həm də lif çıxımı üzrə məhsuldarlıq göstəricilərinin artımını şərtləndirir. Məhz buna görə ildən-ilə keyfiyyət göstəriciləri yüksəlir.

*– Pambıqçılıqda tətbiq edilən aqrotexnika qaydalarına riayət olunması üzrə göstəricilər Sizi qane edirmi?*

– Azərbaycanda aqrotexnika qaydalarının ən yüksək əməl olunduğu sektorlardan biri də pambıqçılıqdır. Çünki pambıqçılıqda şirkətlərlə fermerlər arasında müqaviləli kənd təsərrüfatı modeli tətbiq olunur. Fermer bilir ki, məhsulun alıcısı var, buna görə də hər hektara tələb olunan aqrotexniki əməliyyatlar tam şəkildə icra edilir. Hətta bizdə Çin, Türkiyə, yunan modelləri də var ki, bunlar yüksək nəticələr doğuran məhsuldarlığa imkan verir.

*– Yeri gəlmişkən, aqrotexniki vasitələrdən danışanda damcı üsulu ilə suvarma sistemi ilə bağlı məsələ də önə çəkilir. Hazırda aqrar sektorda çalışan sahibkarların neçə faizi bu üsuldan istifadə edir?*

– Bilirsiniz ki, son vaxtlar dövlət damcı üsulu ilə suvarmaya keçidi stimullaşdırmağa başlayıb. Müasir suvarma sistemlərinin 40%-i artıq dövlət tərəfindən subsidiyalaşdırılır. Son illər ərzində tətbiq olunan bu subsidiya siyasətinin nəticəsi budur ki, bizim təqribi qiymətləndirmələrə görə artıq ümumi sahələrin təqribən 4%-dən çoxunda müasir suvarma sistemləri qurulub. Xüsusilə, meyvəçilik sektorunda intensiv meyvə bağlarının hamısında yalnız damla suvarma sistemləri tətbiq olunur. Bilirsiniz ki, artıq yeni trend kimi tərəvəzçilik sahələrində də bu sistem genişləndirilməyə başlayıb. Kartof, tərəvəz sahələrində də damla üsulundan istifadə artır. Qeyd edim ki, müasir suvarma sistemlərinin tətbiqi imkanları ilə bağlı çox optimist gözləntilərimiz var.

*– Azərbaycanda iribuynuzlu mal-qaranın sayında azalma müşahidə edilir. Ölkəmizin ətlə özünü təminatında vəziyyət necədir?*

– Bizim ətlə özünü təminat göstəricilərimiz 82-85% nisbətindədir və bunu məqbul hesab edirik. Xüsusilə də mal ətilə özünü təminat 86%-dən çoxdur, qoyun ətilə 97-98% təşkil edir. İdxaldan asılılığımız nisbi olaraq ən çox quş ətilə təminatda qeydə alınır, bu göstərici təxminən 75%-dir. Nəzərə alsaq ki, işğaldan azad edilmiş torpaqlarımızın heyvandarlıq sahəsində potensialı yüksəkdir, perspektivdə özünütəminat göstəricilərinin 96%-dən çox olacağını gözləyirik.

*– Azərbaycan 2020-ci ildə buğda alışına təxminən 297 milyon dollar xərcləyib. 2019-cu ildə isə xaricdən 341 milyon dollar dəyərində buğda almışıq. Alınan buğdanın qiyməti ilə yanaşı, həcmində də azalma var. İdxalın yerli istehsal hesabına azaldığını deyə bilərik?*

– Azərbaycanın buğda ilə özünütəminat göstəriciləri 60% civarındadır. Biz orta hesabla hər il 2 milyon ton buğda istehsal edirik. Buğda ümumi kənd təsərrüfatı və ərzaq məhsulları idxalımızda ən böyük paya malikdir. Hesablamalarımız göstərir ki, növbəti illərdə məhsuldarlıq göstəricisinin, istehsalın həcminin artımı nəticəsində özünütəminat göstəricisi təqribən 65-66% səviyyəsinə qədər yüksələcək. Bəzən ictimai rəydə ekspertlər yanlış bir fikir formaslaşdırırlar ki, guya dünya bazarında hansısa məhsulun qiyməti qalxırsa, biz həmin məhsul üzrə yerli istehsalla özümüzü tam tamin etsək, ölkəmizdə bahalaşma olmayacaq. Bu sovet dövründən qalma stereotiplərdir. Sovet dövründə “importnu mal” anlayışı vardı, yəni xaricdən gələn məhsul mütləq daha baha olmalıdır. Bu tamamilə yanlış düşüncədir. Məsələn, sizə deyim ki, Rusiya günəbaxan yağının ixracatçısı kimi dünyada ilk beşlikdədir. Dünyada qiymətlər qalxıb deyə, Rusiya daxili bazarında bahalaşmanın qarşısını ala bilmir. Bizdə isə belə bir düşüncə hakimdir ki, guya buğdayla özünü təminatımız yüzdə 60 yox, yüzdə 90 olsaydı, dünyada buğda qalxanda bizdə qalxmayasıydı. Bu mümkün deyil, bazar iqtisadiyyatının qanunauyğunluqlarına ziddir. Bilirsiniz ki, birləşmiş qablar qanunu deyilən bir anlayış var, qabın bir tərəfində soyuq, bir tərəfində isti varsa, axırda birləşib ortada bir ortaq nöqtəyə gəlir. Azərbaycan kartofa olan tələbatının 90%-dən çoxunu yerli məhsullarla özü təmin edir. Əgər dünya bazarında kartofun qiyməti qalxmağa başlasa, bizim daxili bazarda da kartofun qiyməti qalxacaq. Və yaxud da bunun əks nümunəsini də göstərə bilərəm. Keçən il müharibəylə əlaqədar bizim soğan tədarükümüzdə problem yarandı. Bilirsiniz ki, qış üçün soğan tədarükümüz daha çox cəbhəyanı bölgələrdən təmin olunur. Soğan yığımı gec aparıldığından həm məhsulun hamısı yığılmadı, yığılan da lazımi keyfiyyətdə olmadı. Dekabr-yanvar aylarında bizim artıq yerli məhsul tükənməyə başlamışdı və qiymət qalxmağa doğru gedirdi. Dərhal bazar öz siqnallarını verdi, dünya bazarında soğanın qiyməti qalxmadığından, Rusiya və digər MDB ölkələrindən, İrandan soğan idxalının hesabına bazarda qiymətlər sabitləşdi. Yəni, idxalın hesabına bazarda qiymət düşdü və bu bazar iqtisadiyyatının bir qanunauyğunluğudur.

*– Bəs Azərbaycan buğdasının keyfiyyəti barədə nə demək olar?*

– Azərbaycanda heç bir fermer öz buğdasının satışında problemlə üzləşməyib. Ola bilsin ki, ərzağa yararlı hissəsindən az istifadə edilir və yem tədarükünə yönəldilir. Dünyanın hər bir ölkəsinin müqayisəli üstünlüyü olan sahələr var. Bizim meyvə, tərəvəz, üzüm, texniki bitkilər üzrə ixtisaslaşmamız çox yaxşıdır. Təbii iqlim, torpaq resurslarımız daha çox buna imkan verir. Taxıl, o cümlədən buğda istehsalında müqayisəli üstünlüyümüz isə qismən zəifdir. Üstəlik, dünyanın Rusiya, Ukrayna və Qazaxıstan kimi ən böyük taxıl ixracatçısı olan ölkələrilə eyni regiondayıq. Biz Rusiyaya təkcə 200 milyon dollarlıq pomidor ixrac edirik, digər məhsulları nəzərə alsaq, bu rəqəm bir neçə dəfə artır. Amma bizim ümumi taxıl ixracımız təqribən 297 milyon dollardır. Yəni, bu çox təbii bir prosesdir və ölkənin hansısa məhsulla özünü tam təmin etməsi o demək deyil ki, dünya bazarında həmin məhsulun qiyməti qalxanda daxili bazarda qalxmayacaq. Kim bunu iddia edirsə, o bazar iqtisadiyyatının qanunauyğunluqlarına diletant yanaşır.

*– Azərbaycan Sahibkar Konfederasiyasının üzvləri arasında kənd təsərrüfatı ilə məşğul olanların da sayı çoxdur. Bu sahədə çalışan bir alim kimi sahibkarlarımıza nə tövsiyə edərdiniz?*

– Son dövrlər aqrobiznes sahələrində fəaliyyət göstərən sahibkarların fəaliyyətlərində, xüsusilə də orta sahibkarlar qrupunda daha çox müsbət trendləri görürəm. Ən neqativ prosesləri mən iri şirkətlərdə müşahidə edirəm. Təəssüf ki, iri sahibkarların bəzilərində sui-istifadə meylləri çoxdur. İri şirkətlərin çoxu lobbiçilik fəaliyyəti hesabına dövlətdən güzəşt qoparmağa çalışırlar, yəni bazarda gedən proseslərə, trendlərə düzgün şərh vermirlər. Bu da mənə elə gəlir ki, onların məsələyə daha az peşəkar yanaşmalarından irəli gəlir. Azərbaycanda dövlət sahibkarlığın inkişafına dəstək verməkdə daha çox iştirak edir. Bəzi sahibkarlar artıq istənilən bir probleminin həllini də dövlətin üzərinə qoymağa çalışır. Ancaq mən çox optimistəm ki, ölkəmizdə sağlam bazar iqtisadiyyatı tələblərinə uyğun formalaşan və getdikcə inkişaf edən orta sahibkarlar sinfi inkişaf edir. Bizim üçün də önəmli olan budur. Kiçik sahibkarları, kiçik təsərrüfatları da arxalarınca onlar aparacaqlar. Eyni zamanda, iri təsərrüfatlar da getdikcə daha sağlam əsaslarla fəaliyyət göstərən bu orta sahibkarlar qrupunun rəqabətini hiss edəcəklər. Demək istərdim ki, buna hazır olsunlar.



*– Hər bir sahədə özünü inkişaf etdirmək zəruridir. Aqrar sektorda çalışan sahibkarlara nə məsləhət görərdiniz, nəyi öyrənsinlər, hansı resurslardan istifadə etsinlər?*

– Ən sadəsindən başlayaq, mütləq aqrotexnika qaydaları ilə bağlı ən yaxşı yenilikləri öyrənsinlər. Tövsiyə edirik ki, bu sahədə biznes qurmağa başlayanda ilkin texniki iqtisadi əsaslandırmalarını, biznes planlarını, özləri üçün bir yol xəritələrini hazırlayıb sonra işə başlasınlar. Kənd təsərrüfatında bəzən "əfsanələr" əsasında investisiya qoyuluşu hallarına rast gəlirik. Məsələn, belə bir fikir var ki, intensiv fermada daha çox süd əldə edilir, çox gəlirlidir, amma bilmirlər ki, əslində 80 başdan aşağı intensiv ferma heç vaxt iqtisadi cəhətdən səmərəli deyil. Elə bilir ki, 20 başdan ibarət intensiv ferma qursa, bu gəlirli olacaq, ancaq çox vaxt belə olmur. Və yaxud da belə bir "əfsanə" var ki, calağ tinglərlə qurulmuş intensiv bağlardan üç ildən sonra məhsul yığımına başlayırlar və sanki üç ildən sonra artıq pul qazanmağa başlayırsan. Elə deyil, baxmayaraq ki, üç ildən sonra sən məhsul yığıb satırsan, amma bu sahədə investisiyanın geriyə dönüş müddəti 7-8, 10 il arası çəkir. Ona görə də "əfsanələr" əsasında qərar qəbul etməsinlər, biznes analizlərinə diqqət yetirsinlər. Və yaxud da hansısa bir məhsul bahalıdırsa, deyək ki, badam bahalıdır ona görə orada daha çox pul qazanırlar, düşüncəsi səhvdir. Tövsiyə edirik ki, mütləq olaraq bu sahədə mütəxəssislərlə məsləhətləşsinlər. Aqrar Tədqiqatlar Mərkəzi məhsulların iqtisadi səmərəlilik göstəricilərinə dair sahibkarlarımıza məlumatlar verərək kömək edə bilər. Azərbaycan Sahibkarlar Konfederasiyasına, sahibkarlara da uğurlar arzulayırıq.

*İlhamə Abdullayeva*



# Zəngəzur dəhlizində əməkdaşlıq formatları

*Post müharibə reallıqları indiyə qədər mövcud olan regional düzənin yeni şərtlər daxilində təkrar formalaşmasına həlledici təsir göstərəcək. O üzdən milli-mənəvi bağları olan Türk dünyasının Zəngəzur üzərindən qurulacaq təmasları birmənalı şəkildə onun beynəlxalq oyunçuya çevrilməyinin son mərhələsi hesab edilə bilər.*

Beləliklə, Türkdilli dövlətlərin əməkdaşlıq şurasının qeyri-formal görüşündə, Zəngəzur dəhlizinin mahiyyətini xüsusi qabardan prezident İlham Əliyevin dediklərindən bu məntiq çıxır:

- Zəngəzur dəhlizi coğrafi cəhətdən parçalanmış türk dünyasını yenidən birləşdirəcək;
- Türk dövlətlərinin təhlükəsizlik məsələləri ilə bağlı ortaq maraqlarını təmin edəcək;
- Türkdilli dövlətlərə əlavə iqtisadi dividendlər qazandıracaq;
- Türk dünyasının qlobal problemlər ətrafında daha mərkəzləşmiş mövqe ortaya qoymasına imkan verəcək;
- Türk arealında yerləşən ölkələrə Qərb-Şərq nəqliyyat-enerji layihələrinə qoşulmaq şansı yaradacaq və s.

Mütəxəssislər də bu qənaətdədir ki, II Qarabağ müharibəsinin yaratdığı yeni reallıqlar bölgənin sərhədlərini aşır. Artıq söhbət qitələrarası əməkdaşlıq xəritəsinin şaxələnməsindən gedir. Münaqişənin sona çatması Türk dünyası üçün də yeni perspektivlər açır. Mövcud geosiyasi vəziyyət və formalaşmaqda olan əməkdaşlıq platformaları bu coğrafiyanın siyasi-iqtisadi inteqrasiyasını sürətləndirəcək kimi görünür. Xüsusilə nəqliyyat dəhlizləri çoxtərəfli əməkdaşlıq əlaqələrini yeni fazaya keçirə bilər. Zəngəzur dəhlizi isə tranzit koridorunun ən strateji həlqələrindən biri kimi diqqət çəkir.

### Rəsmi Bakının mövqeyi

Azərbaycan prezidenti İlham Əliyev çıxışında bildirib ki, əgər biz Zəngəzur dəhlizinə fikir versək görərik ki, təkcə Rusiya-Azərbaycan və Türkiyə-Ermənistan-İran maraqlarına cavab vermir. Qonşu ölkələrin maraqlarına da cavab verir. Yəni, Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər. Əgər bu müsbət meyillər üstünlük təşkil edərsə, əlbəttdəki hər bir icra edilən layihə özündən sonra digər layihəni də gətirib çıxaracaq.

Prezident həmçinin qeyd edib ki, Ermənistanın, hal-hazırda onun müttəfiqi olan Rusiya ilə dəmiryol əlaqəsi yoxdur. Azərbaycan üzərindən bu dəmiryol əlaqəsi yarana bilər. Ermənistanın ona qonşu olan İranla dəmiryol əlaqəsi yoxdur, Naxçıvan vasitəsi ilə bu dəmiryolu təmin edilə bilər.

### Azərbaycan bağlayıcı rolunu oynayacaq

Şübhəsiz ki, Zəngəzur yalnız bir dəhliz kimi yox, tarixi ədalətin

bərqərar olunması məsələsi kimi qəbul olunur. Bundan əlavə, dəhliz regionda iqtisadi və siyasi sabitliyin əsas təşviqedici komponentlərindən birinə, Türk coğrafiyası ölkələri, hətta bir qədərdə geniş baxsaq Avropa və Asiya arasında birləşirici faktora çeviriləcək.

Millət vəkili Fazil Mustafanın sözlərinə görə, Türk dövlətləri iki məkanın ortasında yerləşir. Mövcud dünyanın reallığı budur ki, iki iqtisadi güc mərkəzi olan həm Çin, həm də Avropa Birliyi arasında bütün tranzit, logistik və digər kommunikativ vasitələr məhz türk dövlətlərinin olduğu əraziyə düşür. Azərbaycan bağlayıcı rolunu oynayacaqdır və hər bir dövlətin Azərbaycanla normal münasibət qurmağa zərurəti yaranacaqdır.

Dünya Türk Forumunun sədri Süleyman Şensoy hesab edir ki, Zəngəzur koridorunun açılmış olması Türk dünyasının fiziki olaraq bir araya gəlməsi nöqtəsində çox vacib işlər gördü və görəcək. Çünki, bu əlaqə çox uzun illər öncə bilərəkdən qoparılmışdı. Amma, bu təbii ki, çox böyük bir işdir və eyni zamanda böyük sorumluluğu və riskləri də var. Buna görə də, Azərbaycanla Türkiyənin və digər türk dövlətlərinin də yarana biləcək risklərə qarşı dayanışması, güclü olması lazımdır və bu əlaqənin bir daha qopmasına izin verməməli və bu məsələ ilə bağlı iş birliyində olmalıdırlar.

Yeni nəqliyyat dəhlizi bütün iştirakçı ölkələrin maraqlarına cavab verir. Eləcə də bu vaxta qədər işğal faktı ilə regionun, özünün inkişafı üçün tormozlayıcı funksiya həyata keçirmiş Ermənistanın da həmçinin.

**Naxçıvanlı iş adamları üçün əhəmiyyətli olacaq**

Millət vəkili Vüqar Bayramov hesab edir ki, burada söhbət 1,1 trilyon dollardan çox nominal ümumi daxili məhsulu olan türkdilli ölkələri strateji və iqtisadi baxımdan birləşdirəcək dəhlizdən gedir. Belə ki, Türkiyə 761,4 milyard dollar, Qazaxıstan 181,7 milyard dollar, Özbəkistan 57,9 miyard dollar, Azərbaycan 48 milyard dollar, Türkmənistan 48 milyard dollar və Qırğızıstan 8,5 milyard dollar nominal ÜDM-ə malikdir. Bu isə ondan xəbər verir ki, Zəngəzur dəhlizi kifayət qədər böyük iqtisadi potensiala və təbii resurslara malik olan regionu birləşdirəcək.

Zəngəzur dəhlizinin istifadəyə verilməsi, eyni zamanda, Azərbaycanı regionun nəqliyyat qovşaqlarının mərkəzinə çevirəcək.

*Zəngəzur dəhlizinin açılmış olması Türk dünyasının fiziki olaraq bir araya gəlməsi nöqtəsində çox vacib işlər gördü və görəcək. Çünki, bu əlaqə çox uzun illər öncə bilərəkdən qoparılmışdı. Amma, bu təbii ki, çox böyük bir işdir və eyni zamanda böyük sorumluluğu və riskləri də var.*

Xatırladaq ki, bu gün respublikamız Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin formalaşmasında yaxından iştirak edir, həm birbaşa həmin nəqliyyat dəhlizlərinin regional hissəsinin inkişafına mühüm təsir göstərir, həm də maliyyə dəstəyi nümayiş etdirir.

Zəngəzur dəhlizi Naxçıvanın Azərbaycanın əsas ərazisi vasitəsilə həmin nəqliyyat dəhlizlərinə çıxışını təmin edəcək. Xüsusən də Şərq-Qərb nəqliyyat dəhlizinə naxçıvanlı iş adamlarının çıxışının təmini baxımından da əhəmiyyətli olacaq.

Dəhliz Azərbaycanın öz eksklavı olan Naxçıvan Muxtar Respublikası və Türkiyə ilə əlaqələrini də gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini daha da artıracaq. Ən əsası, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsilə birləşəcək.

**"Sanki bizim bədənimizə xəncər saplanmışdır"**

Prezident İlham Əliyev Zirvə görüşündəki çıxışında deyib: "Müharibə başa çatdı, münaqişə tarixdə qaldı. Yeni imkanlar yarandı. Onların arasında hesab edirəm ki, ən vacib imkan nəqliyyat imkanlarıdır. Bu gün biz artıq Zəngəzur dəhlizi üzərində çox fəal çalışırıq. Naxçıvanda keçirilmiş Zirvə görüşündə mən demişdim ki, vaxtilə Zəngəzuru Azərbaycandan alıb Ermənistana birləşdirmək türk dünyasının coğrafi parçalanması idi. Çünki əgər xəritəyə baxsaq görərik ki, sanki bizim bədənimizə xəncər saplanmışdır, türk dünyası parçalanmışdır. Qədim Azərbaycan torpağı olan Zəngəzur indi türk dünyasının birləşməsi rolunu oynayacaq. Çünki Zəngəzurdan keçən nəqliyyat, kommunikasiya, infrastruktur layihələri bütün türk dünyasını birləşdirəcək, eyni zamanda, digər ölkələr üçün əlavə imkanlar yaradacaq, o cümlədən Ermənistan üçün...".

Dövlətimizin başçısının bu fikirləri ondan xəbər verir ki, Zəngəzur dəhlizinin yaradılması ilə Avrasiyanın nəqliyyat şəbəkəsinin yeni bir "damarı" açılacaq və bu, nəticədə bölgə ölkələri arasında xüsusilə iqtisadi-ticari əlaqələrə müsbət təsir göstərəcək. Türkiyə bu dəhlizdən istifadə edərək əsas iqtisadi tərəfdaşlarından biri olan Azərbaycana birbaşa quru yolu reallaşdıracaq. Şübhəsiz ki, bu da, öz növbəsində, ikitərəfli iqtisadi və turizm əlaqələrinin daha sürətli inkişafına şərait yaradacaq. Digər tərəfdən, Zəngəzur dəhlizi həm də Türkiyə üçün Orta Asiyaya bir ticarət qapısı rolunu oynayacaq və



bu ölkənin türk dünyası ilə iqtisadi əlaqələrini gücləndirməsinə imkan verəcək.

Ermənistan isə Zəngəzur dəhlizinin qeyd edilən üstünlüklərindən yararlanarsa, başqa sözlə, regional əməkdaşlığa önəm verərsə, sosial-iqtisadi sahələrdə müsbət göstəricilərlə qarşılaşa bilər. İlk növbədə, iqtisadi blokadadan çıxmaq və iqtisadi inkişafını gerçəkləşdirmək imkanları əldə edər.

Əks halda, təcavüzkar siyasətindən əl çəkməsə, bu ölkədə işsizlik səviyyəsi daha da artacaq, mühacirət və yoxsulluqla müşayiət olunan oxşar iqtisadi vəziyyət getdikcə ağırlaşacaq, düşmən respublikada xaos və özbaşınalıq daha da dərinləşəcək.

**Əməkdaşlıq regionun inkişafı üçün vacibdir**

Azərbaycan bölgə ölkələrinə, o cümlədən dost dövlətləri yeni əməkdaşlıq platformasında yer almağa dəvət edir. Perspektivlər tərəfdaşlıqlar üçün də cəlbedici görsənir. Bölgənin yenidənqurulması və inkişafı ilə bağlı əməkdaşlıq mesajları bugün türkdilli ölkələri bir çətir altında birşləşdirən Türk şurası təşkilatı daxilində partnıyorluğun həm də bu istiqamətdə inkişaf edəcəyindən xəbər verir.

Ermənistana gəlincə, rəsmi İrəvan sülh və inkişafa doğru gedən yolu kələ-kötürləşdirmək əvəzinə regional əməkdaşlığa qoşulmaqla ilk növbədə özünü xilas edə bilər.

Böyük Britaniyada çap edilən son araşdırmayaya diqqət yetirsəniz orada qeyd olunan məqamlardan biri mövcud reallıqlar çərçivəsində tərəflərin bu reallığı qəbul etməsidir. Əgər Ermənistan reallığı qəbul etməyəcəksə, yenə həmin düşüncədə olacaqsa, iqtisadi baxımdan tənəzzül daha da dərinləşəcək və süqutu olacaq. Çünki 8 milyarddan artıq borcu var. Dövlət zəmanəti ilə alınan borclar daxil olmaqla cəmi 2 milyard dollarlıq valyuta ehtiyyatı var. Bugün Ermənistan bütün valyuta ehtiyyatlarını qaytarsa belə xarici borcun 25 faizini ödəmək imkanına malikdir. Bu Ermənistanın rəsmi statistik göstəriciləridir. Bu göstəricilər ondan xəbər verir ki, belə davam edərsə göstəricilərin daha da pisləşməsinə gətirib çıxara bilər. Əvvəldə qeyd etdiyimiz kimi Azərbaycana əvvəlki illərdə də böyük investisiyalar cəlb olunurdu. Amma, bütövlükdə regiona daha böyük inestisiyaların cəlb olunması üçün məhz altılıq əməkdaşlıq platformasının reallaşması daha məqsədə uyğundur. Əgər Ermənistan bu platformada olmayacaqsa bu beşlik əməkdaşlıq platforması olacaq.

Azərbaycan məhz öz potensialına həm də formalaşdırdığı infrastrukturun regionun inkişafı üçün faydalanmasına maraqlıdır. Bizim üçün dost və strateji müttəfiq olan ölkələrlə əməkdaşlığımız növbəti mərhələlərdə də davam edəcək. Amma Zəngəzur dəhlizi regionun inkişafı üçün çox mühüm bir infrastruktur layihəsi olacaq. Təbii ki, Azərbaycan infrastruktur layihəsinin reallaşmasına töhfə verən və sərmayə qoyan ölkədir.

Tarixi ədalətin zəfər çaldığı 2-ci Qarabağ müharibəsində məğlub olan Ermənistana gəlincə, bölgə dövlətlərinin maraqlarını nəzərə almadan, başqalarının təbii sərvətlərini qarət etmək və digər cinayət əməlləri hesabına birtərəfli iqtisadi inkişaf ehtimalı ilə bağlı bütün illüziyaları birdəfəlik dəfn edildi. O, qonşuları ilə münasibətləri yenidən qurmalı və özü də, diqqətlə qurmalı olacaq. Bu, olduqca açıq görünür, çünki bu ölkənin İrana dəmiryolu və qaz kəməri çəkilişi, yaxud neft emalı zavodu və ya Araz çayı üzərində su elektrik stansiyası inşa etmək üçün İslam Respublikası ilə birgə layihələrlə planları suya düşdü.

*İ.Abdullayeva*





**Professor Elçin Əliyev,**
Azərbaycan Sahibkarlar Konfederasiyasının İnnovasiyalar və Rəqəmsal Texnologiyalar Komissiyasının sədri,
"SİNAM" şirkətinin prezidenti

# İnnovasiyalar və Rəqəmsal Texnologiyalar Komissiyası yenidən təşkil olundu

Bildiyiniz kimi, Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) rabitə və yüksək texnologiyalar üzrə komissiyası artıq bir neçə il fəaliyyət göstərsə də müasir tələblərə uyğun yenilənmə tələb olunurdu. ASK-nın rəhbərliyinin onun yenilənməsi istiqamətində atdığı addım nəticəsində komissiyanın müasir çağırışlara cavab verən strategiyası müəyyən olundu və onun tərkibi yeni üzvlərin hesabına genişləndi.

Komissiyada struktur dəyişikləri də baş vermişdir və əsas istiqamətlər üzrə işçi qruplar yaradılmışdır. Qeyd etmək lazımdır ki, yeni strategiyaya uyğun olaraq komissiyanın adı da dəyişdirilmişdir. Aktuallığını itirmiş "Rabitə və İKT müəssisələri ilə iş" adı əvəzinə komissiya hazırda "İnnovasiyalar və Rəqəmsal Texnologiyalar" adı altında fəaliyyət göstərir.

## Komissiyanın qarşısına qoyduğu əsas hədəflər

Komissiyanın hədəfləri birbaşa olaraq Azərbaycanın strateji maraqlarına xidmət edir. Müxtəlif sahələrdə innovasiyaların və rəqəmsal texnologiyaların sistemli tətbiqi istiqamətində dövlət və özəl sektorlara davamlı dəstək göstərmək, innovasiyalar və rəqəmsal texnologiyalar sahəsində "Dövlət-Özəl Tərəfdaşlığı"nı inkişaf etdirmək, Dördüncü Sənaye İnqilabı ilə bağlı prosesləri Azərbaycanda reallaşdırılmasına dəstək vermək, ölkənin innovasiyalar və rəqəmsal texnologiyalar sahəsində kadr potensialını gücləndirmək, innovasiyalar sahəsində yerli və xarici bazarlarda xarici rəqabətədözümlü Azərbaycan məhsullarını yaratmağa kömək göstərməkdir. Bütün bu səylər Azərbaycanda rəqabətədözümlü rəqəmsal iqtisadiyyatın davamlı inkişafını təmin edəcəkdir.

Dövlət-Özəl Tərəfdaşlığını xü-

susi qeyd etmək istərdim. Hazırda "Dövlət-Özəl Tərəfdaşlığı" modeli ASAN Xidmət tərəfindən uğurla tətbiq olunur və bu tərəfdaşlığın bariz nümunəsi kimi, xüsusi olaraq, ASAN Viza servisini qeyd etmək istəyirəm. Digər dövlət qurumları da ASAN Xidmətin uğurlu təcrübəsindən yararlana bilər.

Lakin bu istiqamətdə qanunvericilik formalaşmalı, beynəlxalq müsbət təcrübə təhlil olunmalı və rəqəmsal texnologiyalar sahəsində dövlət tərəfindən müxtəlif təşəbbüslər irəli sürülməlidir. Dövlət-Özəl Tərəfdaşlığı Azərbaycana dövlətin maliyyə resurslarına qənaət etməklə uğurlu həllər yaratmağa və onları tətbiq etməyə imkan verəcəkdir. Gələcəkdə isə bu həllər digər ölkələrə uğurla ixrac edilə bilər. Məsələn, Böyük Britaniyada dövlət bəzi həlləri hətta startaplara həvalə edir və biz belə müsbət təcrübədən yararlanmalıyıq. Qeyd etməliyəm ki, Azərbaycanın aparıcı İT şirkətlərinin peşəkar səviyyəsi ən mürəkkəb həlləri yaratmağa imkan verir. Bununla belə, mürəkkəb və çoxşaxəli layihələrin reallaşdırılması yeni İT klasterlərin yaradılmasına da gətirib çıxara bilər. Belə İT klasterlər mürəkkəb layihə proqramlarının reallaşmasında son dərəcə effektiv ola bilər. Məsələn, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Ağıllı şəhər" konseptinin praktik reallaşmasında AZINNEX kimi İT klasterlər uğurla iştirak edə bilər.

Azərbaycanda "fintech" termini ilə tanınan maliyyə sahəsində texnologiyaların tətbiqinə də xüsusi diqqət yetirilməlidir. Qlobal təhlil göstərir ki, fintech innovasiyalar da davamlı inkişaf edən istiqamətlərdəndir və bu sahədə yeni biznes-modellər yaranır, maliyyə institutları yeni çağırışlarla üzləşir. Azərbaycan Mərkəzi Bankının qlobal trendləri diqqətlə izləyərək çağırışlara hazır olması ölkəmizdə fintech istiqamətində maraqlı layihələr üçün perspektivlər açır.

Artıq danılmaz fakt kimi qəbul edilməlidir ki, texnologiyaların insan fəaliyyətinin bütün istiqamətlərində tətbiqi davamlı olaraq genişlənir. Azərbaycanın II Qarabağ müharibəsində işğalçı Ermənistanın darmadağın edilməsində texnologiyaların geniş istifadəsi bunu bir daha sübut etdi. Gələcəyi proqnozlaşdıraraq biz daha effektiv texnologiyaların hərtərəfli istifadəsini təmin etməliyik. Hesab edirəm ki, Azərbaycanın həlləri tətbiq sahəsində prioritet kimi müəyyən edilməlidir. Dövlət qurumları tətbiq üçün texnologiyaları seçəndə yerli şirkətlərə üstünlük verməldir. Belə yanaşmanın bir sıra üstünlükləri vardır. Azərbaycanın innovasiyaları inkişaf edir, bazarda tələbatı olan və artıq tətbiq olunan texnologiyalar yaranır, ixrac potensialımız da genişlənir. Təcrübə göstərir ki, yerli innovasiyalar öz xarici analoqlarından daha sərfəlidir və büdcə xərclərinə qənaət etməyə imkan verir.

> *Azərbaycanın aparıcı İT şirkətlərinin peşəkar səviyyəsi ən mürəkkəb həlləri yaratmağa imkan verir. Bununla belə, mürəkkəb və çoxşaxəli layihələrin reallaşdırılması yeni İT klasterlərin yaradılmasına da gətirib çıxara bilər.*

Azərbaycan Respublikasının ali rəhbərliyinin birbaşa nəzarəti altında yenilənən dövlət qurumları qarşısında son dərəcə mühüm vəzifələr durur. Dövlət başçısının tapşırıqlarını yerinə yetirmək üçün qurumlar innovasiyalara xüsusi diqqət yetirməlidir. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, "Azərbaycan Meliorasiya və Su Təsərrüfatı"ASC və əlbəttə ki, digər dövlət qurumları elmi araşdırmalara əsaslanaraq innovasiyaların yaradılması istiqamətində yeni milli həllərin davamlı tətbiqini təmin etməlidir. Azərbaycanın aparıcı İT şirkətləri öz böyük təcrübəsini və innovasiyalarda peşəkar ekspertizasını təqdim edə bilər. İnnovasiyaların davamlı şəkildə yaradılması hərbi sənayedə də təmin edilməlidir. Artıq qeyd etdiyim kimi, innovasiyaların hərbi sahədə istifadəsi ilə yeni era başlayır və Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi texnologiyalara arxalanan müasir silahların yaradılması istiqamətində fəaliyyətini genişləndirməlidir. Bu istiqamətdə də Azərbaycanın aparıcı İT şirkətləri tərəfdaş olmağa hazırdırlar.

İşğaldan azad olunan ərazilərdə də innovasiyaların geniş tətbiqi gözlənilir və bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyinin strateji baxışını qeyd etmək lazımdır. Qısa bir müddətdə aqrar sektorda müşahidə edilən transformasiya işğaldan azad olunan ərazilərdə tamamilə yeni bir səviyyədə həyata keçiriləcəkdir. "Ağıllı kənd" konsepsiyasının tətbiqi Azərbaycana regionda ilk dövlət olaraq məhsuldarlığı və idarəetməni innovasiyaların praktiki istifadəsi vasitəsilə həyata keçirməyə imkan verəcəkdir. Ümumiyyətlə, işğaldan azad edilmiş ərazilər müasir naviqasiya və geoinformasiya sistemlərinin, dronların, süni intellektə əsaslanan həllərin və müxtəlif qurğuların istifadəsi üçün geniş perspektivlər açır və bu istiqamətdə də yerli İT şirkətlər Azərbaycan hökumətinin tərəfdaşı olmağa hazırdır.

**Komissiyanın tərkibi və işçi qruplar**

Hazırda komissiyanın tərkibi genişlənməkdədir və biz Azərbaycanda innovasiyalar və rəqəmsal texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətləri dəvət edirik. Məqsədimiz müxtəlif seqmentləri təmsil edən şirkətləri komissiya-

nın işinə cəlb etməkdir. Yalnız bu prinsipə əməl etməklə biz Azərbaycanın sistemli olaraq innovasiyalar və rəqəmsal texnologiyalar sahəsini əhatə edə biləcəyik. Bu il ərzində Azərbaycanın artıq şirkətləşmiş startaplarını da komissiyanın işinə cəlb etmək niyyətindəyik. Böyük məmnuniyyətlə bildirməliyəm ki, komissiya, həmçinin, şirkətlər arasında tərəfdaşlığın genişləndirilməsi üçün əlverişli mühit yaradır. İclaslarda biz yeni texnoloji sahibkarlarla tanış olmaqla yanaşı, Azərbaycanın bazara çıxan innovativ məhsullarını da qiymətləndirə bilərik. Məsələn, son iclasımızda biz Agile Solutions, Desfcope və Rabalon şirkətlərini komissiya üzvlüyünə qəbul etdik. Bu şirkətlərin fəaliyyəti onların yaxşı potensialından xəbər verir və əminəm ki, komissiyanın digər üzvləri ilə təcrübə mübadiləsi onların biznes sahəsində davamlı inkişafına dəstək verəcəkdir.

Komissiyanın tərkibinə nəinki Azərbaycanda, həmçinin xarici bazarlarda böyük təcrübəsi olan BESTCOMP, CYBERNET və RİSK kimi şirkətlər daxildir və onlarla birbaşa fikir mübadiləsi hər bir gənc texnoloji sahibkar üçün son dərəcə faydalı olacaqdır. Bizim məqsədlərimizdən biri də bu kommunikasiyanı təmin edərək Azərbaycanda rəqabətqabiliyyətli məhsullar yaratmaqdır. Beynəlxalq təcrübə həmçinin, qlobal texnoloji liderlər olan Microsoft və SAP tərəfindən təqdim olunur. Bu şirkətlər də komissiyanın tərkibinə daxildir. Onun işinə öz strateji baxışı ilə böyük dəstək olan, idarəetmənin və innovativ məhsulların yaradılmasını elmi prinsiplərə uyğun şəkildə əsaslandıran professor Əli Kutvanı xüsusi qeyd etmək istəyirəm. Komissiyanın fəaliyyətində onun səyləri danılmazdır.

Qeyd etməliyəm ki, hazırda ölkədə Azərbaycan İnnovasiyaların İxracı Konsorsiumu (AZİNNEX) fəaliyyət göstərir və aparıcı İT şirkətlərin daxil olduğu bu təşkilatın əldə etdiyi nəticələr göstərir ki, Azərbaycanın innovativ məhsullarının uğur şansı çox yüksəkdir. Hazırda AZİNNEX üzvləri 20-dən artıq ölkəyə innovativ məhsullarını ixrac edirlər. Nəzərə alsaq ki, komissiyaya AZİNNEX-in bəzi üzvləri də daxildir, gənc sahibkarlara təcrübənin təqdim olunması üçün orada effektiv müstəvi yaradılmışdır.

Komissiyanın effektiv fəaliyyətinin təmin olunması üçün 2021-ci ildə işçi qruplar yaradılmışdır. Hazırda "proqram təminatı, mobil tətbiqlər, veb-kontent" işçi qrupuna İlham Namazov ("CYBERNET" şirkəti), "qanunvericilik və İKT standartları" işçi qrupuna Rauf Həsənov ("BESTCOMP Group" şirkəti), "telekommunikasiyalar və internet təminatı" işçi qrupuna Ceyhun Mollazadə ("AzQTEL" şirkəti), "İKT sahəsində təhsil və kadr potensialının artırılması" işçi qrupuna Fərid Kazımov (AzPMA), "innovasiyalar və startaplar" işçi qrupuna Rüfət Hacıəlibəyov ("SAP" şirkəti) və "xarici əlaqələr və koordinasiya" işçi qrupuna Əli Kutvan (Kutvan Group) rəhbərlik edirlər. İşçi qrupları öz fəaliyyətləri əsasında ümumi komissiyanın yığıncağında müzakirə olunmaq üçün təkliflər hazırlayır və ümumi müzakirəyə çıxarır.

**Komissiyanın 2021-ci ildə fəaliyyəti haqqında**

Qeyd etmək lazımdır ki, komissiya beynəlxalq təcrübəni davamlı olaraq təhlil edir və Azərbaycanın rəqabət qabiliyyətini artırmaq və ölkədə innovasiyaların davamlı olaraq inkişafını təmin etmək üçün araşdırmalar aparır. Azərbaycana əhali sayına görə daha yaxın olan və texnologiyalarda yaxşı nəticələri olan ölkələr təhlil edilməkdədir.

Həmçinin, komissiya Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ilə sıx əməkdaşlıq edir və Azərbaycanda innovasiyalar və rəqəmsal texnologiyalar sahəsində fəaliyyət göstərən şirkətlərin problemlərini müəyyən etmək istiqamətində araşdırma aparır. Bununla yanaşı, Azərbaycanda texnoloji peşələrə olan tələbatı da müyyən etməyə çalışırıq. Məqsədimiz təhsil müəssisələrinə dəstək olaraq bazarda real tələbat olan peşəkarları hazırlamağa nail olmaqdır.

Son müzakirə olunan məsələlərdən biri də vergi mövzusunda olmuşdur. Azərbaycanda innovasiyaların davamlı ixracını təmin etmək üçün "qanunvericilik və İKT standartları" işçi qrupu tərəfindən region ölkələrin vergi qanunvericiliyinin təhlili aparılmış və Azərbaycanla müqayisə edilmişdir. Təəssüflə qeyd etməliyəm ki, Azərbaycanda innovativ məhsullar yaradan şirkətlər üçün vergilər region ölkələri ilə müqayisədə daha yüksəkdir və bu bizim şirkətlərin xarici bazarlarda fəaliyyətinə təsir edir.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 29.01.2021-ci il tarixli, 20 nömrəli Qərarı ilə təsdiq edilmiş "Startapın müəyyən olunması meyarları"na uyğun olaraq "Startap" şəhadətnaməsinin alınması üçün Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə müraciət etmiş mikro və kiçik sahibkarlıq subyektlərinin təqdim etdikləri sənədlərin (məlumatların) qiymətləndirilməsi üçün Agentlikdə yaradılmış Ekspertlər Şurasında ASK tərəfindən təmsil olunmaq üçün komissiyanın sədr müavini və "innovasiya və startaplar" işçi qrupunun və SAP şirkətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Rüfət Hacıəlibəyovun namizədliyi irəli sürülmüşdür.

Yaxın iclaslarda Azərbaycanın kadr potensialının gücləndirilməsini, İT-klasterlərin yaradılmasını müzakirə etməyi planlaşdırırıq. Görüləcək işlərin həddən artıq çox olmasına baxmayaraq, təəssüflə qeyd etməliyəm ki, komissiya vaxtları son dərəcə məhdud olan iş adamlarını birləşdirdiyi üçün əsas problem vaxt məhdudiyyətidir. Buna baxmayaraq, öz məqsədlərimizə çatmaq niyyətindəyik və müasir çağırışlara cavab vermək üçün səylərimizi əsirgəmirik.




**Ruslan Quliyev**
Azərbaycan Sahibkarlar Konfederasiyasının Turizm və Xidmət üzrə İş Komissiyasının sədri

# Kompleks tədbirlər nəticəsində Qarabağda turizmi yenidən qura bilərik

Uzun illər ərzində müxtəlif beynəlxalq tədbirlərdə Azərbaycan təmsilçiləri ermənilərin təxribatları ilə üzləşirdilər. Xüsusilə turizm sektorunun nümayəndələri nüfuzlu sərgilərdə, toplantılarda Qarabağın turizm potensialını ayrıca "müstəqil respublika"nın stendində nümayiş etdirməyə çalışan, bununla da vətənimizin bu dilbər guşəsinin guya ermənilərə məxsus olduğunu sübut etməyə cəhd göstərənlərlə vaxt və əsəb sərf edərək mübarizə aparırdılar.

Şükürlər olsun ki, bu illər artıq arxada qalıb. Dağlıq Qarabağ və ətraf 7 rayon müzəffər Ordumuzun apardığı 44 günlük müharibənin nəticəsi olaraq düşmən tapdağından azad edildi.

Hazırda qarşıda duran mühüm məsələlərdən biri də iqtisadiyyatın bütün sahələrinin inkişafı üçün olduqca geniş potensialı olan bu gözəl məkanın turizm baxımından cəlbediciliyini müəyyənləşdirmək, Qarabağı yeni bir turizm destinasiyası kimi bütün dünyaya tanıtmaqdır. Bu istiqamətdə artıq dövlət qurumları tərəfindən müəyyən işlərə başlanılıb. Bəs turizm fəaliyyəti ilə məşğul olan özəl qurumların təklifləri nədir? Onlar işğaldan azad edilmiş torpaqlarımızın turizm imkanlarını necə dəyərləndirirlər?

Suallarımızı Azərbaycan Sahibkarlar Konfederasiyasının Turizm və Xidmət üzrə İş Komissiyasının sədri Ruslan Qulyev cavablandırır:

– Qarabağ iqtisadiyyatında turizmin yeri buranın təbii ehtiyatları, coğrafi mövqeyi, tarixi zənginlikləri və potensial nəqliyyat imkanları ilə əlaqədardır. Buna görə də Qarabağın zəngin təbii ehtiyatlarının və xalqımıza məxsus milli-mədəni mirasının turizm dövriyyəsinə cəlb edilməsi qarşıdakı dövrdə görüləcək mühüm işlərdən biri olacaq. Qarabağ zonasının malik olduğu zənginliklərdən biri də burada sağlamlıq turizmi imkanlarının mövcudluğudur. Hələ sovet dövründə Kəlbəcərin İstisu termal mərkəzi, Şuşanın, Ağdamın bolneoloji sanatoriyaları bütün SSR-də məşhur idi. Qarabağ həm xarici, həm də yerli turistlər tərəfindən çox sevilirdi. XX əsrin 30-cu illərindən Şuşadakı kurort müəssisələri, pansionat və sanatoriyalar, Turşsu



yaylaqları, Səkili bulağı, İsa bulağı, əfsanəvi Cıdır düzü buraya səyahətə gələnlərin sevimli yeri olub. Bunlarla yanaşı, Xankəndi, Ağdam, Kəlbəcər ərazilərindəki rekreasiya məkanları, ümumilikdə bölgənin turizm potensialı onu beynəlxalq əhəmiyyətli bir səviyyədə tanıdıb, respublikamıza gələn yüz minlərlə turistin mühüm bir hissəsi məhz Qarabağın payına düşüb. Xüsusən, 1970-ci illərdən başlayaraq burada yaradılmış turizm istirahət müəssisələrinin xidmətlərindən hər il yüz minlərlə yerli və xarici turist istifadə edib.

O dövrdə bu imkanlardan daha səmərəli istifadə etmək üçün müəyyən layihələr işləyib hazırlamışdılar. Azərbaycana gələn ümumittifaq turizm marşrutları var idi, həftəsonu turlar təşkil edilirdi. 80-ci illərin xronikasına nəzər saldıqda biz görürük ki, orada Şuşanın bolneoloji kurortlarının təkmilləşdirilməsi, kanat yollarının çəkilməsi ilə bağlı fikirlər öz əksini tapıb.

90-cı illərdə Qarabağın ermənilər tərəfindən işğalından sonra bu zonada turizmin inkişafı da dayandı. Düşmən insanların evlərini, dövlət obyektlərini, dini və tarixi abidələrimizi dağıtdığı kimi, mövcud sanatoriya-kurort müəssisələrini də məhv edib. Amma təbiətin bəxş etdiklərini özündən başqa kimsə yox edə bilməz. Şuşada, Kəlbəcərdə, Laçında, Zəngilanda, Ağdamda çoxsaylı termal qaynaqlar var ki, bunların hərəsi bir dərdin dərmanıdır. Bildiyimə görə, Laçında 300-dən artıq müxtəlif su qaynaqları var, vaxtilə Zəngilanda Qotur su deyilən yerdə sanatoriya, Ağdamda Şəfa sanatoriyası olub.

*– Sizcə, Qarabağda sağlamlıq turizminin inkişafı üçün hansı işlər görülməlidir?*

– Fikrimcə, ilkin mərhələdə indiyə qədər mövcud olan təsisatların ən azından informativ xarakterli bir xəritə planının, məlumat bazasının yaradılması lazımdır. Hazırda Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutu fəaliyyət göstərir. Azərbaycanda bütün sanatoriya və kurort müəssisələrinin elmi cəhətdən əsaslandırılması, orada təyin edilən müalicə bu institut tərəfindən hazırlanmış elmi-metodiki tövsiyələr əsasında aparılır. Sovetlər dönəmində institut Naftalan, Duzdağ, Qalaaltı ilə bağlı çox geniş tədqiqatlar aparmışdı. İstərdik həmin o arxivlər, araşdırmalar üzə çıxarılsın. Digər tərəfdən, azad edilmiş ərazilərimizdəki termal qaynaqlardan nümunələr götürülə bilər, bir çox müalicəvi sanatoriya-kurort müəssisələrinin yaranmasının əsası qoyula bilər. Düşünürəm ki, bu sanatoriyalar müəyyən vaxtdan sonra müalicəvi əhəmiyyətinə görə dünyanın ən məşhur müalicə mərkəzlərinə çevrilər və buraya ildə minlərlə turist cəlb etmək mümkün olar.

Bundan sonrakı mərhələdə Dövlət Turizm Agentliyi, İqtisadiyyat Nazirliyi və digər aidiyyəti qurumlarla birlikdə Beynəlxalq İşçi Qrupun yaradılmasına ehtiyac duyulur. Bu işçi qrup mütəxəssislər dəvət edərək biznes planlar, infrastruktur layihələrinin həyata keçirilməsi üçün inkişaf planı hazırlaya bilər. Daha sonra xarici investisiyaların cəlb olunması ilə

bağlı uzunmüddətli, təbii ki, burada təşviqi də işin içinə qatmaqla, strategiya həyata keçirmək mümkündür.

Bir faktı qeyd edim, indi Türkiyədə Hattusa Vacation Thermal Club deyilən bir sistem var, onlar da Avropada fəaliyyət göstərən Arsiya Təşkilatının üzvüdür. Zamanın bölünməsi – timeshare sistemi (məzuniyyət sahibkarlığı) mövcuddur ki, dünyada turizm və müalicə turizmi hərəkatına məhz 2-ci Dünya müharibəsindən sonra bu sistemin çox böyük qatqısı olmuşdu. Bu nədən ibarətdir? Sistemlə uzunmüddətli səyahət paketləri təklif olunur və burada insanların arzusundan, istəyindən və adam sayından asılı olaraq, ildə bir neçə həftə dincəlmək imkanları var. İnsanlar konkret ilin fəsillərinə uyğun olaraq seçim edə bilərlər, ailə tərkiblərində istədikləri şəxsləri götürə bilərlər. Burada birinci məsələ beynəlxalq akkreditasiya standartlarına cavab verməkdir. Təbii ki, Azərbaycanın da özünün beynəlxalq standartlara əsaslanan bir akkreditasiya proqramı təsdiqlənəcək. Bununla bağlı Dövlət Turizm Agentliyində də fikirlər səsləndi. Azərbaycanda da daxili turizmin inkişafı ilə bağlı bu təsisatları həmin sistem üzərindən bir şəbəkədə birləşdirmək olar. 250 min ailə hazırda Türkiyədə bu imkanlardan yararlanır. Əgər dünya sisteminə inteqrasiya olunsaq, deməli, bu xəritədə Azərbaycanın da yeri olacaq. Biz belə bir təcrübədən yararlanmışıq. Şabranda yerləşən «Qalaaltı» müalicəvi istirahət kompleksi Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasının «Termal şəhərlər» beynəlxalq mədəni turizm marşrutuna daxil edilib. Assosiasiya termal şəhərlər arasında bir əlaqə vasitəsi rolunu oynayır. Assosiasiyaya üzvlük üçün müraciət edən şəhərlər əsasən üç xüsusiyyətinə görə seçilir. Birincisi, bu şəhərin qədim və zəngin tarixi keçmişi olmalıdır, ikincisi, termal sularla zəngin olmalıdır, üçüncüsü isə müasir tələblərə cavab verən infrastrukturu – hotelləri, yolu, hava limanı və s. olmalıdır. Bununla bərabər, həmin şəhərlərin musiqi, mədəniyyət mərkəzi rolunu da oynaması bir üstünlük sayılır. Turizm baxımından qurumun işi Qərbi Avropanı Şərqi Avropa ilə yaxınlaşdırmaq, eyni zamanda termal turizmin inkişafında dünyada baş verənlərə töhfə verməkdir. Hazırda quruma 13 ölkə, 36 şəhər daxildir. Bu eyni zamanda bir keyfiyyət əmtəə nişanı da sayılır. İnsanlar artıq bu təşkilatların üzvü olan təsisatlara rahatlıqla etibar edirlər.



*İşğaldan azad edilmiş ərazilərimizdə turizmin inkişafına nail olmaq üçün müxtəlif sahibkarlıq subyektlərinə dövlət tərəfindən indiyə qədər edilən dəstək daha da dərinləşdirilməlidir.*

İndi təsəvvür edin, qədim tarixi, zəngin mədəniyyəti olan Şuşanı Avropa Tarixi Termal Şəhərlər Assosiasiyasına üzv etmək üçün qurumun standartlarına cavab verəcək bir vəziyyətə gətirə bilsək və bunu reallaşdırsaq, bu, ildə yüz minlərlə turistin Azərbaycana, Qarabağa cəlbi deməkdir.

– *Sizcə, Qarabağda turizmin inkişafına nail olmaq üçün dövlət sahibkarlara ilkin olaraq hansı güzəştləri təklif etməlidir?*

– İşğaldan azad edilmiş ərazilərimizdə turizmin inkişafına nail olmaq üçün müxtəlif sahibkarlıq subyektlərinə dövlət tərəfindən indiyə qədər edilən dəstək daha da dərinləşdirilməlidir. Bu, sistemli olmalıdır. Hesab edirəm ki, ilkin olaraq Prezident yanında turizmin inkişafına dəstək fondu yaradılmalı, təşviqlər-subsidiyalar haqqında qanun qəbul edilməlidir.

Dünya təcrübəsində sağlamlıq turizmi məqsədilə gələn, minimum 12-14 gün gecələmə üçün ölkəyə təşrif buyuran xarici turizm agentliklərinə və o işlə məşğul



olan operatorlara dövlət tutaq ki, hər turist başına şərti vahidlə 70 manatlıq bir təşviq verir. Qarabağın sağlamlıq turizmi imkanlarını dünyada tanıdan subyektlərə də dövlət xərclədiyi pulun 65-70%-ə qədərini geri qaytarsın. Məsələn, ölkəyə 1 milyon turist daxil olur, bu, 7 milyon gecələmə deməkdir, hər bir turist 1 həftədə 1000 manata yaxın pul xərcləyirsə, büdcədən 70 milyon vəsait çıxır, əvəzində ölkəyə 1 milyard vəsait daxil olur.

Aviadaşımalar sahəsində fəaliyyət göstərən şirkətlər də həmçinin, müxtəlif güzəştlər verir. Qarabağ turizm zonasına 7-14 gecə qalmaq şərti ilə turist gətirən turizm şirkətlərinə Azərbaycan Hava Yolları tərəfindən 50% endirim təmin olunmalıdır. Bu, təxminən 3 il müddətində nəzərdə tutulur. Və yaxud Qarabağda çalışan şirkətlərə 10-15 illik 1,5 %-lə kredit verilir. İqtisadiyyat Nazirliyinin postpandemiya dövrü ilə bağlı təklif paketləri var, postmüharibə dövrü ilə bağlı da belə paketlər olmalıdır. Xarici və daxili amilləri nəzərə almaqla, sırf Qarabağın inkişaf strategiyasında bu məsələlər nəzərə alınmalıdır, hüquqi-normativ sənədlər bazasında bəlli bir qanun və platformalar hazırlanmalıdır. Bu il "Turizm haqqında" qanunun da təsdiqlənməsi nəzərdə tutulur. Vahid turizm reyestri yaranan zaman da məhz Qarabağ məkanında xidmət göstərəcək təşkilatlara dediyimiz imkanlar yaradılmalıdır. Burada xarici investisiyaların cəlb olunması ilə bağlı məsələlər çox vacibdir. Bunlardan əlavə, kadr hazırlığına xüsusi diqqət yetirməliyik. Qurulan yeni təsisatlarda yerli kadrlarımıza üstünlük verməliyik. Qarabağ zonasında turizm peşə məktəblərinin, Şuşada Azərbaycan Turizm və Menecment Universitetinin filialının açılması məqbul olardı.

Bu gün artıq Prezidentin müşavirələrdə qeyd etdiyi kimi, Dünya Bankının "Doing Business" proqramında 190 ölkə arasında Azərbaycanın 28-ci yerdə olması da turizm sahəsində inkişafa bir yaşıl işıq yandırır. Bu islahatların aparılması birbaşa biznes mühitinə beynəlxalq nüfuzlu şirkətlərin investisiya yatırmasına şərait yaradır.

Düşünürəm ki, Qarabağda Silikon Vadisinin analoqunu yaratmaq olar. Azərbaycanın bu illər ərzində beynəlxalq platformalarda – istər Dünya Turizm Təşkilatında, sağlamlıq turizmi qurumlarında, ekoturizm cəmiyyətlərində təmsil olunmasından da geniş istifadə edə bilərik. Azərbaycanın bu savaşdakı qələbəsi bütün dünya reytinqində, istər siyasi, istər mədəni, istərsə də digər sahələrdə ölkəmizin nüfuzunu artırıb. Azərbaycana sərmayə qoymaq istəyən təşkilatlar da quruculuq işlərində iştirak etmək istəyirlər. Bu iştirak turizmlə bağlı da ola bilər. Mənim təxmini hesablamalarıma görə, bu məsələlər paralel aparılarsa, biz 6-8 il ərzində Qarabağ turizminin 85 faizini qura bilərik. Cənab Prezidentin dediyi "Qarabağ Azərbaycandır" devizini biz artıq iqtisadi blokda, turizm istiqaməti də daxil olmaqla, tətbiq edə bilərik. Buraya hər kəs öz töhfəsini verməlidir.

# Pandemiya və post-pandemiya dövründə bank sektoru




*İlk aylardan etibarən Çində özünü göstərən yeni koronavirus növü (COVID-19) və onun pandemiyaya çevrilmə potensialı haqqında xəbərlər dünya gündəmini əhatə etməyə başladı. Vaxt keçdikcə, bu virusun sürətlə yayıldığının, iqtisadi gücündən, iqlim şəraitindən və coğrafi yerləşməsindən asılı olmayaraq, artıq bütün ölkələrin onunla mübarizə aparmalı olduğunun şahidi olduq. Bu son dövrlər üçün analoji olmayan bir hadisə idi və qeyri-ənənəvi həll yolları tələb edirdi.*

Bank maliyyə sektoru üzrə stabilliyin qorunub saxlanmasında 3 istiqamətdə atılan addımların vəhdətini vurğulamaq lazımdır: Hökümət tərəfindən qəbul edilən sahibkarlıq fəaliyyətini dəstəkləyən və ümumilikdə iqtisadi və sosial yöndə həyata keçirilmiş tədbirlər, requlyatorun tənzimləmə qaydalarında etdiyi müvafiq yumşaltmalar və biznes subyektlərinin borcları ilə əlaqədar güzəştləri, eləcə də banklar tərəfindən beynəlxalq təcrübə və yerli bazardakı vəziyyət araşdırılaraq atılan müvafiq addımlar atılıb.

**Ölkə başçısının sərəncamı və dövlət tərəfindən görülən işlər**

Digər ölkələrin təcrübələri onu göstərirdi ki, bu zaman tətbiq edilən ən effektiv tədbirlərdən biri “lockdown” - “qapanma”lardır. Bu məhdudiyyətlər isə ilk olaraq biznesə və əhaliyə, sonra isə bank-maliyyə sektoruna təsir edirdi. Başqa sözlə, dövlət tərəfindən epidemioloji şəraitə nəzarət ilə yanaşı həm də bu təsirlərin tənzimlənməsini təmin edəcək kompleks tədbirlər görülməsi lazım idi.

Bütün bu məsələlər isə dövlət səviyyəsində tam əhatəli və operativ şəkildə təşkil edildi. Azərbaycan Respublikası Prezidentinin “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında” 19 mart 2020-ci tarixli Sərəncamı ilə bu proseslərə start verildi.

Bu Sərəncam əsasında, Nazirlər Kabineti tərəfindən hazırlanmış müvafiq tədbirlər paketinin mərkəzində isə pandemiyadan təsirlənmiş sahələrdə çalışan və həssas əhali qrupu dayanırdı. İlk olaraq, 2020-ci ilin aprel-may aylarında 2 dəfə (sonralar sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayonlar üzrə və ümumilikdə 6 dəfəyə qədər) işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-rəsmi olaraq çalışan şəxslərdən ibarət aztəminatlı 600 min şəxsə, ümumi məbləği 450 milyon manat həcmində olan birdəfəlik ödəmələr (190 manat) həyata keçirildi. Bu ödənişlər isə əsasən banklar üzərindən edilirdi ki, olduqca böyük bir kütləni əhatə edən bu prosesin texniki cəhətləri və prosedurları Azərbaycan Banklar Assosiasiyası (ABA) üzv təşkilatları və əlaqədar dövlət qurumları ilə birgə koordinasiya çərçivəsində tez bir zamanda müəyyən edildi, və ödənişlər reallaşdırıldı.

Qeyd edək ki, 600 min şəxs üçün nəzərdə tutulan bu ödəniş kartlarının hazırlanması xərclərini banklar öz üzərinə götürmüşdülər. Həmçinin banklar məhdudiyyətlərin ilkin tətbiq edildiyi dövrlərdə həssas əhali qrupuna məxsus sosial ödənişlərin verildiyi ödəniş kartları üzrə istifadə edilən ATM-in hansı banka məxsus olmasından asılı olmayaraq, nağdlaşdırma komissiyası tutmadan əməliyyatların həyata keçirilməsi üzrə birgə qərar qəbul etdilər.

Digər bir istiqamət isə pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin əməkhaqqlarının müəyyən hissəsinin dövlət tərəfindən ödənilməsi, fərdi sahibkarlara maliyyə dəstəyinin göstərilməsi, habelə iqtisadi fəallığın qorunması məqsədilə vergi stimullarının verilməsi idi.

Müvafiq tədbirlər paketi çərçivəsində pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində və klasterlərdə çalışan 300 min nəfər muzdlu işçinin (əmək müqaviləsi



olan) əməkhaqqlarının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara, həmçinin əlavə olaraq 300 min fərdi (mikro) sahibkara dövlət tərəfindən maliyyə dəstəyinin göstərilməsinə qərar verildi. Banklar da bu vəsaitlərin həm sahibkarlara ödənilməsi, həm də aidiyyatı üzrə xərclənməsinə nəzarətə birbaşa dəstək verdilər. Ümumilikdə, pandemiyadan zərər çəkmiş sahələrdəki muzdlu işçilərə göstərilən maliyyə dəstəyi 246 milyon manat, fərdi mikrosahibkarlara maliyyə dəstəyi isə 112,2 milyon manat təşkil etmişdir. Əməkhaqlarının müəyyən hissəsinin ödənilməsinin birinci mərhələsi çərçivəsində 217,5 min muzdlu işçiyə, 2 mərhələdə 243,3 min muzdlu işçiyə, üçüncü mərhələdə 10 rayon üzrə 9,3 min muzdlu işçiyə, 4-cü mərhələdə 174,3 min muzdlu işçiyə maliyyə dəstəyi göstərilmişdir .

Beləliklə, 2020-ci il ərzində sahibkarlara 358 milyon manatdan çox maliyyə dəstəyi göstərilmiş oldu.

Bununla yanaşı, "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 31 iyul tarixli 224 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 iyun tarixli 1052 nömrəli Fərmanı və onun icrası üzrə sahibkarların subsidiya və dövlət zəmanəti ilə təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilən qaydaları da xüsusi ilə qeyd etmək lazımdır. Həmin qaydalar üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin tədbirləri çərçivəsində pandemiyadan təsirlənən sahibkarların 1 milyard manata qədər olan mövcud kreditləri 12 ay ərzində 10%-ə qədər subsidiyalaşdırılır, həmçinin müvafiq sahələrdəki bizneslər 500 milyon manat həcmində yeni güzəştli kreditlərlə (60%-ə qədər dövlət zəmanəti və kredit faizinin yarısına qədər subsidiyanın verilməsi şərti ilə) təmin edilir . Vurğulamaq lazımdır ki, bu qaydaların hazırlanması prosesində və icrası prosesində ABA-nın Rəyasət Heyəti və müvafiq Ekspert Qrupları müvafiq dövlət qurumları ilə sıx əməkdaşlıq halında olmuşlar. Fərmanın icrası nəticəsində 2020-ci il ərzində təqribən 170 milyon manat həcmində dövlət zəmanətli kreditlər ayrılıb, qalıq məbləği 482 milyon manat olan mövcud kreditlər üzrə 33 milyon manat faiz subsidiyasının verilməsi barədə qərarlar qəbul edilmişdir .

Eyni zamanda, Dövlət Vergi Xidməti tərəfindən qanunvericiliyə dəyişiklik edilməsi təşəbbüsü oldu və nəticədə sahibkarlıq subyektlə-

rinə, kiçik və orta sahibkarlara 115 milyon manat dəyərində geniş vergi güzəştləri və tətillər verildi .

**Requlyatorun rolu**

Ümumiyyətlə, Azərbaycan Mərkəzi Bankı (AMB) dövlət-özəl forumuna ən açıq və bu istiqamətdə uzunmüddətli təcrübəyə malik dövlət qurumlarından biridir. Bu cəhətdən AMB sektoru tənzimləyən və ya ona təsiri olan digər qərarların qəbulunda banklarla fikir mübadiləsinin aparılmasını hər zaman dəstəkləyir.

Bu səbəbdən Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planının "Karantin rejimi müddətində pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarların öhdəliklərinin tənzimlənməsi məqsədilə kredit təşkilatlarına requlyativ tətilin verilməsi" tədbirinin icrası çərçivəsində ABA üzv təşkilatları ilə fikir mübadiləsi aparılmış və banklardan müvafiq istiqamətdə təkliflər paketi alınmışdır. Sonrakı prosesdə AMB-nin İdarə Heyətinin 24.04.2020-ci il tarixli, 16 saylı qərarı ilə koronavirus pandemiyası şəraitində əhaliyə, biznesə və digər tərəfdən maliyyə sektoruna əlavə dəstəkləyici tədbirlər paketi təsdiq edilmiş və "Koronavirus (COVID-19) pandemiyası şəraitində kredit təşkilatlarının fəaliyyətinin müvəqqəti tənzimlənməsi Qaydası" qəbul olunmuşdur. Nəticədə kreditlərin təsnifləşdirilməsi üzrə requlyativ tələblər yumşaldılmış, kreditlərin təsnifləşdirilməsi üzrə güzəştlər faizləri subsidiyalaşdırılan sahibkarlıq kreditlərinə və dövlət fondlarının vəsaiti hesabına verilmiş kreditlərin restrukturizasiyasına şamil edilmişdir. Bununla yanaşı, kredit təşkilatlarına əlavə cərimə faizi, dəbbə pulu və digər cərimələrin hesablanmaması, həmçinin borcalanlar üzrə neqativ kredit tarixçəsi barədə məlumatların kredit bürosuna xüsusi qeydlə təqdim olunması tövsiyə edilmişdir. Pandemiya şəraitinin davam etməsi səbəbindən qəbul edilmiş bu və bu kimi güzəştlər 2021-ci ilin I rübünün sonuna qədər uzadılmışdır.

Bununla yanaşı, bankların filial və şöbələrində, eləcə də bankomatların qarşısında vətəndaş sıxlığının idarə olunması məqsədilə əmək pensiyaları, sosial müavinət, təqaüd və kompensasiya ödənişləri, eləcə də ünvanlı dövlət sosial yardımları üzrə istifadə müddəti başa çatan aktiv müştərilərin ödəniş kartlarının istifadə müddətinin uzadılmasına qərar verilmiş və effektiv nəticələrə nail olunmuşdur .

Həmçinin, pandemiya dövründə əhalinin təmassız ödəniş imkanlarını artırmaq üçün dünyanın bir çox ölkələrində PİN-kod daxil edilmədən təmassız kartlarla aparılan nağdsız əməliyyatların limitlərinin yüksəldilməsi təcrübəsi requlyator tərəfindən ölkəmizdə də tədbiq edilmiş və bu əməliyyatlar üçün nəzərdə tutulan limit 50 manat səviyyəsindən 100 manata yüksəldilmişdir.

Həmçinin 16 sentyabr 2020-ci il tarixində pandemiya şəraitində sahibkarların üzləşdiyi çətinliklər və bu vəziyyətdən çıxışla bağlı bank sektoru ilə əməkdaşlıq istiqamətlərinin müzakirəsinə həsr olunmuş Mərkəzi Bankın İdarə Heyəti yanında Sahibkarlarla Əməkdaşlıq Şurasının növbəti iclası da keçirilmişdir. İclasda Azərbaycan Respublikası Sahibkarlar Təşkilatları Milli Konfederasiyası, Azərbaycan Banklar Assosiasiyası təmsil olunmaqla yanaşı, sahibkarlar və bank nümayəndələri iştirak etmişlər. Ümumilikdə, sahibkarlara dəstək və onların problemlərinin öyrənilməsi məqsədi ilə məhdudiyyətlərin başladığı dövrdə ABA-nın törəmə qurumu olan Azərbaycan Bank Tədris Mərkəzinin dəstəyi ilə bankların biznes müştəriləri arasında pandemiyanın təsirlərinin müəyyən edilməsi və maliyyə ehtiyacları ilə bağlı sorğu keçirilmiş və bu məlumatlar requlyatorla bölüşülmüş, fikir mübadiləsi aparılmışdır. Bu görüşdə isə sorğunun ilk aparıldığı dövrdən bəri baş verən dəyişikliklər və yerdə qalan çağırışların həlli istiqamətində təkliflər səsləndirilmişdir.

Yekun olaraq, pandemiya dövründə requlyator tərəfindən həm maliyyə sektorunun stabilliyinin qorunması, həm əhali və biznesin dəstəklənməsi, həm də ümumilikdə makroiqtisadi sabitliyin təmin edilməsində təqdirəlayiq addımlar atıldı və proseslər peşakarlıqla idarə edildi. ABA bütün bu proseslər zamanı dövlət-özəl forumu çərçivəsində bu proseslərə qoşulmuş və mümkün dəstək kanalları ilə töhfə verməyə çalışıb və bunu daim davam etdirəcək.

**Bankların rolu**

Qeyd olunan məsələlər dövlət qurumları və requlyator tərəfindən tədbir, qayda və mexanizmlərin formalaşdırılmasına və sonradan onların tətbiqi prosesinə bankların verdiyi töhfə üzərində qurulmuşdu.

Lakin banklar bu proseslərin əvvəlindən etibarən beynəlxalq təcrübəyə əsaslanan və yerli bazarın xüsusiyyətlərinə uyğunlaşdırılmış müxtəlif tədbirlər görməyə başlamışdırlar. Bunların ilki sahibkarlara 1-3 ay müddətinə kredit ödənişləri üzrə möhlətin verilməsi, başqa sözlə, restrukturizasiyanın tətbiqi idi. Bu proses banklar üçün xərcli olsa da (restrukturizasiya zamanı kreditin keyfiyyəti nisbətən pisləşir və ehtiyat yaradılmalı olur), dövrün tələbi olduğu üçün bu addımlar atıldı. Bununla paralel, bu prosesin məsafədən həyata keçirilməsi istiqamətində mümkün tədbirlər görüldü. Bundan əlavə, həyata keçirilməsi yalnız bank filiallarında mümkün olan əməliyyatlardakı təhlükəsizliyi təmin etmək üçün də bank daxili prosedurlar hazırlandı və tətbiq edildi.

Həmçinin banklar tərəfindən pandemiya dövründə Koronavirusla Mübarizəyə Dəstək Fonduna ümumilikdə 7 milyon manatdan çox ianə edilmişdir .

*Azərbaycan Banklar Assosiasiyası*

# Sığorta sektorunda yeni icbari növlərin özəl bazar payına təsir imkanları: icbari tibbi sığorta



*Artıq ötən ilin əvvəllərindən etibarən dünyada və Azərbaycanda yeni növ koronavirus infeksiyası olan COVID-19 bir pandemiya kimi qeydə alınaraq sürətlə yayılmağa başladı. Nəticədə hər bir dünya ölkəsi müxtəlif məhdudlaşdırıcı şərtləri özündə ehtiva edən sərtləşdirilmiş xüsusi karantin rejiminə keçid etmək məcburiyyətində qaldı.*

Təbii ki, bu proses bütün dünya ölkələrində iqtisadiyyatlara bu və ya digər formada öz neqativ təsirini göstərməyə başladı. Neqativ təsirlər də öz növbəsində biznes və xidmət şərtlərində, bununla paralel olaraq istehlakçı və istifadəçi davranışlarında da yeni çağırışların meydana gəlməsinə zəmin yaratdı. Yeni çağırışlarda isə yeni tələblər ön plana çıxdı.

Bildiyiniz kimi, artıq bir müddətdir ki, ölkədə icbari tibbi sığortanın tətbiqi ilə bağlı əsaslı hazırlıq işləri aparılırdı. Bu yeni sığorta sistemi çərçivəsində xidmətlər zərfinin müəyyənləşdirilməsi, xidmət mexanizminin formalaşdırılması, müvafiq istiqamətdə dünya təcrübəsinin öyrənilməsi və mexanizmin müxtəlif regionlarda pilot-test rejimində həyata keçirilməsi hazırlıq prosesi çərçivəsində görülən başlıca işlər oldu. Əslində 2020-ci ilin aprel ayından etibarən ümumrespublika səviyyəsində tətbiqi planlaşdırılan icbari tibbi sığorta sistemi ölkədə sürətlə yayılmaqda olan COVID-19 pandemiyası səbəbilə 1 il gecikmə ilə, yəni cari ildən etibarən tətbiq edilməyə başladı.

Lakin buna baxmayaraq yerli sığorta bazarı iştirakçıları məhrumiyyətlərlə paralel, həm də yeni meyillər gətirən pandemiya dövründə çağırışlara adekvat reaksiya verə bildi. Çünki xidmət sektoru bütün hallarda dövrün tələbini və zamanın şərtlərini mütləq şəkildə nəzərə almalıdır. Bu nüans sığorta xidmətlərinə də aiddir. Bu mənada "Atəşgah Həyat" Sığorta Şirkətinin "Antikoronavirus", "Paşa Sığorta" Şirkətinin "COVID Yardım", "Qala Həyat" Sığorta Şirkətinin "COVID-19" kimi sığorta məhsullarını misal göstərmək olar. Bu sığorta məhsulları da məhz elə bu dövrün tələb və şərtlərinə müvafiq olaraq formalaşdırıldı və tətbiq edildi. Nəticədə bu məhsullar bazar aktivliyi ilə seçildi və proqnozlaşdırıldığı kimi sığortalılar tərəfindən yüksək maraqla qarşılandı.

Lakin bütün bu proseslər çərçivəsində mövcud və potensial sığortalı olan ictimaiyyəti maraqlandıran bəzi məqamlar var idi – "İcbari tibbi sığorta könüllü tibbi sığorta və həyat sığortası bazarına

hansı şəkildə təsir edəcək?" və ya İcbari tibbi sığortası olan vətəndaş nə üçün könüllü tibbi sığortaya da müraciət etməlidir.

Azərbaycan Sığortaçılar Assosiasiyasının "Ekspert qrupu"nun üzvü, "Atəşgah Həyat" sığorta şirkətinin nümayəndəsi Şəfəq Həsənova bildirir ki, bu proses ölkədə sığortanın təbliğini stimullaşdıracaq:

"Həyat sığortası xidmətləri ilə icbari tibbi sığorta ümumi kontekstdən yanaşsaq fərqli istiqamətlərdir. Lakin önəmli olan məqam ondan ibarətdir ki, Həyat sığorta xidmətləri könüllü olaraq tətbiq edilir, amma icbari tibbi sığorta imperativliyi özündə əks etdirir. Bu mənada hesab edirəm ki, icbari tibbi sığorta həyat sığorta bazarına hər hansı bir təhdid təşkil etmir. Əksinə, icbari tibbi sığorta hər kəsə məcburi olduğu üçün mövcud və potensial sığortaolunan kontingentində digər klassik sığorta növlərinə və ümumilikdə sığorta xidmətlərinə marağı daha da artıracaq".

Sığorta mütəxəssisi Şəfəq Həsənova bildirir ki, icbari tibbi sığortanın könüllü tibbi sığorta bazarına da hər hansı neqativ təsiri gözlənilmir:

"Fikrimcə İcbari tibbi sığorta könüllü tibbi sığorta bazarının inkişafına əks təsir etməyəcək. Çünki bu iki istiqamət bir-birindən həm xidmətlər zərfinə, həm xidmət şəbəkəsinə görə fərqlənir. Bu fərqlər də mövcud və potensial sığortaolunanlara alternativ seçim imkanları qazandırır. Bəzi xidmət istiqamətləri var ki, onlar Könüllü tibbi sığorta sistemində mövcuddur. Məhz buna görə də sığortaolunan icbari tibbi sığortası olsa belə, könüllü tibbi sığorta ilə maraqlanacaq. Bu hissədə də hesab edirəm ki, icbari tibbi sığorta könüllü tibbi sığorta bazarını stimullaşdıracaq".

ASA-nın "Ekspert qrupu"nun üzvü Ş.Həsənova bildirir ki, icbari növlərin könüllü növlərə neqativ təsir etmədiyi praktkada da mövcuddur:

"Təcrübə da göstərir ki, icbari növlər könüllü növlərə maneə yaratmır, əksinə, onların fəaliyyətini stimullaşdırır. Məsələn, bu gün Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası Kasko sığorta üzrə satışlara maneə yaratmır, əksinə, bu könüllü növün satışlarına müsbət təkan verir".

Müstəqil ekspertlər də bildirirlər ki, icbari tibbi sığortanın tətbiqi ilə sığortaolunan vətəndaşların sığorta xidmətlərinə marağı daha da artmış olacaq. Ekspertlərin sözlərinə görə, icbari tibbi sığortanın tətbiqi ilə vətəndaşlar sığorta ilə yenidən tanış olmuş olacaqlar. Bu yeni mexanizm istər həyat, istərsə də qeyri-həyat sığorta xidmətlərinə ümumi anlamda zərər verməyəcək. Əksinə, insanlar sığorta ilə yenidən tanış olacaqlar və sığortaya maraq daha da artacaq.

> *Yerli sığorta bazarı iştirakçıları məhrumiyyətlərlə paralel, həm də yeni meyllər gətirən pandemiya dövründə çağırışlara adekvat reaksiya verə bildi. Çünki xidmət sektoru bütün hallarda dövrün tələbini və zamanın şərtlərini mütləq şəkildə nəzərə almalıdır.*

Ekspertlərin şərhindən də aydın göründüyü kimi, yeni tətbiq edilməkdə olan icbari tibbi sığorta mexanizminin mövcud vəziyyətdə könüllü tibbi və ya həyat sığortası bazarına hər hansı neqativ təsiri müzakirə obyekti ola bilməz. Çünki hər bir mexanizmin öz şərtləri, spesifik xüsusiyyətləri və hədəf trayektoriyası var.

Burada təbii ki, ekspertin də bildirdiyi kimi, ilk növbədə icbari tibbi sığorta ilə könüllü tibbi sığortanın xidmət istifadəçilərinə təklif etdiyi xidmətlər zərfi bir-birindən fərqlənir. Eyni zamanda əsas fərqlənən məqamlardan biri də ondan ibarətdir ki, icbari tibbi sığorta çərçivəsində xidmətlərin göstərilməsində daha çox dövlət səhiyyə müəssisələrinə üstünlük verilirsə, könüllü tibbi sığorta çərçivəsində özəl tibb mərkəzləri çoxluq təşkil edir. Ən önəmli məqamlardan biri də odur ki, icbari tibbi sığorta bütün ölkə vətəndaşlarına birmənalı şəkildə şamil edilsə də, yerli sığorta bazarı iştirakçıları könüllü tibbi sığorta xidmətlərini sığortaolunan korporativ müştərilərə təqdim edirlər və uzun illərdir ki, bu mexanizm aktiv işləkliyini təmin etdiyi üçün şirkətlərdə stabil və hətta ilbəil artan sayda müştəri portfeli formalaşmışdır.

İcbari tibbi sığorta mexanizmi ilə həyat sığortası bazarı arasında paralellər apararkən və ya müqayisə əsasında fərqləri ortaya çıxararkən yuxarıda qeyd olunan məqamları eynilə aid etmək olar.

Dəyişməz reallıq ondan ibarətdir ki, tətbiq edilməkdə olan icbari tibbi sığorta imperativlik prinsiplərinə əsaslanmış olsa da, eyni qaydada yerli sığorta bazarı iştirakçılarının illərdir tətbiq etməkdə olduqları tibbi və həyat sığortası xidmətləri könüllülüyə əsaslansa da bazarda hər hansı bir neqativ tendensiyanın müşahidə olunacağı gözlənilmir. Əksinə, bu məqam Azərbaycanın sığorta bazarı üçün yeni bir rəqabət mühiti formalaşdırmaqla müasir inkişaf meyilləri yaratmış olacaq. Azərbaycan Sığortaçılar Assosiasiyası əminliklə bildirir ki, yerli sığorta bazarı iştirakçıları mövcud vəziy-

yətdə hər cür rəqabətə tam hazır və dayanıqlıdır. Çünki ölkədə fəaliyyət göstərən sığorta şirkətləri pandemiya kimi məhrumiyyətlərlə zəngin 2020-ci ili pandemiyasız 2019-cu illə müqayisədə 47.5 milyon manatlıq müsbət dinamika ilə başa vura bilib. Bazar iştirakçıları bu artım dinamikasını təmin etməklə eyni zamanda 2018-ci ildə yığımlar üzrə qeydə alınmış pik həddi də 700 min manat həcmində ötə bilib.

Müvafiq artım tendensiyası yuxarıda haqqında danışdığımız klassik sığorta istiqamətlərində də müşahidə olunmaqdadır. Belə ki, 2019-cu ilin yekun icmal göstəriciləri ilə müqayisədə 2020-ci ildə yerli sığorta bazarı iştirakçıları tərəfindən könüllü tibbi sığorta növü istiqamətində 5.7 milyon manat artımla 101.5 milyon manat sığorta yığımı təmin edilib. Analoji yüksəliş trendi həyat sığortası bazarında da müşahidə olunub. Adı çəkilən istiqamət üzrə yerli sığorta bazarı iştirakçıları 2020-ci il ərzində 249.7 milyon manat sığorta haqqı təmin edə bilib ki, bu da 2019-cu ilin müvafiq növ üzrə icmal göstəriciləri ilə müqayisədə 30.4 milyon manat çoxdur.

> *Ölkədə fəaliyyət göstərən sığorta şirkətləri pandemiya kimi məhrumiyyətlərlə zəngin 2020-ci ili pandemiyasız 2019-cu illə müqayisədə 47.5 milyon manatlıq müsbət dinamika ilə başa vura bilib.*

Eyni zamanda bu istiqamətə yaxın və sahibkarlara birbaşa aid olan, son dövrlər xüsusi aktivliyi ilə də seçilən i stehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta növü üzrə də artım dinamikası təmin olunmaqdadır. Belə ki, adı çəkilən növ üzrə ötən ilin yığımları 53.9 milyon manat təşkil edib ki, bu da 2019-cu illə müqayisədə 5.8 milyon manat çoxdur. Rəqəmlərdən də aydın görünür ki, sahibkarların bu sığorta istiqamətinə də marağı ilbəil artmaqdadır.

Qeyd olunan rəqəmlərə və cərəyan edən müsbət tendensiyaya əsaslansaq sevinc hissi ilə etiraf etməliyik ki, hazırda Azərbaycanın sığorta bazarı yeni inkişaf mərhələsindədir. Bu mərhələ təbii ki, çətinliklər zəngin və yüksək məsuliyyət tələb edən bir dönəmdir. Bu periodda sektorda baş verə biləcək istənilən hadisə yeni inkişaf meyillərini formalaşdıran və stimullaşdıran faktor rolunu oynayacaqdır. Yerli sığorta bazarının üzərinə düşən başlıca vəzifə bu mərhələdə dayanıqlı inkişafı qorumaqla rəqabət mühitinə uyğunlaşmaq və proseslərin müsbət yöndə dəyərləndirilməsini realizə etməkdən ibarətdir. Yerli bazar rəqabətə, inkişafa, yeni meyillərə və müasir çağırışlara hazırdır.

*"Azərbaycan Sığortaçılar Assosiasiyası" İctimai Birliyi*














**Manuela Traldi,**
İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti

# “Əməkdaşlıq üçün bir çox sahələr var”

Azərbaycan ilə İtaliya arasında mövcud ənənəvi dostluq əlaqələri sürətlə inkişaf etməkdədir. Geridə qoyduğumuz ili isə ikitərəfli münasibətlərin “qızıl dövrü” kimi səciyyələndirmək olardı. Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevin İtaliya Respublikasına rəsmi səfəri, 2020-ci ilin İtaliyada “Azərbaycan ili” kimi qeyd olunması, Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərimizə ilk xarici nümayəndə heyəti olaraq italiyalı parlamentarilər və xarici işlər nazirinin müavininin səfəri buna bariz nümunədir.

Bu dəfəki xarici qonağımız Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) İtaliyadakı nümayəndəsi, İtaliya-Azərbaycan Ticarət Palatasının (ITAZERCOM) prezidenti xanım Manuela Traldidir. Manuela xanımla İtaliya-Azərbacan iqtisadi-ticari əlaqələrinin cari vəziyyəti və gələcək perspektivlərini müzakirə etdik.

*– Zəhmət olmasa, bizə İtaliya-Azərbaycan Ticarət Palatasının fəaliyyəti barədə qısa məlumat verərdiniz.*

– Azərbaycan və İtaliya arasında mövcüd olan güclü iş birliyinin iqtisadi kontekstində, İtaliya-Azərbaycan Ticarət Palatası, səfirliklər, dövlət qurumları, dövlət və özəl qurumları ilə sıx əməkdaşlıq şəraitində ölkələrimiz arasında ticarətin, qarşılıqlı tərəfdaşlığın və investisiyaların inkişafı məqsədilə yaradılmış rəsmi ikitərəfli qurumdur.

Xüsusilə, Palata Azərbaycan şirkətlərinin İtaliyada və Avropa Birliyi bazarına və tərəfdaşlıq imkanlarına çıxışını dəstəkləyir, eyni zamanda Azərbaycanı İtalyan şirkətləri üçün bütün Qafqaz bölgəsinə və Asiya bazarlarına istiqamətlənmiş ideal məhsuldar logistik və ticarət platforması kimi tanıdır.

2012-ci ildə yaradılan Palata, həmçinin ölkələrimizi birləşdirən Cənub Qaz Dəhlizi perspektivində qurulan ITAZERCOM-un Bakı, Landmark iş mərkəzində ofisi və Romada, Milan və Katanyada məlumat mərkəzləri fəaliyyət göstərir.

Palatamızın fəxri üzvü olan Azərbaycan Sahibkarlar Konfederasiyasını ITAZERCOM-un Məşvərət Şurasında konfederasiyanın prezidenti Məmməd Musayevin yüksək səviyyədə təmsil etməsindən İtaliyada məmnunluq və şərəf duyuruq.

*– İtaliya-Azərbaycan iqtisadi münasibətlərinin keçmişi və indiki*



*vəziyyəti haqqında nə deyə bilərsiniz?*

– Ölkələrimiz arasında mövcud dostluq əlaqələrinin davamlı inkişafından və möhkəmlənməsindən çox məmnunam. Ötən illərdə İtaliyanın Azərbaycanın ilk ticarət tərəfdaşı və Azərbaycan neft məhsullarının əsas idxalçısı olması iki ölkə arasındakı uğurlu əlaqələrin bariz nümunəsidir. Həqiqətən də keçən il ikitərəfli münasibətlərdə irəliyə doğru mühüm bir addım atılmışdır. İlk növbədə, Prezident İlham Əliyevin dövlət səfəri və Romadakı hər iki ölkənin ən yüksək nümayəndələrinin iştirak etdiyi İşgüzar Forumun keçirilməsi, enerjidən aerokosmikə, infrastrukturdan maliyyəyə, təhsilə və s. bu kimi müxtəlif sahələrdə 26-dan çox vacib Anlaşma Memorandumunun və ticarət əməkdaşlıq müqavilələrinin rəsmiləşdirilməsi çox böyük uğurdur.

Pandemiya səbəbindən dünya miqyaslı problemlərə baxmayaraq, iş birliyimizdə həqiqətən müsbət inkişafı görə bilərik. Əksinə, pandemiyanın ilkin mərhələsində Azərbaycan xalqının İtaliyaya səmimi və güclü şəkildə nümayiş etdirdiyi fəal dəstəyin şahidi olduğumuzu və daha sonra, 44 günlük münaqişə bitdikdən sonra Azərbaycana dəstək məqsədilə İtaliyalı parlamentarilər və xarici işlər nazirinin müavini tərəfindən, ilk xarici nümayəndə heyəti olaraq, azad edilmiş ərazilərə səfəri qeyd etmək istərdim.

Beləliklə, ümumilikdə məlum çətinliklərlə baxmayaraq, münasibətlərimiz daha da güclənməkdədir. Trans-Adriatik Boru Kəmərinin (TAP) istismara başlaması daha sonra dostluğumuzun və əməkdaşlığımızın zirvəsi və gələcək üçün möhkəm bir çərçivə oldu.

*9 Mart 2021-ci il tarixində Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və İtaliya-Azərbaycan Ticarət Palatası, Azərbaycan-Fransa Ticarət və Sənaye Palatası ilə əməkdaşlıqda COWI Belçika tərəfindən həyata keçirilən Aİ-Azərbaycan Biznes Forumu çərçivəsində "Aİ Binzes Mühiti Hesabatı Azərbaycan 2020"nin 5-ci buraxılışı təqdim olundu. Sizcə, İtalyan şirkətlərinin Azərbaycandakı biznes mühiti ilə bağlı ümumi baxışları necədir?*

Builki sorğuda, Aİ ölkələrindən mümkün qədər çox şirkətlərin sorğuda balanslı iştirakını təmin etmək üçün çalışdıq.

Hesabatda italiyan şirkətlərinin iştirakı kifayət qədər əks olundu və Azərbaycana qarşı son dərəcə məhsuldar bir yanaşma və müsbət münasibəti görə bildik.

Həqiqətən də burada işləyən İtalyan şirkətləri yerli gerçəkliyə çox yaxşı inteqrasiya olunmuşdur və işgüzar mühit haqqında səmimi və faydalı bir fikir söyləyərək, üstünlüklərini və ya inkişaf üçün hər hansı bir sahəni konstruktiv şəkildə vurğulaya bildilər.

Hesab edirəm ki, hesabatın ən vacib nəticələrindən biri də odur ki, şirkətlərin 80%-dən çoxu yenidən Azərbaycana investisiya yatırımında maraqlıdır və bu şirkətlərin

əksəriyyəti, həmçinin, gələcək investisiyalar və ölkədə artım proqnozları barədə məlumatlıdırlar.

*– İtaliya Azərbaycanın etibarlı ticarət tərəfdaşlarından biridir. Sizcə, Azərbaycan iqtisadiyyatının hansı sahələri Avropa şirkətləri, xüsusən də İtalyan şirkətləri üçün daha cəlbedicidir?*

Əməkdaşlıq üçün bir çox sahələr vardır, amma ilk növbədə aqrosənaye sahəsini vurğulamaq istərdim. Azərbaycanın bu sahədəki potensialı böyükdür və İtalya təcrübəsinin qabaqcıl kənd təsərrüfatı təcrübələrindən və sertifikatlaşdırmadan, toxum və maşın daxil olmaqla, əlaqəli məhsullardan qablaşdırmaya, sənaye emalına, logistikaya, saxlama texnologiyası və digər məsələlərin inkişafına dəstək ola biləcəyinə inanıram. Xüsusilə, Azərbaycanda birgə istehsal üçün layihələri təşviq edirik.

Dəmiryolları və limanlar da daxil olmaqla, infrastruktur, tikinti, bərpa, şəhər dizaynı və ağıllı şəhərlər yüksək səviyyəli əməkdaşlıq üçün əsas sahələrdir. Həmçinin, yenilənə bilən enerji sahəsini və ətraf mühitin mühafizəsi texnologiyalarını da qeyd edərdim.

Demək olar ki, bütün sektorlarda - İKT və yüksək texnologiyalar, səhiyyə xidmətindən aerokosmik və Təhlükəsizliyə qədər və əlbəttə ki, turizm sahəsində qarşılıqlı əməkdaşlığın möhkəmlənməsini gözləyirik.

*Məlum olduğu kimi, 2-ci Qarabağ müharibəsi nəticəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. 30 illik işğal zamanı bu ərazilərin bütün infrastruktur obyektləri erməni təcavüzkarları tərəfindən məhv edilib. Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış" üzrə iri layihələrə start verilib. İtalyan şirkətlərinin bu mərhələdə rolunu necə görürsünüz?*

İtaliyan şirkətləri işğaldan azad olunmuş ərazilərin yenidən qurulması prosesində iştirak etməyə dəvətinə və bu yaxınlarda ADA Universitetində "Cənubi Qafqaza Yeni Baxış: Münaqişədən sonrakı inkişaf və əməkdaşlıq" mövzusunda keçirilmiş konfransda İtaliya ilə bağlı səsləndirdiyi xoş sözlərə görə cənab Prezident Əliyevə son dərəcə minnətdarıq. Həm İtalyan müəssisələri, həm də dövlət qurumları mina təmizlənməsi, müxtəlif sahələrdə, o cümlədən enerji infrastrukturu, şəhərsalma, tarixi abidələrin bərpası, kənd təsərrüfatı və turizm sahələrində layihələrin həyata keçirilməsi də daxil olmaqla işğaldan azad olunmuş ərazilərin bərpa və inkişaf prosesində hərtərəfli dəstək verməyə hazırdır. Ağdam, Kəlbəcər və Qubadlı bölgələrində enerji infrastrukturunun inşasına dair ilk əməkdaşlıq müqaviləsi 2020-ci ilin dekabrında "Azerenerji" və "Ansaldo Energia" arasında imzalanmışdır, lakin digər italyan şirkətlərinin və ikitərəfli Ticarət Palatamızın üzvlərinin də əməkdaşlıq müqavilələri imzalamalarını və müxtəlif sektorlar üzrə gələcək tenderlərdə iştirak etmələrini gözləyirik.

*– İtaliya-Azərbaycan iqtisadi əlaqələrinin gələcəyi və Palatanın gələcək planları barədə nə deyə bilərsiniz?*

İnanıram ki, münasibətlərimizə diqqət yetirmək və ənənəvi sahələrdən kənar bütün potensial əməkdaşlıq imkanlarını araşdırmaq üçün əla fürsətimiz var. Bu istiqamətdə, işgüzar dairələrin gözləntiləri ilə bağlı İtaliyanın Xarici İşlər Nazirliyi tərəfindən təşkil edilən təqdimat zamanı Zati-aliləri Səfir cənab Claudio Taffurinin 2021-ci ilin mayından başlayaraq Bakıdakı mandatlıq məsələsi vurğulanmışdır. Onun təcrübəsinin və xoşməramlılığının mövcud əla nəticələrin möhkəmləndirilməsinə və yaxın bir neçə ildə bütün sektorlarda daha iddialı əməkdaşlıq hədəflərinə nail olunmasına kömək edəcəyinə inanırıq. Beləliklə, uğur qazanmaq üçün bütün şərtlər mövcuddur: hər iki ölkədə güclü dövlət dəstəyi, qarşılıqlı maraqlar və dostluq, inkişaf və əməkdaşlıq imkanları. Belə desəm, ikitərəfli Ticarət Palatamız vahid bir Azərbaycan-İtalyan iş dünyasının inkişafına tam sadiqdir.

Pandemiya dövründə biz biznes assosiasiyaları və şirkətlər arasında kommersiya əlaqələrinin və mübadilələrin intensiv fəaliyyətini distant şəkildə davam etdirdik, həmçinin beynəlxalq və yerli dövlət təsisatları ilə koordinasiya və ölkənin kənd təsərrüfatı inkişaf siyasəti çərçivəsində bu sektorda əsas azərbaycanlı istehsalçı və operatorlarının müntəzəm görüşlərinin və toplantılarının keçirilməsi, fındıq sənaye təchizat zəncirinə dair Azərbaycan-İtaliya daimi masası kimi bir sıra mühüm təşəbbüsləri qapanmalar zamanı belə əla nəticələrlə reallaşdırdıq. Bu uğurlu format daimi dialoq və kommersiya mübadiləsinin həyata keçirilməsi məqsədilə yaxın zamanda müvafiq daimi İtaliya-Azərbaycan dəyirmi masalarının həyata keçirilməsi energetika və ətraf mühit, aqrosənaye kompleksi, infrastruktur və logistika, bank işi və maliyyə kimi iqtisadiyyatın əsas sahələri üçün təkrarlanır.

Əsas biznes assosiasiyaları və təşkilatları ilə əməkdaşlıq edərək, biz pandemiya şəraiti imkan yaradan kimi, həm Azərbaycan, həm də İtaliya biznes auditoriyaları üçün onlayn B2B görüşlər, seminarlar və təlimlər silsiləsini planlaşdırırıq. Bu barədə daha ətraflı məlumat yaxın zamanlarda elan olunacaqdır. Əsas sosial şəbəkələrimiz, Linkedin, FB və Twitter- i izləyin. Azərbaycan və İtaliya üzvlərindən ibarət İcraedici Şuramızla birlikdə daimi əməkdaşlığa görə ASK-ya minnətdarlığımı bildirmək istərdim və bizim Azərbaycan-İtaliya işgüzar cəmiyyətimizin sıralarında zamanla daha çox Azərbaycan şirkətlərini görməkdən məmnun olardım.

*Elmira Həsənova,*
*Beynəlxalq əlaqələr*
*üzrə aparıcı mütəxəssis*






**Jalə Əmirbəyova**
Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Qusar rayonundakı nümayəndəsi, fərdi sahibkar

# Ailə bizneslərinin qurulması kəndlinin inkişafına təkan verəcək

Şimal bölgəsində insanların əsas məşğulluq sahələri turizm və kənd təsərrüfatıdır. Azərbaycanda tanınmış sahibkarlardan olan Jalə Əmirbəyova da aqrar sektorda çalışır. Fərqli məhsulların istehsalı ilə məşğul olub. "Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası"nda sədr müavini, "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası"nda sədr müavinidir. Jalə Əmirbəyova həmçinin, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Qusar rayonundakı nümayəndəsidir. Onunla söhbət zamanı bölgədə məşğulluq, biznes imkanları, assosiasiyaların faydaları kimi məsələlərə toxunduq.

*– Jalə xanım, Qusar rayonunun iqtisadi vəziyyətini necə qiymətləndirirsiniz? Bölgədə iş adamlarının əsas məşğul olduqları sahələr hansılardır?*

– Qusar rayonu coğrafi mövqeyinə görə Azərbaycanın "Şimal qapısı" adlandırılır. Ərazisi 1542 kv.km-dir. Qusar ölkəmizin mühüm kənd təsərrüfatı rayonlarındandır. Rayonun 81 min 460 hektar kənd təsərrüfatına yararlı torpağının 34 min 403 hektarını, yəni 42,2%-ni əkin yeri təşkil edir.

Qusar rayonunda əsas məşğulluq kənd təsərrüfatı və turizmdir. Şahdağ İstirahət Mərkəzi ilə yanaşı, böyük otellər, istirahət kompleksləri fəaliyyət göstərir, restoranlar və kiçik otellər də var. Müasir marketlər, müxtəlif mağazalar və xidmət müəssisələri fəaliyyət göstərir. Onlar rayon sakinlərinin məşğulluğunda mühüm yer tutur.

Kənd təsərrüfatı sahəsində ənənəvi biznes sahələri olan bağçılıq, tərəvəzçilik , heyvandarlıq və taxılçılıq əhalinin əsas məşğulluq sahələridir. İri təsərrüfatlar əsasən, tanınmış şirkətlərə məxsusdur, müasir sistemlər qurulub və daha çox ixracla məşğul olurlar. Kiçik təsərrüfatların əksəriyyəti daxili bazar üçün məhsul istehsal edirlər.

Rayonda yüksək keyfiyyətli meyvə, tərəvəz, həmçinin heyvandarlıq məhsullarının istehsalı üçün təbii iqlim şəraiti və kifayət qədər işçi qüvvəsi vardır. Rayon əhalisinin 79%-i, yəni 63,2 min nə-

fəri kəndlərdə yaşayır. Hazırda rayonda olan meyvə bağlarının ümumi sahəsi 5 min hektardan çoxdur. Bunun 83%-i məhz bar verən bağlardır. Meyvə bağlarının 68%-i alma bağlarının payına düşür.

Sahibkarların təşəbbüsü ilə müasir iş yerləri yaradılır, rayonun Çubuqlu kəndi ərazisində 4 min tonluq, Samur qəsəbə nümayəndiliyi ərazisində 800 tonluq, Yeni Həyat kəndində 2 min tonluq meyvə saxlamaq üçün soyuducu anbarlar tikilib. Həmin saxlama kameralarının tikintisi imkan verir ki, kiçik sahibkarlar onların xidmətindən istifadə edə bilsinlər. Soyuducular bazarda il boyu meyvə və tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsini təmin edir, əlavə iş yerlərinin açılmasına təkan verir.

*– Yeri gəlmişkən, həmin bağlarda, əkin sahələrində, istirahət mərkəzlərində çalışan mütəxəssisləri tapmaq nə dərəcədə əlçatandır? Bu gün Qusarda gənclərin məşğulluğunun təmin olunmasında hansı çətinliklər mövcuddur?*

– Bu gün çox adam iş yerlərinin olmamasından narazıdır. Digər tərəfdən, əksər sahibkarlar bilikli işçi tapa bilmirlər. Hazırda Azərbaycanda tikinti, turizm, kənd təsərrüfatı, cürbəcür xidmət sahələri inkişaf edir. Artıq həmin sektorlarda müasir tələblərə uyğun heç bir təhsili, muasir peşə bilikləri olmayan insanların işləməsi çətinləşir. Çünki həmin sahə üzrə ən azı ilkin bilikləri olmalıdır. Rayon, kənd yerlərində insanlar ixtisas seçimində yanlışlığa yol verirlər. Burada valideynlərin də mənfi rolu danılmazdır. Hamı uşağını nüfuzlu peşələrə yönəldir, uşagın marağını nəzərə almırlar, rayonda olan peşə tələblərini araşdırmırlar, öz ambisiyalarına görə qərar verirlər. Nəticədə gənclər təhsillərini başa vurduqdan sonra ya həmin ixtisasda işləmək istəmirlər, ya da iş tapa bilmirlər. Əgər insan öz peşəsini sevmirsə, peşəkar yüksəlişə nail ola bilməyəcək, deməli tələbolunan bir mütəxəssisə çevrilməyəcək. Valideyn düşünür ki, mən kənddə əziyyət çəkirəm, qoy övladım gedib şəhərdə rahat yaşasın. Ancaq əlində olan torpaqdan müasir üsullarla istifadə etmək və onu övladına da öyrətmək, yaxşı bir biznes yaradıb onu miras ötürmək barədə fikirləşmir. Kənd təsərrüfatı, turizm, aqronom, texnoloq, zootexnoloq, mühəndislik, baytarlıq, aqrar iqtisadiyyatçılara eləcə də peşəkar ofisiant, inzibatçı, aşbaz, bələdçi və s. sahələrində peşəkarlara daha çox ehtiyacımız var.

Gəncədə Aqrar Universitet fəaliyyət göstərir. Lakin məsafənin uzaq olması, təhsil xərclərinin kəndlilərin gəlirlərinə uyğun olmaması səbəbindən Qusardan və ümumuyyətlə bizim şimal zonamızdan, demək olar ki, heç kim gedib orada təhsil ala bilmir. Mən şimal regionunda həmin Universitetin bir filialının yaradılmasını təklif etmişəm. Kənd təsərrüfatı və turizm sahələrində peşə ixtisasları üzrə kadr hazırlayan müasir peşə məktəbinə də böyük ehtiyacımız var. Bu gənclərin təhsilə, peşəyə əlçatanlığı və biznes strukturlarının ixtisaslı kardlarla təmin olunmasına şərait yaradacaq.

*– Peşəkar işçiləri tapmaqdan əlavə, Qusarda sahibkarlar başqa nələrdən çətinlik çəkirlər?*

– Əlbəttə, bütün dünyada olduğu kimi, biz də pandemiya və karantin rejimindən əziyyət çəkirik. Xüsusən, turizm sektoruna ziyan dəyib. Rayon sakinləri üçün çox vacib məsələlərdən biri kredit almaq üçün tələb olunan bank girovları ilə bağlıdır. Hazırda banklar və müvafiq strukturlar kiçik sahibkarlıq və özünüməşğulluq üçün nəzərdə tutulan kiçik həcmli kreditlərin verilməsi şərtlərini yumşaltmağın mümkün variantları üzərində düşünürlər.

*– Ailə biznesi kimi kənd turizminin potensialını necə görürsünüz?*

– Qusarda turizmin inkişaf etdirilməsi cox perspektivlidir. Rayonda mövcud olan istirahət zonaları ilə yanaşı, kənd turizmini də inkişaf etdirmək olar. Bizim rayonun cox gözəl və zəngin təbiəti var. Bunun üçün öncə infrastruktur qurulmalıdır və bu sahədə uğurlu işlər görülür. İndi rayonun demək olar ki, bütün yaşayış məntəqələrinə, ucqar dağ kəndlərinə müasir standartlara cavab verən yollar çəkilir. Bu, turistlərin rahatlığını təmin etmək, kəndlərdə aktiv istirahətlərinə şərait yaratmaq baxımından çox əhəmiyyətlidir. Yeni infrastruktur kənd turizminin inkişafına da böyük təkandır. Məsələn, öz evindən bir otaq ayırıb turist üçün şərait qurur. İnsanlar gəlib həm orada dincəlirlər, həm də həyətdə olan çörəyindən, yumurtadan, hazırladığı pendirindən, südündən alırlar. Əgər yaxşı xalça toxuyubsa, onu da həmin turistlərə sata bilər, gözəl, mənzərəli yerlərə bələbçilik edə bilərlər. Bütün bunlar həmin evə, kəndə yeni müştərilərin cəlb olunmasına da təkan verəcək. İşə səbrlə yanaşmaq, tez qazanc əldə etməklə keyfiyyəti itirərək, tələsməmək lazımdır. Eləcə də aqrar sektorda ailə bizneslərinin qurulması aktualdır. Hazırda Avropada 100-150 illik ənənəsi olan fermer təsərrüfatları, kiçik, orta biznes subyektləri mövcuddur. Biri çaxır istehsal edir, digəri pendir, yaxud heyvandarlıqla, toxumçuluqla məşğul olur. Onlar nəsildən-nəslə ötürülən ailə biznesidir və belə ailələrdə böyüyən gənclər də artıq ailəsinin biznesinin davamçıları olurlar, o sahədə təhsillərin artırır, müasir biliklərə yiyələnərək ailə biznesini inkişaf etdirirlər. Biz də bu cür, nəsildən-nəslə keçən təsərrüfatlar qura bilərik.

Hazırda dövlət tərəfindən kiçik sahibkarlar üçün çox böyük imkanlar yaradılıb. KOB Dostu, ABAD kimi qurumların ofisləri yaxşı biznes ideyalarıa dəstək verməyə hazırdır. İndiki şərtlərlə sahibkarlıqla məşğul olmaq daha asandır. Çünki onlara dəstək olan, məslə-

hət verən qurumlar mövcuddur. Qeyd edim ki, ilk növbədə istənilən biznesə başlamazdan əvvəl dəqiq plana malik olmalısan: nə istehsal edəcəksən və onu necə realizə edəcəksən. Yaxşı olardı ki, bu plan uzunmüddətli olsun. Azərbaycan Sahibkarlar Konfederasiyasının yerli bölmələri də iş görmək istəyən şəxslərə daim açıqdır.

*– Jalə xanım, hökumətin kənd yerləri üçün prioritetlərindən biri də kooperativlərin yaradılmasıdır. Bu sahədə Qusarda vəziyyət necədir?*

– Müşahidələr göstərir ki, Azərbaycanda kiçik torpaq sahibləri kooperativdə birləşməyə tam hazır deyil. Torpaqların əksəriyyəti yaşlı nəslin əlindədir. Onlar isə birgə təsərrüfat yaratmaq üçün müəyyən məsuliyyətlərə şərik olmaqdan çəkinirlər. Avropa, Türkiyə təcrübəsi göstərir ki, xırda fermerlərin bazarın güclü rəqabət şərtlərinə dözümü zəifdir, ona görə də onlar kooperativlərdə birləşirlər. Mən inanıram ki, gələcəkdə Azərbaycanda da kiçik kənd təsərrüfatları kooperativlərdə birləşəcəklər, çunki bu çox effektivdir. Fərdi sahibkarın menecer, mühasib, inzibatçı, logistik, aqronom, texnoloq, mühəndis və s. kimi ixtisas sahiblərini işə götürmək imkanları məhduddur. Lakin kooperativdə belə imkanlar yaranır və istehsalın, satışın təşkili, inkişafı daha səmərəli olur. Ona görə də hesab edirəm ki, Qusarda və digər bölgələrdə də kiçik torpaq sahiblərinin kooperativlərdə birləşməsi onların bizneslərinə uğur gətirə bilər və müasir bacarıqlara sahib olan gənclər üçün iş yerləri yaradar.

*– Bilirik ki, aqrar sektorda sahibkarlıq fəaliyyəti göstərirsiniz. Bu mövsümdə nə əkib-becərirsiz və damcı üsulu ilə suvarmadan istifadə edirsinizmi?*

– Mənim böyük torpaq sahəm var Qusar rayonunda və hələlik taxıl əkirəm. Taxıl sahəsi dəmyə torpaqlar olduğu üçün oranın suvarılmasında damcı üsuluna ehtiyac



qalmır. Ötən il 300 hektarda heç məhsul yetişmədi, çünki quraqlıq oldu. Amma onu da başa düşürəm ki, müasir suvarma sistemlərini tətbiq etmək lazımdır, təbiətə arxalanmaq olmaz. Hazırda toxumçuyam, buğda toxumu yetişdirib satırıq. Qarşıdakı illərdə isə orqanik tərəvəz yetişdirmək istəyirəm. Bundan əlavə, 10 hektar fındıq bağımız vardır, orada damcı üsulundan istifadə edirik. İtkilərimiz də olur, uğurlarımız da var. Əvvəllər kənd məhsullarının sığortası yox idi, indi şükurlər olsun var və bundan istifadə etmək lazımdır.

Biz məhsulumuzu daxili bazarda satırıq. İlbəil məhsuldarlıq artır. Məhsuldarlıq yüksək olanda biznes daha çox gəlir gətirir. İndi bütün dünya da məhz məhsuldarlığın üzərində işləyir. Amma rayonda, torpaq sahibləri eyni səhvlərə yol verirlər. Sahibkar becərdiyi məhsulu satmaq üçün bazarı araşdırmalıdır, alıcısını tapmalıdır. Əgər sənin alıcın yoxdursa, niyə nəsə əkib-becərirsən və sonra da gileylənirsən ki, sata bilmirəm? Bu sərfəli deyil. Ona görə də gəlir əldə etmək üçün bazarın tələbatına uyğun məhsul istehsal etmək lazımdır.

*– Bütün dünyada ekoloji sağlam məhsullara üstünlük verilir. Məhsuldarlığın artırılması ərzaq təhlükəsizliyini də önə çıxarır. Bu zaman məhsulun keyfiyyəti zərər görmür?*

– Dünya əhalisinin sayı artır və onların qidaya tələbatı yüksəlir. Əlbəttə, öz bağında becərilən pomidor böyük sahələri əhatə edən təsərrüfatlarda yetişdirilən pomidordan fərqlənəcək. Ancaq düzgün texnoloji qaydalara riayət etməklə daha keyfiyyətli və faydalı məhsul yetişdirmək olar. Sovet vaxtı biz pomidoru ancaq mövsümündə istifadə edə bilirdik. Onu alıb ən çoxu 3 gün soyuducuda saxlamaq mümkün idi, tez xarab olurdu. Amma indi istənilən vaxt bazarda pomidor, hər bir tərəvəz və meyvə növünü tapmaq mümkündür. Bu o demək deyil ki, onların geni dəyişdirilib və ya o zərərlidir. Müasir istixanalar qurulub, pomidorun və digər tərəvəzlərin məhsuldarlığı artırılıb və yeni sortlar seleksiya olunub. Nəzərə almaq lazımdır ki, meyvə və tərəvəzlərin uzaq məsafələrə ixracı zamanı onların uzun vaxt saxlanılması tələb olunur. Ölkəmizdə istehsal olunan məhsulların təhlükəsizliyinə Qida Təhlükəsizliyi Agentliyi

tərəfindən çox ciddi nəzarət edilir. Əsas ixracımız Rusiyayadır, amma biz başqa şərq və qərb ölkələrinə də ixracımızı artırırıq. İstehsal və ixrac etdiyimiz məhsullar dünya bazarında öz keyfiyyətilə fərqlənir. Hökumətimiz də bu məsələlərdə ixracatçılara dəstək verir. AZPROMO yeni bazarlara çıxmaq üçün sahibkarların beynəlxalq sərgilərdə iştirakına kömək edir. Sahibkar assosiasiyalarının yaradılması da onların işinə böyük dəstəkdir.

*– Yeri gəlmişkən, biznes təşkilatları, assosiasiyalar sahibkarlara hansı formada dəstək verə bilirlər?*

– Müasir iqtisadiyyatda biznes sahələri üzrə assosiasiyaların əhəmiyyəti çox böyükdür. Kənd təsərrüfatı sahəsində bizim xeyli sayda biznes təşkilatlarımız fəaliyyət göstərir. "Azərbaycan Meyvə-Tərəvəz İstehsalçıları və İxracatçıları Assosiasiyası"na ilk daxil olan üzvlər iri müəssisələrin sahibləri oldu. Onlar artıq bu təşkilatların əhəmiyyətini bilirdilər. Assosiasiyalar üzvləri üçün həm maarifləndirici bir qurumdur, həm də işlərinə dəstək verir. Assosiasiya sahibkarların qarşılaşdıqları çətinlikləri, problemləri, təklifləri müzakirə edib, birbaşa dövlətin müvafiq strukturlarına müraciət edir, problemlərin, təkliflərin həll yollarını tapır. Hazırda dövlətimiz assosiasiyalara, onların müraciətlərinə çox diqqətlə yanaşır, qaldırılan məsələlər, problemlər mümkün qədər həll olunur. Bu halda eyni sektorda çalışan, amma assosiasiyanın üzvü olmayan bütün sahibkarların eyni problemləri öz həllini tapır. Azərbaycan Sahibkarlar Konfederasiyasının hər bir sahədə calışan sahibkarlara cox böyük dəstəyi və köməyini hiss edirik.

*– Yayda Qubada olanda bağda meyvələrin elə ağacdaca qurdlayıb qaldığının şahidi oldum. Səbəbini soruşanda bağ sahibi bildirdi ki, burada onu 5-10 qəpiyə götürürlər, heç əziyyətimizə dəymir. Ancaq həmin məhsullar şəhərdə 2-3 manata satılır. Doğrudanmı həmin adamların məhsulunu şəhərə gətirib satması çətindir?*

– Bağlarda çürüyən meyvələri görəndə mənim də ürəyim ağrıyır. Elə həmin məhsulu şəhərə gətirib realizə etmək üçün kooperativlər lazımdır. Bax, bu məqam torpaq sahiblərini birləşməyə məcbur edəcək. Tutaq ki, bir ailənin maşını, ikincisinin meyvə bağı, üçüncüsünün yaxşı əl qabiliyyəti var. Onlar birləşib, kooperativ yaradaraq məhsulun bir hissəsini bazara çıxarda, qalan hissəsini müxtəlif formada emal edib yenidən satışa yönəldə bilərlər. Yəni, bağın sahibi tək bacara bilməz, amma birlikdə daha çox uğur qazanmaq mümkündür. Şəhərdə kiçik topdansatış bazarlarının açılması isə həm əhaliyə yaxınlığı, həm də qiymətlərin iri topdansatış mərkəzlərindən bir az baha olması ilə fərqlənir. Belə bazarlar camaata daha sərfəlidir və fermer əziyyətinin bəhrəsini görə bilir.

*– Ölkəmizdə qadın sahibkarlığının inkişafına xüsusi diqqət göstərilir. İş adamlarının qadın və kişi sahibkar kimi bölgüsünə necə baxırsınız?*

– Mən düşünürəm ki, sahibkarlıqda kişi, ya qadın bölgüsü olmamalıdır. Biz bütün sahələrdə kişilərlə eyni hüquqlara sahib olmuşuq. Eyni təhsili alırıqsa, eyni işi də görə bilərik. Azərbaycan qadınları şərqlə qərbin xüsusiyyətlərini çox gözəl əks edərək uğurlu miks yaradıblar. Onlar həm qərb qadınları kimi təhsilli, müasir bilikli, bacarıqlı, ötkəmdir. Eyni zamanda şərqin mədəniyyətinə xas olan tərbiyəni, əxlaqı, ailə münasibətlərini, evdarlığı davam etdirməyi bacarırlar. İşləyən qadın həm ailəsinə, evinə, həm də karyerası, biznesi üçün lazım olan işlərə vaxt tapır. Əgər bu yolda qadını ailəsi dəstəkləyirsə, o böyük uğurlara nail olacaq. Yox əgər ailəsi dəstəkləmirsə belə, yenə də o uğur qazanacaq, lakin buna böyük güc və enerji sərf edəcək. Mənim fikrimcə, qadınların çoxunun biznesdə bir üstün cəhəti var ki, ona önəm vermək lazımdır. Onlar çox qənaətcildirlər. Öz evini necə az gəlirlə normal idarə edə bilirlərsə, biznesdə də onu tətbiq edirlər. Kiçik maliyyə vəsaitləri ilə biznesə başlayıb onu inkişaf etdirə bilirlər. Həm də öz işlərinə övladları kimi qayğı göstərirlər. Ona görə də qadınların biznesi çox vaxt uğurlu, uzunmüddətli olur. Qadınların biznes qurması və özünüməşğulluq sahəsində uğurlarına təkan vermək üçün "Azərbaycanda Qadın Sahibkarlığının İnkişafı Assosiasiyası"nın da böyük rolu var.

*– Azərbaycanın gənc sahibkarlarına nə tövsiyə edərdiniz? İnkişaf etmək üçün ilk növbədə nəyi öyrənsinlər? Bizə nə lazımdır?*

– İstənilən halda, ilk addım arzudan və onu həyata keçirmək üçün səylərdən başlayır. O arzunu hərtərəfli düşünürsüz, kənardan baxırsız, oxşayırsız, sığallayırsız. Onu tam formalaşdırdıqdan sonra inkişafını fikirləşməyə başlayırsız. İşə başlamaq yalnız pula bağlı deyil. İmkanlara da baxmaq lazımdır. Bu işdə kim sizə köməkçi olacaq, hansı bilikləriniz var və hansı bilikləri əldə etməlisiniz, əldə etdiyiniz məhsulu necə, harada satacaqsınız? Bazarı araşdırmaq lazımdır. Məsələn: əgər sizin kənddə 5 nəfər çörək bişirirsə, artıq bu işə ehtiyac qalmır, başqa bir biznes sahəsini fikirləşmək lazımdır. Çünki həm o adamların bazarını "öldürürsünüz", həm də özünüz bir pul qazanmırsınız. Buna mütləq fikir vermək lazımdır. Elə bizneslər var ki, çox dar çərçivədədir, amma bütün dünyada ona tələbat var. Ən vacibi, nə işlə məşğul olursan ol, amma onu keyfiyyətlə gör! Sahibkarlığı seçən gənclərə sevdiyi işlərlə məşğul olmağı, öz işinin fanatı olmağı, daim təkmilləşməyi tövsiyə edərəm.

*– Çox sağ olun, təşəkkür edirəm.*





**Şahin Məmmədov,**
ASK-nın Quba rayon nümayəndəsi

# Quba alması artıq çipsi olub: Rayonda hansı biznes imkanları var?

Böyük potensiala malik rayonlarımızdan biri də Qubadır. Turizm və aqrar rayonu kimi tanınan Qubada hazırda emalın dərinləşdirilməsi və yeni müəssisələrin açılması üçün işlər görülür.
Müsahibimiz ASK-nın Quba rayon nümayəndəsi Şahin Məmmədovdur.

*– Şahin müəllim, Quba rayonu aqrar sektorun inkişafı və turizm sənayesində əldə etdiyi uğurlara görə məşhurdur. Rayonda daha hansı biznes sahələri geniş yayılıb, əhalinin məşğulluğunda hansı sahələr öndədir?*

– Respublikamız öz müstəqilliyini qazandıqdan sonra Qubanın inkişafı sürətləndi. Bağlar diyarı olan Quba, kənd təsərrüfatı rayonu olduğundan iqtisadiyyatının əsas hissəsini bağçılıq, əkinçilik və maldarlıq təşkil edir. Fərəhlə qeyd etmək lazımdır ki, ümummilli liderimiz cənab Heydər Əliyev 1970-ci illərdə respublikamızda rəhbərlik etdiyi dövrdə meyvəçiliyin inkişafı ilə əlaqədar iki mühüm qərar qəbul etmişdir. Həmin qərarların icrası nəticəsində Qubada 1975-1982-ci illərdə 15 min hektardan çox intensiv bağ salınmışdır. Məhz bu günkü gündə, o qayğının nəticəsidir ki, Quba rayonunda aqrar bölmənin aparıcı sahəsi olan meyvəçilik yüksək sürətlə inkişaf etmiş və əhalinin vəziyyətinin daha da yaxşılaşmasına səbəb olmuşdur. Hazırda Quba rayonunun ərazisində 18 min 276,3 ha bağ sahəsi mövcuddur. Həmin bağların 13 min 571,6 hektarını alma bağları təşkil edir. Fermerlər yeni intensiv bağlar salaraq yüksək məhsul əldə edirlər. Həmin bağlardan bu ilin ötən dövrü ərzində 3629 ton məhsul toplanmışdır. Ümumulikdə il ərzində rayonda 123 min tondan çox meyvə istehsal olunur. Istehsal olunan məhsul əsasən Rusiya Federasiyasına ixrac olunur, qalan hissəsi isə daxili bazarlarda satılır.

Ulu öndərimizin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin respublikamızda iqtisadiyyatın in-

kişafının yeni mərhələləri və qeyri-neft sektorunun inkişaf etdirilməsi ilə bağlı verdiyi tapşırıq və tövsiyələri, fərman və sərəncamları, qəbul olunan dövlət proqramları və onların uğurla icra olunması kənd təsərrüfatı məhsullarının istehsalının artmasında böyük rol oynayır.

Quba rayonda heyvandarlıq sahəsi əsasən dağlıq ərazidə geniş inkişaf etmişdir. Fermerlər təsərrüfatlarında yüksək məhsuldar cinslərdən olan heyvanlardan saxlayaraq heyvandarlıq məhsulları istehsal edirlər. Bu ilin müvafiq dövrünə olan statistik məlumata görə rayonun heyvandarlıq təsərrüfatlarında iri buynuzlu mal-qaranın sayı 60244 baş və xırdabuynuzlu heyvanların sayı 253332 baş olmuşdur. Rayonda bu ilin ikinci rübündə 37633 sentner ət, 226349 sentner süd, 8104 min ədəd yumurta və 3925 sentner yun istehsal olunmuşdur.

*– Rayonda emal sənayesinin inkişafı ilə bağlı hansı tədbirlər görülüb?*

– Quba rayonunda emal müəssisələrinin yaradılması istiqamətində müəyyən işlər görülüb. Bu barədə sahibkarlarla vaxtaşırı maarifləndirici söhbətlər aparılıb, kiçik emal müəssisələrinin yaradılması ilə əlaqədar təkliflər verilib və onlar layihələrlə tanış edilirlər. Yetişdirilən məhsullar, əsasən, rayonda fəaliyyət göstərən "Gilan Quba konservi" zavoduna və "Ekoaqrar" meyvə emalı zavoduna təhvil verilir. Hazırda Quba şəhərində süd emalı müəssisəsinin tikintisi davam etdirilir. Müəssisə fəaliyyətə başladıqdan sonra rayonda südlük maldarlığın inkişaf etdirilməsinə təkan olacaqdır. Quba rayonunun coğrafi şəraiti, füsünkar gözəlliyi burada turizmin inkişaf etdirilməsinə böyük imkan yaradır. Rayonda turistləri cəlb edə biləcək təbii şərait və infrastruktur mövcuddur. Sahibkarlar bu sahəyə daha çox maraq göstərdikləri üçün rayonda turizm inkişaf etməkdədir. Belə ki, ilbəil yeni otellər, turizm mərkəzləri, istirahət zonaları yaradılır və turistlərə xidmətin səviyyəsi artırılır. Ötən il ərzində rayonumuzda sahibkarlığın inkişaf etdirilməsi istiqamətində bir sıra işlər görülmüşdür.

> *Hazırda Quba rayonunun ərazisində 18 min 276,3 ha bağ sahəsi mövcuddur. Həmin bağların 13 min 571,6 hektarını alma bağları təşkil edir.*

Məhz bunun nəticəsində rayona 44,8 milyon manat özəl investisiya qoyulub. Hazırda rayonumuzda sahibkarlıq fəaliyyətinin inkişaf etdirilməsi üçün hər cür şərait yaradılıb. Sahibkarlığın inkişaf etdirilməsi sahəsində həyata keçirilən bütün layihələr dövlət tərəfindən dəstəklənir. Bununla əlaqədar onu qeyd etmək olar ki, Quba rayonunda İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondu tərəfindən 72 layihəyə 6 milyon 629 min manat vəsait ayrılmışdır və nəticədə 186 yeni iş yerinin açılması üçün imkan yaradılmışdır.

*– Şahin müəllim, iri bir emal müəssisəsinə rəhbərlik edirsiniz və ixracatla məşğulsunuz. Maraqlıdır, nə qədər məhsul istehsal edirsiniz və onun neçə faizi xaricə ixrac olunur?*

– "QubaEkoAqrar" MMC-yə məxsus kənd təsərrüfatı mallarının istehsalı zavodunda illik 120 ton məhsul istehsal olunur və onun 90% xaricə ixrac edilir. Məhsullarımızın Rusiya, Ukrayna, İsrail, Kanada, Almaniya kimi dövlətlərdə müştəriləri var və bir sıra digər xarici dövlətlərlə də bu istiqamətdə danışıqlar aparılır. Müəssisəmizin 11 oktyabr 2018-ci ildə açılışı olub. Çox şadıq ki, cənab Prezidentimiz İlham Əliyev və Birinci Vitse-Prezident Mehriban xanım Əliyeva bu açılışda iştirak ediblər. Hal-hazırda müəssisəmizdə 50 çeşiddə məhsul istehsal olunaraq xarici ölkələrə ixrac edilir. Emal sistemi tam avtomatlaşdırılıb, eyni zamanda 45-dən çox işçi burada işlə təmin olunub. Müəssisəmiz sutkada 4 ton fındıq, 2 ton quru meyvə və 21 ton meyvə-tərəvəz emalı gücünə malikdir. Müəssisədə meyvələrin qurudulması, fındığın qovrulması və qablaşdırılması, alma çipsi,





mürəbbə və kompotların istehsalı xətləri quraşdırılıb. Zavodumuzda əhalidən tədarük edilmiş meyvələr ilk növbədə, çeşidlənir, yuyulur, içlikdən təmizlənir, dilimlənir və xüsusi qaydada qablaşdırılaraq qurudulması üçün isti küləkli sobaya yerləşdirilir. Sobada hər bir meyvə növünün xüsusiyyətləri nəzərə alınaraq onlar üçün proqramlaşdırılmış xüsusi rejimdə qurutma prosesi həyata keçirilir.

*– İxrac istiqamətdə hansı yeniliklər var? Quba almasından hazırlanan məhsullar hansı ölkələri fəth edib?*

– Müəssisəmizdə tələbata uyğun olaraq əsasən alma, armud, gavalı, ərik, üzüm və alça quruları, mürəbbə və kampotlar, həmçinin alma çipsi istehsal olunaraq müxtəlif çəkilərdə paketlənir. Meyvə quruları, mürəbbə və kompotlar sənaye üsulu ilə istehsal olunduğu üçün dadına, əmtəə görünüşünə və yüksək səviyyədə qablaşdırılmasına görə fərqlənir. Fındığın emalı xəttində isə məhsul ilkin olaraq qurudulur, qabıqdan təmizlənir, çeşidlənir və sonra sobada xüsusi rejimdə qovrulur. Qovrulmuş fındığın soyudulduqdan sonra müxtəlif çəkilərdə paketlənməsi həyata keçirilir. İstehsal olunan məhsulların daxili bazarla yanaşı, "Made in Azerbaijan" brendi adı altında xarici bazarlara, xüsusilə Rusiya və Ərəb ölkələrinə ixracı nəzərdə tutulur. Zavodun xammala olan tələbatı Quba və ətraf rayonlardan tədarük edilən məhsullar hesabına ödənilir. Bu isə kiçik ailə təsərrüfatlarının inkişafına müsbət təsir göstərir və regionda yeni meyvə bağlarının salınmasına stimul yaradır. Eyni zamanda, yetişdirilən meyvələr emal olunaraq xarici bazarlara çıxarılır ki, bu da regionun ixrac potensialının artırılmasına səbəb olur. Emal müəssisəmizin yaradılması dünyanın qabaqcıl texnologiya və təcrübələrinin tətbiqinə, kənd təsərrüfatında ixracyönümlü və rəqabətqabiliyyətli məhsul istehsalına, yeni meyvə bağlarının salınmasına, eləcə də ixracın həcminin çoxalmasına və coğrafiyasının genişləndirilməsinə nail olunması ilə yanaşı, məşğulluğun artırılmasına da imkan yaradır.

Bir sahibkar olaraq ölkədə qeyri-neft iqtisadityyatının inkişafına az da olsa töhvə verə bilməyimizdən qürur hissi duyur, bundan sonra da Prezident cənab İlham Əliyevin göstəriş və tövsiyyələrinin yerinə yetirilməsi üçün bütün imkanlarımızı səfərbər edəcəyik.

> *Bu ilin müvafiq dövrünə olan statistik məlumata görə, rayonun heyvandarlıq təsərrüfatlarında iri buynuzlu mal-qaranın sayı 60244 baş və xırdabuynuzlu heyvanların sayı 253332 baş olmuşdur. Rayonda bu ilin ikinci rübündə 37633 sentner ət, 226349 sentner süd, 8104 min ədəd yumurta və 3925 sentner yun istehsal olunmuşdur.*




# Yeni yaranan və aktual olmayan peşələr

Müasir dünya çox sürətlə dəyişir. Yeni texnologiyaların inkişafı, qlobal kompüterləşmə, tibbi kəşflər və s. nəticəsində bir çox peşələrin tədricən sıradan çıxmasının şahidi oluruq. Nəticədə əmək bazarında “lazım olmayan” kadrların sayı artır, iqtisadiyyatın tələb etdiyi mütəxəssislər isə tapılmır.

Bu vəziyyətdə sahibkar peşəkar kadrları xaricdən dəvət etmək məcburiyyətində qalır. Sonda isə məhsulun maya dəyəri qalxır, rəqabət çətinləşir. Buna görə də əmək bazarında ehtiyac duyulan yeni peşələr üzrə kadr hazırlığı hər bir ölkənin sosial-iqtisadi siyasətinin aparıcı istiqamətinə çevrilir.

Bu istiqamətdə Almaniya İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyi (BMZ) tərəfindən Almaniya İqtisadi İnkişaf Fondu (SEQUA GmbH) və Bildungswerk der Wirtschaft gGmbH vasitəsilə maliyələşdirilən, və Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası tərəfindən 3 il müddətində icra olunması nəzərdə tutulan “Cənubi Qafqazda Peşə təhsilinə dəstək” layihəsi çərçivəsində ölkəmiz üçün “Gələcək Peşələr Atlası” yaradılıb.

## Biznesin kadr çətinliyi

Mütəxəssislərin qənaətinə görə, yaxın gələcəkdə biznes iki böyük problemlə üzləşəcək. Birincisi, “yeni keyfiyyət”lərə malik insanların cəlb edilməsinə ehtiyac olacaq. O insanlar ki, yeni texnologiyalarla işləməyi və yeniliklər yaratmağı bacarırlar. Boston Konsaltinq Qrupun “Rusiya 2025: kadrlardan istedadlara” hesabatına görə, işəgötürənlərə 2025-ci ilədək ən azı 4,5 milyon bu cür insan lazım olacaq. Haqlı olaraq sual yaranır: belə insanları haradan tapmaq olar? Əlbəttə ki, burada biznes və təhsil sisteminin iş birliyi tələb olunacaq.

İkincisi, təqaüdə çıxmış insanlar barədə düşünmək lazım gələcək. Həmin araşdırmanın nəticələrinə görə, 2025-ci ilə qədər 9 milyondan çox insanın işsiz qala biləcəyi təxmin edilir.

Dünyada artıq yeni keyfiyyətlərə malik insanların yaradılması üçün beyin mərkəzləri, ictimai təşkilatlar ciddi çalışmalara başlayıblar.

### Peşə yönümünə yeni yanaşma niyə bu qədər vacibdir?

Uzun müddət ümumi təhsil dövrü 10-11 il olub. Əlavə dörd-altı il xüsusi və ya ali təhsilə sərf edilib, yəni, təxminən 15 ildən sonra insan iş həyatına atılırdı. Yarım əsr əvvəl ölkədə sosial və iqtisadi inkişafın reallıqları bu müddət üçün kadr ehtiyacını proqnozlaşdırmağa imkan verirdi, yəni, dövlət planlaşdırılması sayəsində 15 il və daha uzun müddət üçün kadrlara olan ehtiyacı əvvəlcədən müəyyənləşdirmək mümkün idi. Buna görə, təhsil sistemi əsas funksiyasını uğurla yerinə yetirirdi: insanları hazırlayır və məzunlar da asanlıqla iş tapırdılar (ilk növbədə paylama sistemi sayəsində).

Bu gün isə dəyişikliklərin sürəti və qeyri-müəyyənlik o qədər artıb ki, çox az müəssisə gələcəkdə hansı mütəxəssislərə ehtiyac duyduqlarını proqnozlaşdıra bilir.

Dar profilli mütəxəssislərin tədricən sıradan çıxdığını görürük. Texnologiyalar çox tez dəyişir, artıq bir neçə sənaye sahəsini eyni zamanda bilən, bilik və texnoloji həlləri bir sənayedən digərinə ötürməyi bacaran insanlar tələb olunur. Məsələn, əvvəlcə sürətli prototipləmə üçün hazırlanan 3D çapı sonradan peşəkarlar tərəfindən digər sahələrə - binalar, dərman vasitələri, insan orqanlarının və qidaların çapı sahələrinə ötürüldü.

Bugünkü məktəblilər beş-yeddi ildən sonra iqtisadiyyata daxil olacaqlar. Bu müddət ərzində dünya əhəmiyyətli dərəcədə dəyişəcək. Bugünki reallığa əsaslanıb peşə seçən, məsələn, menecer, hüquqşünas, iqtisadçı, PR mütəxəssisi olub uğur qazanacağını düşünən gənc gələcəkdə səhv etdiyini anlayıb məyus ola bilər.

### Gələcək peşələrin atlası ideyası

İnkişaf planları yalnız o zaman uğurlu olur ki, onları həyata keçirə biləcək mütəxəssislər yetişmiş olsun. Bunun üçün dövlətlər "Gələcək Peşələrin Atlası"nın hazırlanması üzərində ciddi işlər aparırlar. Bir sözlə, "Gələcək Peşələrin Atlası" gələcək haqqında bir açıqlama funksiyası daşıyır, bu gələcəyi isə dəyişikliklərin liderləri - inkişaf institutları, qabaqcıl texnoloji şirkətlər və universitetlər birlikdə quracaqlar.

İqtisadiyyatın 27 sahəsini əhatə edən atlas yuxarı sinif şagirdləri üçün nəzərdə tutulub və burada yaxın gələcəkdə aktual peşələr barədə məlumatlar toplanıb.

Peşə təhsili sahəsində ekspert Sədaqət Qəmbərova hesab edir ki, əslində qeyri-müəyyənliyin hökm sürdüyü bir dünyada bu, xüsusilə, vacibdir. Çünki insanlar gələcəyi daha yaxşı görür və hiss edirlər. Təbii ki, Atlasda proqnozlaşdırılan peşələrin tam dəqiq şəkildə gerçəkləşməsi ehtimalı azdır. Və əslində bu yaxşıdır. Gələcəyi birgə planlaşdıran valideynlərin və uşaqların vəzifəsi doğru peşəni təxmin etmək deyil, dəqiq proqnoz vermək üçün gələcəyin çox dəyişkən olduğunu başa düşməkdir. Qeyri-müəyyənliyə hazır olmaq çətin bir işdir. Bunun üçün təkcə bilik və bacarıqlar kifayət deyil, həm də stresə qarşı müqavimət göstərə bilmək, müsbət qavrayış, cəld reaksiya vermək və riskə getmək bacarığı lazımdır. Əslində, istənilən bir peşə çərçivəsində "daxili sahibkar" yetişdirmək ehtiyacı var.

Yüksək sürət və gərginlik dünyasında gələcək peşəni seçərkən indi populyar olan peşələrə diqqət yetirmək risklidir. 5-10 ildən sonra bugünki gənclər işə başlayanda dünya çox fərqli olacaq. 2000-ci illərin əvvəllərində informasiya texnologiyaları sahəsində müəyyən ixtisasları, məsələn, sosial şəbəkə meneceri, peşəkar blogger, İOS və Android üçün tətbiqetmələrin layihəçisi və s. peşələri heç kəs tanımırdı, amma indi bunlar çox məşhur və yüksək ödənişli işlər hesab edilir.

Bu sahədə çalışan ekspertlər hesab edirlər ki, atlasların hazırlanmasında məqsəd iş dünyasının necə olacağını göstərmək və məşğulluq imkanlarını genişləndirməkdə kömək etməkdir. Atlas hansısa müəllifin fantaziyası deyil, yüksək ixtisaslı mütəxəssislərin gərgin əməyi sayəsində ərsəyə gələn bir vəsaitdir. Belə atlaslar hazır "reseptlər" vermir, lakin ona istinad etməklə şəxsi karyera trayektoriyasını qurmaq mümkündür.

İlk növbədə, bugünkü məktəblinin və ya abituriyentin gözünü açmaq və onlara hüquqşünas, iqtisadçı, menecer, marketoloq kimi peşələrdən kənarda daha cəlbedici peşə dünyasının olduğunu göstərmək üçün yaradılıb. Nə qədər paradoksal görünsə də, əslində "Yeni Peşələrin Atlası" bu gündən danışır, yəni bu gün nə etməli olduğumuzu, nədən başlamaq lazım olduğunu, uğurlu gələcəyə aparan yolu necə qurmalı olduğumuzu təsvir edir.

Atlas əmək bazarının quruluşunu, orada baş verən dəyişiklikləri anlamağa yardım edir. Bu, bir peşəyönümü alətidir. Yalnız yeni sahələri və istiqamətləri deyil, həmçinin onların meydana çıxma səbəblərini və yeni şəraitə uyğunlaşmaq yollarını göstərir.

### Forsayt – gələcəyə baxış

Ümumiyyətlə, Moskva Skolkovo İdarəetmə Məktəbi və Strateji Təşəbbüslər Agentliyi tərəfindən hazırlanmış "Gələcək Peşələrin Atlası"nın tarixi 2010-cu ilə gedir. Rusiyada işlənib hazırlanan Skills Technology Foresight (Bacarıqlar Texnologiyasına dair Uzaqgörənlik) metodologiyası əsasında yaradılıb. Bu, beynəlxalq səviyyədə tanınıb, xüsusilə, Dünya Bankı və Beynəlxalq Əmək Təşkilatının birgə layihələrində istifadə edilib. Forsayt (ingiliscə - gələcəyə baxış, uzaqgörənlik) - bir sosial texnologiyadır, qırx il əvvəl xaricdə yaradılmış, biznes sahəsində və dövlət idarəetməsində fəal şəkildə istifadə olunur. Bu texnologiya iştirakçılara sənaye sahələrinin, bölgənin və ya ölkənin inkişafı üçün proqnoz verməyə və bu proqnoza əsaslanaraq arzu olunan gələcəyə nail ol-

maq üçün fəaliyyətləri həyata keçirməyə imkan yaradır.

**Forsaytın əsas prinsipləri bunlardır:**

• Gələcək – bizim səylərimizdən asılıdır: onu yaratmaq olar.

• Gələcək - dəyişkəndir: yalnız keçmişdən qaynaqlanmır, həm də iştirakçıların və maraqlı tərəflərin qərarlarından asılı olur.

• Elə sahələr var ki, bununla bağlı proqnoz verə bilərik, amma ümumilikdə gələcəyin etibarlı şəkildə proqnozlaşdırılması mümkün deyil. Arzu etdiyimiz gələcəyə hazırlaşa bilərik və ya özümüz onu hazırlaya bilərik.

**Dar ixtisas bacarıqlarından peşəüstü bacarıqlara doğru**

Atlasda xüsusi vurğulanan bir məqam da peşəüstü bacarıqlardır. İndi bu bacarıqların əhəmiyyəti təhsil sahəsində çalışan hər kəs üçün aydın olsa da, yeniyetmələr, tələbələr və əksər hallarda onların valideynləri hələ də bunun nə üçün vacib olması barədə o qədər də məlumatlı deyillər.

Mahiyyət odur ki, gələcəkdə mütəxəssislər XXI əsrin bacarıqları adlandırılan xüsusi bacarıq dəstinə sahib olacaqlar. Bu, mütəxəssislərin daha səmərəli işləməsinə, sənaye sahələri arasında çevik hərəkət etməsinə və eyni zamanda onlara daim tələbatın olmasına imkan verəcəkdir.

Atlasda işəgötürənlərin müvəffəqiyyət qazanmaq üçün ən vacib hesab etdikləri peşəüstü bacarıqları vurğulanıb.

**Multidil və multimədəniyyət**

Artıq məlumdur ki, kompüterlər və ya maşınlar kimi kompleks məhsullar fərqli ölkələrdən olan komandalar tərəfindən istehsal olunur. Gələcəkdə biz daha çox beynəlxalq oflayn və onlayn komandalarda işləyəcəyik.

Yalnız ingilis dilində səlis danışmaq deyil, həm də tərəfdaş ölkələrin milli və mədəni kontekstini başa düşmək də vacib olacaq. Bundan başqa, çalışdığınız sənaye sahəsinin digər ölkələrdəki xüsusiyyətlərini də bilmək faydalı olacaq.



**Sahələrarası ünsiyyət bacarıqları**

Bir çox məhsullar müxtəlif sahələrin kəsişməsində istehsal olunur: İT və tibb, tikinti və nanotexnologiyalar, elm və incəsənət və s. Bu səbəbdən mütəxəssislərə əlaqəli və hətta əlaqəli olmayan sahələrdə texnologiyalar, proseslər və bazar şərtləri haqqında anlayış lazımdır. Nə qədər çox müxtəlif biliklərə sahib olsanız, tələbatda qalma şansınız bir o qədər yüksəkdir.

**Müştəriyə yönəlmə**

Artıq XXI əsrin əvvəllərində şirkətlər üçün müştərinin tələblərini dəqiq başa düşmək və ideal həll variantları təklif etmək kimi amillər ön plana keçdi. Xidmətlərin bolluğu səbəbindən ərköyünləşmiş müştəri uğrunda rəqabət gələcəkdə daha da artacaq. Buna görə də işəgötürənlər daha çox müştəriyə yönəlmiş işçiləri görmək istəyəcəklər. Bu, ilk növbədə xidmət sektoruna aiddir, amma məhsul istehsalçıları da istehlakçı üçün maksimum komfort yaratmağa çalışacaqlar.

**Layihələrin və proseslərin idarə edilməsi**

Bu bacarıq artıq xüsusi hazırlanmış menecerlərin səlahiyyətləri çərçivəsində olmayacaq. Şirkətlər ierarxik quruluşdan uzaqlaşacaqlar. Bu səbəbdən mütəxəssislərin çoxu prioritetləri müəyyən etmək və doğru komandanı seçə bilmək kimi liderlik keyfiyyətlərinə ehtiyac duyacaq.

***Yüksək qeyri-müəyyənlik və vəzifə şərtlərinin sürətlə dəyişməsi şəraitində iş***

Sürətlə dəyişən dünyada çevik qərarlar qəbul etmək və dəyişikliklərə reaksiya vermək, öz resurslarını səmərəli şəkildə bölüşdürmək və vaxtı idarə etmək bacarıqlarına ehtiyac olacaq. Resurslar dedikdə, həmçinin öz vəziyyətini idarə etmək, o cümlədən diqqəti konkret işə yönəldə bilmək və stres zamanı özünü sakitləşdirmək bacarığı nəzərdə tutulur.

***Bədii yaradıcılıq qabiliyyəti***

Fərdiləşdirilmiş mal və xidmətlərə tələb artmaqdadır. Eyni zamanda qeyri-standart qərarlara ehtiyac da artacaq. Alqoritmlər və

avtomatlaşdırılmış həllər hələki yaradıcı işçini əvəz edə bilmir (ola bilsin, heç vaxt da etməyəcək). Buna görə işəgötürənlər yaradıcı düşüncə və inkişaf etmiş estetik zövqü qiymətləndirəcəklər.

### *İnsanlarla işləmək qabiliyyətiniz*

Biz uşaqlıqdan insanlarla ünsiyyət qurma bacarığımızı inkişaf etdiririk, bu məsələdə nə robot, nə də bir proqram bizi əvəz edə bilməz. Birgə fəaliyyətlər zamanı səmərəli ünsiyyət qurmaq və qarşılıqlı əməkdaşlıqda çalışmaq, digər iştirakçıların mövqelərini nəzərə almaq və münaqişələri effektiv həll etmək bacarığı hələ də yalnız insanlara xas olan vacib keyfiyyətdir.

### *Avtomatlaşdırılmış mürəkkəb komplekslərin idarə edilməsi*

Elə sahələr var ki, maşınlarla rəqabət etmək faydasızdır. Amma robotları və süni intellekt sistemlərini sazlamağı öyrənsəniz, işəgötürən üçün əvəzolunmaz ola bilərsiniz. Ən azı, proqramlaşdırmanın baza səviyyəsini mənimsəmək lazımdır – qısa müddətdən sonra standart kompüter bilgiləri kifayət etməyəcək.

### *Sistem düşüncə tərzi*

Yaşadığımız dünya və qarşılaşdığımız problemlər getdikcə daha da mürəkkəbləşir və bizdən sistem düşüncə tələb edir – mürəkkəb sistemlərin necə işlədiyini anlamaq, qarşılıqlı əlaqələri görmək və səbəbləri tapmaq bacarığı. Çox nadir hallarda insanlar həyatları boyu bir işlə məşğul olacaqlar. Tez-tez bir layihədən digərinə keçəcək, hətta fəaliyyət sahələrini dəyişdirəcəklər. İşə operativ şəkildə qoşulmaq üçün sistemli düşünmək lazım gələcək: mürəkkəb proseslərdən, mexanizm və ya quruluşlardan tez baş çıxartmalı və lazım gələrsə, düşüncələrinizi digər sahələrdən olan həmkarlarınız üçün daha anlaşılan bir dildə paylaşmalı olacaqsınız.

### *Qənaətcil istehsal bacarıqları*

Qənaətcil istehsal dedikdə hər cür itkiləri aradan qaldırmaq üçün davamlı səylərinizə əsaslanan idarəetmə nəzərdə tutulur. Bu yanaşmada hər bir işçi biznesin optimallaşdırılmasında iştirak edir, biznes özü isə maksimum istehlakçıya yönəlir. Qənaətcil istehsal fəlsəfəsi 80-ci illərin sonlarında Yaponiyada meydana gəlib və hazırda dünyanın aparıcı şirkətləri tərəfindən təqdir olunur.

### *Ekoloji düşüncə*

Ekoloji düşüncə istifadə olunan təbii resurslara qənaətli yanaşmanı (məsələn, enerji istehlakının, su istehlakının və ya təbii xammaldan istifadənin azaldılması), habelə yaranan tullantıların həcminin azaldılmasını (tullantıların təkrar emalı, bioloji parçalana bilən materiallardan istifadə və s.) əhatə edir. Təbii sərvətlər məhdud deyil və biz evimizdən tutmuş planetə qədər, yaşadığımız yer üçün məsuliyyət daşıyırıq.

### *Diqqətin idarə edilməsi*

İnsanın diqqətini dağıdan bir çox amillər var. Telefona gələn adi bir mesaj, internetdə göndərilən bir video və ya reklam asanlıqla diqqətimizi əsas məsələdən yayındıra bilir. Bizi əhatə edən rəngarəng mühitdə daha çevik və səmərəli fəaliyyət göstərmək üçün məlumat axınından əsas şeyi tapıb diqqətinizi ona yönəltməyi öyrənməlisiniz. Həmçinin, iş yerində fikrinizi cəmləmək və asudə vaxtlarda isə rahatlaşmağı bacarmaq da eyni dərəcədə vacibdir.

### *Kritik düşüncə*

Ətrafımızdakı məlumatların həcmi durmadan artır, təbii ki, onların hamısı etibarlı və obyektiv deyil. Manipulyasiya obyektinə çevrilməmək üçün ən nüfuzlu mənbələrə belə etibar etməməyi, alınan xəbərlərin və ya məlumatların təsdiqini və ya təkzibini tapmağı öyrənməlisiniz.

### *Dərk etmək qabiliyyəti*

Mürəkkəb texnologiyalar və informasiya axınlarında özünü itirməmək üçün insan hər zaman nə etdiyini anlamalı və fərqində olmalıdır. Yaxşı olardı ki, insan müntəzəm olaraq özünə: "Mən indi nə edirəm?", "Bunu niyə edirəm?" - suallarını versin və onları cavablandırsın. Hara baxdığımızı biliriksə, həyat yolunda hansı istiqamətdə getdiyimizi anlamaq bizə daha asan olacaq.

### *Emosional intellekt*

Texnologiyalarla dolu dünyada insaniyyətə tələbat artır; şəfqət, yumor hissi, ünsiyyət –bunlar texnologiyalardan ala bilməyəcəyimiz şeylərdir. Eyni zamanda, texnologiyalardan ayrılıb sevdiklərimizlə ünsiyyət qurmaq üçün boş vaxtımız olanda, emosional zəkaya xüsusi ehtiyacımız olacaq - duyğuları müəyyən etmək və öyrənmək, başqa bir insanın dərdinə şərik olmaq, onunla ortaq dil tapmaq, rahat bir atmosfer yaratmaq.

## Nəticə

Məşhur kiberpank yazıçısı Bryus Sterling hesab edir ki, dünya çox sürətlə dəyişir və bu dəyişiklikləri proqnozlaşdırmaq olmur. Bu, həqiqətən də belədir. Tarix uğursuz proqnozlar və "peyğəmbərlik" iddiaları ilə doludur.

XX əsrin əvvəllərində aviasiya həvəskarları hər ailənin öz təyyarəsinə sahib olacağını vəd etmişdilər; gözlənilirdi ki, əsrin ortalarında hər yerdə nüvə reaktorlu avtomobillər gəzəcək və qəhvədan nüvə batareyaları ilə işləyəcək; 1970-ci illərdə belə bir fikir vardı ki, XXI əsrin əvvəllərində insanlar Marsda və Yupiterin peyklərində yaşayacaqlar.

Ancaq gələcək haqqında qəti zəmanət istəyən bir insan kimi deyil, çətin bir yola çıxan biri kimi düşünmək lazımdır. Columbun Amerikaya gəlişi hər kəs üçün sürpriz oldu. Onun Hindistana gedəcəyini

nəzərə alsaq, bu, hətta uğursuz bir şey idi. Ancaq bu o demək deyildi ki, Columb bu səfəri planlaşdırmamalı, xəritələrə baxmamalı, axınları və meteoroloji şəraiti öyrənməməli və səriştəli bir komanda qurmamalı idi. Hətta gözlənilməzliklər olsa belə, xəritə, iqlim proqnozu, komanda və s. səyahət zamanı kömək edir. Bu məcazı gündəlik həyatda da tətbiq etmək olar:

- biz ümumiyyətlə hara getmək istədiyimiz barədə düşünməliyik;
- arzu edilən gələcəyə çatmaq üçün ən yaxşı marşrutların hansı olduğunu qiymətləndirməliyik (bu, həmişə dəyişə bilər, buna görə də B planı həmişə faydalıdır);
- hansı cərəyanların bizim üçün keçərli və hansının keçərli olmadığını görməliyik (yəni tendensiyalardan xəbərdar olmalıyıq);
- ıbu yolu keçmək üçün hansı vasitələrə ehtiyac olduğunu başa düşməliyik (bu, dar ixtisaslaşma və peşəüstü bacarıqlar, ümumi düşüncə tərzi və şüurluluq, və psixoloji hazırlıq və s. əlatə edir);
- və nəhayət, biz bilməliyik ki, yol yoldaşlarımız kimdir, çünki istədiyimiz yerə düşmək üçün biz bir-birimizə kömək etməliyik.

Bundan başqa, uğursuz proqnozların yanında çox uğurlu nümunələr də var. Məsələn, Yaponiya və Cənubi Koreyanın müasir texnoloji uğurları məhz elmi proqnozların istifadəsinə əsaslanır. ABŞ-dakı məşhur Silikon Vadisinin baniləri fərdi kompüterlər və İnternet dövrünü proqnoz etməklə yanaşı, onların meydana gəlməsindən faydalanmağı da bacardılar.

**Yeni mürəkkəb dünyada:**

- bu peşələr olmayacaq: tələb edilən bacarıqları gənc yaşda qazanıla bilən və yenidən hazırlığa ehtiyacı olmayan (çünki peşələrin funksionallığı texnologiyaların inkişafı ilə dəyişəcəkdir);
- konveyerdə şablon əməliyyatların yerinə yetirilməsini nəzərdə tutan sadə işlər olmayacaq;
- tabe olan işçi qərar verə bilmir və bütün məsuliyyət rəhbərliyin üzərinə düşür – belə bir nizami iyerarxiya olmayacaq;
- nəyi, haradan və haraya kopiyalayacağınız aydın olduqda, kompüterdə şablon işlər görməyəcəksiniz;
- şəxsi və iş vaxtı arasında dəqiq bir sərhəd olmayacaq;
- hələ adı çəkilməyən və davamlı olaraq dəyişikliyə məruz qalan bir çox yeni peşə yaranacaq;
- kompleks sistemlər qurmağı və öyrətməyi tələb edən işlər olacaq;
- ortaq bir hədəf üzərində bərabər səviyyədə çalışan üfüqi komandalar olacaq;
- virtual gerçəklikdə iş yerləri olacaq, genişlənmiş reallıq isə vərdiş etdiyimiz bir fenomenə çevriləcək;
- yaradıcı və peşəkar fəaliyyəti birləşdirmək üçün fürsət və hətta ehtiyac yaranacaq.

**Hansı sahələrdə daha çox iş yeri yaranacaq?**

Kütləvi məşğulluğa gəldikdə, peşələrlə bağlı dəyişikliklər daha yavaş baş verir. Birincisi, texnologiyalar qeyri-bərabər yayılır. Məsələn, böyük şəhərlərlə müqayisədə ucqar əyalətlərə daha gec çatır. İkincisi, dövlətlər sosial sabitliyin qorunmasında maraqlıdırlar.

Amma bir şeyi unutmaq olmaz ki, istənilən halda, bir çox kütləvi peşələr böyük risk altındadır.

Ancaq yaxşı perspektivlər də var: yeni peşələr, bazarlar və bütövlükdə yeni məşğulluq sektorları meydana çıxdıqca iş yerləri azalmayacaq. Bundan əlavə, əvvəllər iqtisadi sistemə inteqrasiya etməkdə çətinlik çəkən insanlar, yaradıcı insanlar və ya ofis rejimində işləməyə çətinlik çəkənlər üçün geniş imkanlar yaranacaq.

**Aşağıda iş yerlərinin artacağı ən vacib sahələr verilib:**

***Yaradıcı sənaye***

Yaradıcı iqtisadiyyat istehsalın əsas amilinin insan təxəyyülü və yeni bir şey yaratmaq bacarığı olduğunu nəzərdə tutur: musiqi, video, oyunlar üçün ssenarilər və süjetlər. Ancaq təbii ki, burada İT texnologiyaları tətbiq olunacaq.

***Virtual iqtisadiyyat***

Bu, rəqəmsal dünya daxilində dəyər yaratmağa əsaslanan bir sənayedir: məsələn, kiberidman, videoblog və kütləvi onlayn oyunlar üçün xidmətlərin göstərilməsi.

***İnsana yönəlik xidmətlər***

Robotlaşma və rəqəmsallaşmanın artmasına cavab olaraq insanlarla təmasa ehtiyac artır. Nümunə olaraq bərbərləri və ya çayxanaları göstərmək olar. İnsanlar bura yalnız xidmət və ya məhsul üçün deyil, həm də ünsiyyət və qayğı üçün gəlir.

***İnkişaf etməkdə olan iqtisadiyyat***

İstehsala və şəhər abadlığına daha çox ekoloji yanaşma yeni peşələr və iş yerləri yaradır. Ola bilsin ki, məhz bu sektor yaradıcı iqtisadiyyatda özünü tapa bilməyən və eyni zamanda xidmət sektoruna keçməyə hazır olmayan fəhlə peşəsindən olan insanlara iş tapmaq imkanı verəcək.

***Yeni texnologiya sektorları***

Əmək fəaliyyətinin yeni növləri qabaqcıl texnologiyaların tətbiqi və onlara texniki xidmət sahələrində meydana çıxır. Söhbət tibb, robotexnika, biotexnologiya, neyrotexnologiya və s.-dən gedir. Bu, daha çox texnologiyalarla təcrübə keçməyə və yeni məhsullar yaratmağa hazır olan startap və ya layihəçi-istehsalçıların kiçik komandalarına aiddir.

"Gələcək Peşələrin Atlası" peşəyönümlü vəsaitdir və pilot layihə kimi orta məktəblərdə tətbiq edilməsi planlaşdırılıb.

*İ.Abdullayeva*

# Azərbaycanın xarici ticarət dövriyyəsi:

# gömrük statistikası nəyi göstərir?

Dünyada istənilən dövləti xarici ticarət əlaqələri olmadan təsəvvür etmək mümkün deyil. 2020-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin həcmi 2019-cu il illə müqayisədə 31,7%, 2018-ci il ilə müqayisədə isə 26,4% azalaraq 22 milyard 746 milyon ABŞ dolları təşkil edib. Ticarət dövriyyəsinin azalmasının əsas səbəbi pandemiyanın yaratdığı təsirlərdən formalaşsa da, mühüm nüans ondan ibarətdir ki, Azərbaycanın qeyri-neft sektoru inkişaf tempini qoruyub saxladı.

**İxrac** – ölkədə istehsal olunmuş və ya başqa ölkələrdən gətirilmiş malların ölkə sərhədlərindən kənara göndərilməsidir. Həmçinin, ölkəyə gətirilən və təkrar emal olunaraq əsas kəmiyyət və keyfiyyət göstəricilərini dəyişən xarici mənşəli mallar da ixracda müəyyən paya malikdir. İxracın dəyərinin qiymətləndirilməsi FOB qiymətləri və ya mal ixrac edən ölkənin franko-sərhəd qiymətləri üzrə aparılır, yəni malın qiymətinə onun dəyəri, ölkənin quru sərhədlərinə və ya göndərmə limanına çatdırılması və gəmi bortuna yüklənməsi xərcləri də daxil edilir.

**İdxal** – ölkədə istehlak edilmək üçün, həmçinin təkrar ixrac etmək üçün ölkəyə kənardan mal gətirilməsidir. İdxalın dəyərinin qiymətləndirilməsi SİF qiymətləri və ya mal idxal edən ölkənin franko-sərhəd qiymətləri üzrə aparılır, yəni malın qiymətinə onun dəyəri, ölkənin sərhədlərinə qədər daşınması və sığorta xərcləri daxil edilir.

**Xarici ticarət dövriyyəsi** – idxal və ixrac həcminin cəmidir.

**Xarici ticarət saldosu** – ixracın həcmi ilə idxalın həcminin fərqidir. Əgər ixracın həcmi idxalın həcmindən yüksəkdirsə müsbət saldo, idxalın həcmi ixracın həcmindən yüksəkdirsə mənfi saldo alınır.

**Azərbaycanın xarici ticarət dövriyyəsi göstəricilərinin dinamikası**

| İllər | *Milyon ABŞ dolları ilə* | | | |
|---|---|---|---|---|
| | ticarət dövriyyəsi | idxal | ixrac | saldo |
| **2017** | 24 103,3 | 8 783,3 | 15 320,0 | 6 536,7 |
| **2018** | 30 955,0 | 11 465,9 | 19 489,1 | 8 023,9 |
| **2019** | 33 302,8 | 13 667,2 | 19 635,6 | 5 968,4 |
| **2020** | 22 746,7 | 9 685,5 | 13 060,5 | 3 375,3 |



**Gömrük statistikası nəyi göstərir?**

Dövlət Gömrük Komitəsinin statistikasına görə, 2020-ci ildə Azərbaycan xarici ölkələrə 13 060 548,39 min dollar (57,42%) dəyərində məhsul ixrac edib, idxalın həcmi isə 9 685 515,80 min dollar (42,58%) olub. Nəticədə, 3 375 032,59 min dollarlıq müsbət ticarət saldosu yaranıb. 2019-cu il illə müqayisədə 2020-ci ildə Azərbaycanın xarici ticarət dövriyyəsinin müsbət saldosu 43,4%, ixrac və idxal isə müvafiq olaraq 33,5% və 29,1% azalıb. 2018-ci il ilə nisbətən isə xarici ticarət dövriyyəsinin müsbət saldosu 57,9%, ixrac və idxal isə müvafiq olaraq 32,9% və 15,5% azalıb.

2020-ci ildə DGK-nin verdiyi məlumatlara əsasən ixrac olunan malların 8 937 253. 63 min dolları xam neftin payına düşür. İxrac olunan digər məhsulların ümumi statistik dəyəri isə cəmi 4 123 294. 76 min dollardır. Göründüyü kimi, xam neftin satışından gəlirlər digər məhsulların satışından əldə edilən gəlirlərdən 2.2 dəfə çoxdur.




2020-ci ildə ixrac-idxal əməliyyatlarının 67.8%-i Avropa, 22.6%-i isə Asiya qitəsi ölkələri ilə aparılıb. Xarici ticarət dövriyyəsində İtaliya, Rusiya, Fransa, ABŞ, Almaniya, Türkiyənin xüsusi çəkisinin böyük olduğu müşahidə olunur. Belə ki, 2020-ci ildə xarici ticarət dövriyyəsinin 19,62 %-i İtaliya, 17,19 %-i Türkiyə, 2,36%-i Fransa, 10,63 %-i Rusiya, 2,70%-i ABŞ, 3,08 %-i Ukrayna, 3,28%-i isə Almaniya ilə aparılıb. Xarici ticarət dövriyyəsində ixracatda 31.38% ilə İtaliya, idxalda isə 18.31% ilə Rusiya öndə durur.

2019-cu ildə Azərbaycandan 3124 çeşiddə məhsul ixrac olunurdusa, 2020-ci ildə bu rəqəm 2936-ya düşüb.

**İxrac və idxal əməliyyatlarında əsas ölkələrin faizlə xüsusi çəkisi**






## Azərbaycanın xarici ticarət əlaqələrində inkişaf

Hazırda Azərbaycanın hüquqi və fiziki şəxsləri dünyanın 180-dən çox ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları aparırlar. Rəsmi statistik məlumatlara görə, 2020-ci ildə 1007 ölkəyə məhsullarımız ixrac olunub,173 ölkədən isə müxtəlif məhsullar idxal etmişik.

İlk illərdə Azərbaycanın əsas ticarət partnyorları MDB ölkələri olduğu halda, günümüzdə bu hal Avropa Birliyi ölkələrinin lehinə dəyişib. MDB ölkələri arasında Azərbaycan ilə ən çox ticarət dövriyyəsi həcminə sahib olan Rusiya Federasiyasıdır. Rusiya Federasiyasının ticarət payı ümumi MDB ölkələrinin Azərbaycan ilə ticarətinin 50%-nə bərabərdir. Digər MDB ölkələri ilə müqayisədə Rusiyanın bu qədər böyük paya sahib olmasının səbəbi Azərbaycan kənd təsərrüfatı məhsulları üçün Rusiyanın böyük bazar olmasıdır.

Azərbaycan Avropa Birliyi, ABŞ, Norveç, Kanada, Türkiyə, İsveçrə və Yaponiyanın Ümumiləşdirilmiş Preferensiyalar Sisteminə qoşulub. Bu da Azərbaycan mallarının bu bazarlara rüsumsuz və ya aşağı rüsumlarla daxil olmasına imkan verir. Bununla yanaşı, Azərbaycan Respublikası Rusiya, Qazaxıstan, Ukrayna, Moldova, Belarus, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Tacikistan ilə sərbəst ticarət haqqında saziş imzalayıb. Yalnız Rusiya və Qazaxıstan ilə imzalanmış sazişlərdə isə spirtli içkilər və tütün məmulatları sərbəst ticarət rejimindən istisna edilib.

Yeni generasiya güclərinin yaradılması, infrastruktur imkanlarının genişləndirilməsi artıq Azərbaycanı elektrik enerjisi ixracatçısına çevirib. Ölkənin elektrik enerjisi satışını və mübadiləsini həyata keçirdiyi ölkələr – Rusiya, İran, Gürcüstan və Türkiyədir.

## İxracın tərkibi

İxrac edilən malların əsas hissəsini mineral məhsullar, o cümlədən xam neft və neft emalı məhsulları təşkil edir. Bununla yanaşı, qeyri-neft məhsullarından ərzaq malları, daha ucuz qiymətli metallar və onlardan hazırlanan məmulatlar, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, mirvari, qiymətli daşlar və metallar, onlardan hazırlanan məmulatlar, toxuculuq materialları satılıb. Eyni zamanda, Azərbaycandan ixrac olunan ərzaq məhsulları sırasında çay, bitkidən hazırlanan piylər və yağlar, marqarin, şəkər, makaron məmulatları, meyvə və tərəvəz konservləri də xüsusi çəkiyə malik olub.







**İdxal əməliyyatlarında liderlər**

İdxal siyasəti ilə bağlı onu demək olar ki, burada əsas hədəf ölkə ərazisinə hazır məhsul idxalının miqdarını maksimum dərəcədə azaltmaqdır.

Ölkəyə idxal olunmuş məhsulların ümumi dəyərinin 18,3 %-i Rusiya, 14,8 %-i Türkiyə, 13,3 %-i Çin, 8,1 %-i ABŞ, 5,3 %-i Almaniya, 4,3 faizi Ukrayna, 4,1 %-i İtaliya, 2,8 %-i İran, 2,7 %-i Birləşmiş Krallıq, 1,9 %-i Yaponiya, 1,8 %-i Koreya, 1,7 %-i Fransa, 20,9 %-i isə digər ölkələr ilə aparılmış idxal əməliyyatlarının payına düşüb.

İdxal olunan mallarda isə nəqliyyat vasitələri və onların hissələri, elektrotexnika avadanlığı, quru, hava və su nəqliyyatı vasitələri, ərzaq malları, az qiymətli metallar və onlardan hazırlanan məmulatlar, kimya sənayesi məhsulları, mebel və onun hissələri, tütün və tütün məmulatları, geyim əşyaları və geyim üçün ləvazimatlar, əczacılıq məhsulları üstünlük təşkil edir.







**Əməliyyat növləri üzrə ixrac** *(min ABŞ dolları):*

| Əməliyyat növləri | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **Cəmi** | **15,319,977.1** | **19,489,068.2** | **19,635,580.4** |
| **o cümlədən:** | | | |
| Milli valyuta ilə hesablaşmalar | 47,513.4 | 110,522.9 | 46,673.2 |
| Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar | 10,616,433.6 | 14,594,835.7 | 13,373,271.3 |
| Klirinq üzrə hesablaşmalar | – | – | – |
| Qapalı valyuta üzrə hesablaşmalar | 23,546.9 | 20,685.3 | 13,997.2 |
| Digər kommersiya əməliyyatları üzrə malların keçirilməsi | – | – | – |
| Digər sövdələşmələr üzrə mal göndərilməsi | – | – | – |
| Müəssisə və obyektlərin tikintisi haqqında saziş-öhdəlik hesabına malların keçirilməsi | 4,185,626.1 | 61,724.2 | 1,936,871.5 |
| Sövdələşmə xarakteri təyin olunmayıb | – | – | – |
| Digər əməliyyat növləri | 446,857.1 | 4,701,300.1 | 4,264,767.2 |



**Əməliyyat növləri üzrə idxal** *(min ABŞ dolları):*

| Əməliyyat növləri | 2017 | 2018 | 2019 |
|---|---|---|---|
| **Cəmi** | **8,783,301.4** | **11,465,914.7** | **13,667,237.8** |
| **o cümlədən:** | | | |
| Milli valyuta ilə hesablaşmalar | 565.9 | 622.1 | 6,949.0 |
| Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar | 6,764,416.1 | 8,996,863.5 | 9,830,797.5 |
| Kliring üzrə hesablaşmalar | 96.5 | 20.3 | 120.9 |
| Qapalı valyuta üzrə hesablaşmalar | 509,059.0 | 616,469.4 | 786,591.9 |
| Digər kommersiya əməliyyatları üzrə malların keçirilməsi | 24.0 | 14.7 | |
| Digər sövdələşmələr üzrə mal göndərilməsi | - | - | - |
| Müəssisə və obyektlərin tikintisi haqqında saziş-öhdəlik hesabına malların keçirilməsi | 34.7 | 14.9 | 59.7 |
| Sövdələşmə xarakteri təyin olunmayıb | — | — | — |
| Digər əməliyyat növləri | 1,509,105.2 | 1,851,909.8 | 3,042,718.8 |

**Sövdələşmə xarakterləri üzrə malların keçirilməsi:**

| Göstəricilər | İxrac dəyəri (min ABŞ dolları ilə) 2020 | İdxal dəyəri (min ABŞ dolları ilə) 2020 | İxrac dəyəri (min ABŞ dolları ilə) 2019 | İdxal dəyəri (min ABŞ dolları ilə) 2019 |
|---|---|---|---|---|
| Milli valyuta ilə hesablaşma | 15 182.44 | 2 894.64 | 46 673.24 | 6 948.96 |
| Sərbəst dönərli valyuta (SDV) ilə hesablaşmalar | 3 298 007.94 | 2 869 660.90 | 13 373 271.32 | 9 830 797.54 |
| Qapalı valyuta ilə hesablaşmalar | 6 562.71 | 241 405.15 | 13 997.25 | 786 591.87 |

Cədvəldən də göründüyü kimi, 2019-cu illə müqayisədə 2020-ci ildə sövdələşmə xarakterləri üzrə malların keçirilməsi zamanı həm idxal, həm də ixrac dəyərində azalma baş verib.

2019-cu ildə ölkəyə idxal edilən məhsullar dövlət sektoru üzrə 4 132 500.67 min dollar, özəl sektorda isə 8 473 685.61 min dollar təşkil etmişdisə, 2020-ci ildə bu göstərici dövlət sektoru üzrə 615 816.93 min dollar, özəl sektorda isə 2 447 503.85 min dollar təşkil edib. İxrac əməliyyatları üzrə isə 2019-cu ildə dövlət sektoru 11 978 758.70 min dollar, özəl sektor 7 597 262.26 min dollar və 2020 – ci ildə isə dövlət sektoru və özəl sektor müvafiq olaraq, 3 117 133.83 min dollar və 3 174 969.25 min dollar məhsul ixrac edib. 2019-cu illə müqayisədə 2020-ci ildə həm idxal, həm də ixrac üzrə azalma qeydə alınıb.

*Məryəm Quliyeva,*
*iqtisadçı*

# ASK prezidenti İtaliya-Azərbaycan Ticarət Palatasının Məşvərət Şurasına üzv seçildi

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev İtaliya-Azərbaycan Ticarət Palatasının Məşvərət Şurasına üzv seçilib.

Bununla bağlı İtaliya-Azərbaycan Ticarət Palatasının prezidenti Manuela Traldi Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidentinə rəsmi məktub göndərib.

"Ticarət Palatamızın Azərbaycan ilə İtaliya arasındakı iqtisadi, mədəni və dostluq əlaqələrini genişləndirməyə böyük töhfə verəcəyinə inanırıq", – deyə vurğulayan xanım Traldi bu münasibətlə İdarə Heyəti adından Məmməd Musayevi təbrik edərək, Məşvərət Şurasının proqramı ilə bağlı məlumat verib.

Qeyd edək ki, 2021-ci ilin oktyabr ayında "Böyük İyirmilik" ölkələrinin (G20) növbəti sammiti İtaliyanın Roma şəhərində keçiriləcək. Bununla əlaqədar İtaliyadakı biznesə dəstək qurumları ilə əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi və həyata keçiriləcək tədbirlərdə ASK-nın iştirakı Azərbaycan iqtisadiyyatının inkişafı üçün böyük önəm daşıyır.

Xatırladaq ki, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası 1999-cu ildən fəaliyyət göstərir. Hazırda Konfederasiya 6 mindən çox sahibkarı, 42 assosiasiyanı öz ətrafında birləşdirir. Həmçinin Azərbaycanın rayonlarında 41, xarici dövlətlərdə isə 20-dək nümayəndələri ilə təmsil olunurlar.

# Azərbaycan-Türkiyə İşgüzar Dəyirmi Masası keçirilib

Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun və Türkiyənin ticarət naziri xanım Ruhsar Pekcanın rəhbərlik etdiyi nümayəndə heyətləri arasında hər iki ölkənin sahibkarlıq təşkilatlarının iştirakı ilə İşgüzar Dəyirmi Masa keçirilib.



Dəyirmi Masada qarşılıqlı hörmətə, dostluğa və qardaşlığa əsaslanan Azərbaycan-Türkiyə əlaqələrinin ötən dövrdə yüksələn xətlə inkişaf etdiyi, dövlət başçılarının siyasi iradəsi və verdikləri tapşırıqlar ikitərəfli əməkdaşlığın inkişafında əsas hərəkətverici qüvvə olduğu vurğulanıb.

Mikayıl Cabbarov Türkiyənin hər zaman Azərbaycan xalqının yanında olduğunu, ölkəmizin haqlı mövqeyinə qəti və birmənalı dəstək göstərdiyini, daim sevincimizi və kədərimizi bölüşdüyünü qeyd edib. Bildirilib ki, Azərbaycan və Türkiyə arasında yüksək səviyyəli siyasi əlaqələr iqtisadi əməkdaşlığın gücləndirilməsi üçün əlverişli şərait yaradır. İki ölkə arasında keçirilən işgüzar tədbirlər çoxşaxəli biznes əməkdaşlığını genişləndirməklə, yeni layihələrin həyata keçirilməsi üçün əlverişli şərait yaradır. Bu baxımdan, 2021-ci ilin fevralında Ankarada keçirilmiş biznes-forum xüsusi əhəmiyyət kəsb edir. Qeyd olunub ki, regional və beynəlxalq əhəmiyyətli nəqliyyat layihələrini uğurla həyata keçirən Azərbaycan və Türkiyə mühüm nəqliyyat-logistika mərkəzlərinə çevrilib.

İqtisadiyyat naziri Türkiyənin Azərbaycanın əsas ticarət tərəfdaşlarından olduğunu, bu ilin martından qüvvəyə minən Preferensial Ticarət Sazişinin ikitərəfli ticarət əlaqələrinin daha da genişlənməsinə imkan yaradacağını diqqətə çatdırıb. Azərbaycanın İstanbuldakı Baş Konsulluğunda təsis edilməsi planlaşdırılan Ticarət Nümayəndəliyi də qarşılıqlı ticarətin artmasına töhfə verəcəkdir.

Türkiyə Respublikasının ticarət naziri xanım Ruhsar Pekcan bütün dünyanın pandemiya səbəbindən çətin günlər yaşadığı bir dövrdə Azərbaycanın güclü iradə nümayiş etdirərək Qarabağı işğaldan azad etməsinin Türkiyədə böyük ruh yüksəkliyi və sevinclə qarşılandığını vurğulayıb. Bildirilib ki, Türkiyə şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərində həyata keçiriləcək quruculuq layihələrində iştirakda, investisiya yatırmaqda maraqlıdır. Türkiyənin ticarət naziri həmçinin, qeyd edib ki, iqtisadiyyatın müxtəlif sahələrində əməkdaşlığın genişləndirilməsi imkanları böyükdür, bu potensialın reallaşdırılması üçün birgə səylərimizi daha da artıracağıq.

Tədbirdə Türkiyə Sənayeçilər və İş Adamları Assosiasiyası (TÜSİAD) və Türkiyə Əsnaf, Sənətkarları Konfederasiyası ilə Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının arasında Anlaşma Memorandumları da imzalanıb.

# Azərbaycan Sahibkarlar Konfederasiyası ilə TÜMKİAD arasında memorandum imzalandı



Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə Türkiyənin Tüm Kalkınma İş Adamları və Girişimçilər Təşkilatı (TÜMKİAD) arasında anlaşma memrandumu imzalanıb. Memorandumu ASK-nın vitse-prezidenti Vüqar Zeynalov ilə TÜMKİAD-ın İdarə Heyətinin sədri İlhami Öztürk imzalayıb.

Vüqar Zeynalov ASK haqqında və işğaldan azad olunan ərazilərimizin iqtisadi potensialı, eləcə də hazırda aparılan yenidənqurma işləri haqqında məlumat verib. Bildirib ki, türk şirkətlərinin bu yenidənqurma işlərində iştirakı üçün geniş imkanlar mövcuddur. Qarabağın iqtisadi ixtisaslaşmasının hazır olduğunu qeyd edən ASK-nın vitse-prezidenti rayonlar üzrə spesifik inkişaf sahələri barədə danışıb, növbəti görüşün biznes-forum formatında keçirilməsini təklif edib.

İ.Öztürk öz növbəsində Azərbaycanı qələbə münasibətilə təbrik edərək, əməkdaşlığa hazır olduqlarını bildirib.

Qeyd edək ki, memorandumda ölkələrimiz arasında ticarət, investisiya imkanlarının genişləndirilməsi, özəl sektorlar arasında əməkdaşlığın, birgə işləmək üçün investisiya mühitinin daha da inkişaf etdirilməsi üçün qarşılıqlı fəaliyyət göstərmək nəzərdə tutulur.

## Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında növbəti görüş keçirilib

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının “Reklam və nəşriyyat müəssisələri ilə iş komissiyası və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti arasında görüş keçirilib. Onlayn formatda keçirilən görüşün məqsədi dövlət satınalmaları sahəsində mövcud vəziyyətin müzakirəsi və sahibkarların təkliflərinin dinlənilməsi olub.

Görüşdə dövlət satınalmalarının keçirilməsində biznes subyektlərinin o cümlədən kiçik və orta biznes subyektlərinin iştirak imkanlarının genişləndirilməsinin vacibliyi vurğulanıb, bu sahədə dövlət tənzimləməsini həyata keçirən qurumla əməkdaşlığın ölkə iqtisadiyyatının inkişafına töhfə verəcəyi qeyd olunub.

Hazırda dövlət satınalmaları ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən yeni qanun layihəsi üzərində işlərin yekunlaşmaqda olduğu, bu sahədə prosedurların asanlaşdırılması üçün zəruri data bazaların elektron satınalma portalına inteqrasiya edilməsi üzrə işlərin aparıldığı bildirilib.

Görüşdə iştirak edən sahibkarlar pandemiya şəraitində dövlət satınalmalarının onlayn formatda elektron satınalma portalı (etender.gov.az) vasitəsilə təşkil edilməsinin əhəmiyyətini qeyd ediblər.

Müzakirələrin sonunda sahibkarlıq subyektləri dövlət satınalmaları prossesində daha aktiv iştiraka dəvət olunublar.

Qeyd edək ki, “Reklam və nəşriyyat müəssisələri” ilə iş komissiyası 2020-ci ildə ASK-nın tərkibində yaradılıb. Komissiya bu sahədə çalışan şirkətlərin qarşılaşdığı məsələləri müzakirə etmək, təkliflər irəli sürmək üçün bir platforma rolunu oynayır. Komissiyanın sədri Marsol MMC-nin direktoru Tural Mustafayevdir.

# ASK ilə Gürcüstanda fəaliyyət göstərən azərbaycanlı iş adamlarının birliyi arasında Memorandum imzalandı

Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) ilə Azərbaycanlı İş Adamları Birliyi Gürcüstan (AZEBİ) arasında əməkdaşlıq memorandumu imzalanıb.

Memorandumu ASK-nın prezidenti Məmməd Musayev və AZEBİnin İdarə Heyətinin sədri Nəriman Qurbanov imzalayıb.

Onlayn formatda keçirilən tədbirdə Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev, AZEBİ-də təmsil olunan iş adamları və ASK-nın icra aparatının əməkdaşları iştirak ediblər.

Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev 44 gün davam edən Vətən müharibəsindəki şanlı qələbə münasibətilə xalqımızı təbrik edib. Səfir bildirib ki, prezident İlham Əliyevin rəhbərliyi altında Müzəffər Ordumuz böyük qəhrəmanlıqlar göstərib və Gürcüstanda yaşayan azərbaycanlılar həmin dövrdə soydaşları ilə həmrəylik nümayiş etdiriblər.

F.Quliyev bildirib ki, Azərbaycan qonşu Gürcüstana 3,5 milyard dollar sərmayə yatırıb. Ümumilikdə Gürcüstanda Azərbaycan kapitallı 1000-dən çox şirkət qeydiyyatdan keçib. O, bu şirkətlərin AZEBİ ətrafında birləşərək təşkilatlanmasını aktivləşdirməyin, iş adamlarının qonşu ölkədə qarşılaşdıqları çətinliklər barədə vaxtında səfirliyə müraciət etməsinin əhəmiyyətini diqqətə çatdırıb.

Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayev çıxışında müstəqil Azərbaycan dövlətinin keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olduğunu bildirib. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən Sərəncam imzalandığını vurğulayan M.Musayev, yeni strateji dövrdə özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın inkişafının prioritetlər sırasında olduğunu qeyd edib. Konfederasiyanın prezidenti eyni zamanda yaxın gələcəkdə Türkiyə, Gürcüstan və Azərbaycandakı iş adamlarının birlikdə biznes-forum keçirməsinin vacibliyi barədə təkliflərini səsləndirib.

Qeyd edək ki, Azərbaycanlı İş Adamları Birliyi Gürcüstan (AZEBİ) təşkilatı Gürcüstan və Azərbaycan arasında iqtisadi əlaqələri gücləndirmək, Gürcüstanda fəaliyyət göstərən azərbaycanlı sahibkarların təşkilatlanması, üzvlər arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və dərinləşdirilməsi məqsədilə yaradılıb.

# Azərbaycan Sahibkarlar Konfederasiyası ilə Təbriz Ticarət, Sənaye və Mədənlər Palatası arasında görüş keçirilib

Yanvarın 14-də Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası ilə Təbriz Ticarət, Sənaye və Mədənlər Palatası arasında görüş keçirilib. Görüş İran İslam Respublikasının Azərbaycandakı səfirliyinin vasitəçiliyi ilə, ASK prezidenti Məmməd Musayevin sədrliyilə baş tutub.

Onlayn formatda keçirilən görüşü Məmməd Musayev açaraq, Azərbaycan prezidenti İlham Əliyevin müdrik siyasəti və baş komandanlığı ilə aparılan 44 günlük Vətən müharibəsində ölkəmizin qələbə çaldığını, azad olunan torpaqlarımızda quruculuq işlərinə başlanıldığını bildirib. O, İran-Azərbaycan iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsi üçün yeni imkanlar açıldığını qeyd edib.

Təbriz Ticarət, Sənaye və Mədənlər Palatasının sədri Azərbaycanı qələbə münasibətilə təbrik edərək, Təbriz iş adamlarının biznes imkanları, Təbrizin sənaye kompleksləri barədə məlumat verib. Palatanın üzvləri kənd təsərrüfatı texnikası, kənd təsərrüfatı sahəsində emal sənayesi, Qarabağda aparılacaq quruculuq işlərində iştirak etməkdə maraqlı olduqlarını bildiriblər.

İran-Azərbaycan Müştərək Ticarət Palatasının həmsədri Ramiz Rzayev hər iki ölkənin sahibkarları arasında əlaqələrin genişləndirilməsi, bazarların öyrənilməsi üçün dəstək verməyə hazır olduğunu bildirib.

İclasda Təbriz şirkətlərinin təkliflərini yazılı şəkildə ASK-ya təqdim etmələri və bu təkliflərin müvafiq dövlət qurumları ilə müzakirə olunması qərara alınıb.. Eyni zamanda, Təbriz Ticarət, Sənaye və Mədənlər Palatası ilə Azərbaycan Sahibkarlar Konfederasiyası arasında əməkdaşlıq memorandumunun imzalanması və biznes-forumun keçirilməsi üçün müvafiq hazırlıqlara başlanılıb.

# İş yeri axtarma, İş yeri yarat!

- Şəxsi bacarıqların qiymətləndirilməsi
- İş imkanlarının araşdırılması
- Beyin fırtınası
- Təhlil
- Seçim





Landmark III, mərtəbə 2
Nizami küç. 90A, Bakı

+994 12 465 76 92/93

consulting@ask.org.az

KOB
İNKİŞAF MƏRKƏZİ

# BİRLİKDƏ İNKİŞAF EDƏK!



## HƏDƏF QRUPU

- Mikro, kiçik və orta sahibkarlıq subyektləri
- Yeni biznesə başlamaq istəyənlər

## XİDMƏTLƏR

- Təlim
- Məsləhət
- Şəbəkələşmə
- Mübadilə proqramlarında iştirak

## *XİDMƏTLƏRİN XÜSUSİYYƏTLƏRİ*

- *Fərdi və birgə müraciət edilə bilər*
- *Üzbəüz və onlayn formada təqdim edilə bilər*
- *Xidmətlər ödənişsizdir*

## TƏLİM VƏ MƏSLƏHƏT XİDMƏTLƏRİNİN İSTİQAMƏTLƏRİ

- Biznesin planlaşdırılması
- Marketinq
- Bazar araşdırması
- Satış
- Biznes sahəsində qanunvericilik
- Maliyyə savadlığı və maliyyəyə çıxış
- İdarəetmə və yumşaq vərdişlər
- İxraca dəstək
- Dövlət xidmətləri barədə məlumatlandırma
- Digər biznesə dəstək xidmətləri

## ŞƏBƏKƏLƏŞMƏ VƏ TƏCRÜBƏ PROQRAMLARINDA İŞTİRAKA DƏSTƏK XİDMƏTLƏRİNİN İSTİQAMƏTLƏRİ

- Klasterlərin yaradılmasına dəstək
- KOB-ların ictimai birliklərinin yaradılmasına dəstək
- Təcrübə mübadiləsi proqramlarında iştiraka dəstək
- Digər şəbəkələşmə xidmətləri

www.kobim.az

# "İstehlakçı və sahibkar münasibətlərində qarşılıqlı etimad" mövzusunda konfrans keçirilib



Son illər dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrin və süni maneələrin aradan qaldırılması, istehlakçı-sahibkar münasibətlərinin sivil qaydalar əsasında formalaşdırılması istiqamətində dövlət səviyyəsində görülən sistemli işlər bu sahədə müsbət dəyişikliklərə səbəb olub. 15 mart – Ümumdünya İstehlakçıların Hüquqlarının Müdafiəsi Günü ilə əlaqədar İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti videokonfrans formatında "İstehlakçı və sahibkar münasibətlərində qarşılıqlı etimad" mövzusunda tədbir keçirib.

Dövlət Xidmətinin rəis müavini, rəis vəzifəsini müvəqqəti icra edən Sahib Məmmədov istehlakçı hüquqlarının müdafiəsinin sosial-iqtisadi siyasətin prioritet istiqamətlərdən olduğunu vurğulayıb, bu istiqamətdə kompleks tədbirlərin həyata keçirildiyini, istehlak bazarında mütəmadi olaraq monitorinqlərin aparıldığını, keyfiyyət və təhlükəsizlik göstəricilərində kənarlaşmalar aşkar edilmiş mallar üzərində nəzarətin daha da gücləndirildiyini, maarifləndirmə işlərini diqqətə çatdırıb.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev istehlak bazarının müvafiq mal və xidmətlərlə təmin edilməsində ölkə sahibkarlarının payının yüksək olduğunu, bu mənada bazarın ümumi vəziyyətində dövlət, sahibkar, istehlakçı münasibətlərinin düzgün qurulması və tənzimlənməsinin mühüm əhəmiyyət daşıdığını qeyd edib.

"Bu gün təsadüfi deyildir ki, istehlakçı məmnuniyyətinin ölçülməsi iş adamları üçün başlıca göstəricidir. Sahibkar məhsulu barədə ən dolğun məlumatı birbaşa istehlakçıdan alırsa, demək onun inkişaf istiqamətlərini daha aydın şəkildə görə bilir", -deyə M.Musayev vurğulayıb.

Dövlət qurumlarının, ictimai təşkilatların və sahibkarlıq subyektlərinin nümayəndələri çıxış edərək istehlakçı hüquqlarının qorunması istiqamətində son illər istehlak bazarında mal və xidmətlərin keyfiyyətində müsbət dəyişikliklərin müşahidə olunduğunu vurğulayıb, bu istiqamətdə təkliflərini səsləndiriblər.

Tədbirdə istehlakçı-sahibkar münasibətlərində qarşılıqlı etimadın əhəmiyyəti qeyd edilib, istehlakçı hüquqlarının daha effektiv qorunması barədə fikir mübadiləsi aparılıb.

# Azərbaycan Sahibkarlar Konfederasiyasının Özbəkistanda nümayəndəsi təyin edildi



Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK) ölkə iqtisadiyyatının təbliği, xarici investorların cəlbi, Azərbaycan məhsullarının xarici ölkələrdə təşviq olunmasına öz töhfəsini vermək üçün xarici nümayəndələrinin sayını artırır. ASK-nın Özbəkistan Respublikasında nümayəndəsi vəzifəsinə Fərid Aqil oğlu Verdiyev təyin edilib.

F.Verdiyev 1996-2000-ci illərdə Bakı Dövlət Universitetinin Hüquq, 2000-2004-cü illərdə Bakı Dövlət İqtisad Universitetinin Beynəlxalq İqtisadiyyat və 2013-cü ildə Moskva Dövlət İqtisadiyyat Universitetinin Dünya İqtisadiyyatı ixtisasları üzrə təhsil alıb.

F.Verdiyev əmək fəaliyyətinə "Bakı Şərab-1" ASC-də hüquq məsləhətçisi kimi başlamış daha sonra isə Hüqüq və kadrlar şöbəsinin rəisi olmuşdur. O, 2010-2011-ci illərdə Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Təcrübə-Sınaq Mərkəzinin (Az. TEST) Direktor müavini kimi fəaliyyət göstərib.

Fərid Verdiyev Özbəkistan Respublikasında fəaliyyət göstərən "A-sera Asia" MMC-nin təsisçisi, eləcə də Türkiyə Respublikasında təsis edilmiş "Six Sigma İthalat İhracat LTD"nin rəhbəridir.

ASK-nın Özbəkistandakı tərəfdaşları, o cümlədən, Özbəkistan Respublikası Ticarət və Sənaye Palatası ilə məhsuldar əməkdaşlığı barədə nümayəndəyə geniş məlumat verilib və hər iki ölkə arasında iqtisadi əməkdaşlığı yüksəltmək üçün onun qarşısında konkret hədəflər qoyulub.

## 2020-ci ildə Azərbaycan Sahibkarlar Konfederasiyasının əldə etdiyi əsas nailiyyətlər

- Azərbaycan Respublikası Mərkəzi Bankının 2020-ci il 20 fevral tarixli qərarı ilə "Azərbaycan Respublikasının rezidentlərinin xarici valyutada, habelə qeyri-rezidentlərin milli və xarici valyutada əməliyyatların aparılması Qaydaları"na dəyişikliklərə əsasən mövcud 270 gün ən geci 2 il müddətinə qədər uzadıldı.
- Azərbaycan Mikromaliyyə Assosiasiyasının müraciətinə uyğun olaraq xüsusi karantin rejimi dövründə Bank Olmayan Kredit Təşkilatlarının fəaliyyətinə icazə verildi.
- Pandemiya dövründə sahibkarlardan daxil olan şikayətlər diversifikasiya edilərək təkliflər hazırlandı və iAzərbaycan Sahibkarlar Konfederasiyasının təmsil olunduğu Azərbaycan Respublikası Nazirlər Kabineti yanında İşçi Qruplara təqdim olundu.
- Pandemiyanın təsir dairəsinin genişləndirilməsi ilə bağlı Azərbaycan Sahibkarlar Konfederasiyasının təklifləri qəbul olundu və genişləndirilən meyarlar əsasında dövlət dəstəyi dahaböyük sahibkarlıq sahələrini əhatə etdi.

# ASK sahibkarların yanında

## Rayon nümayəndələrimiz




## Xarici ölkələrdə nümayəndələrimiz




## Komissiyalar

1. Sənaye və energetika müəssisələri ilə iş komissiyası
2. Aqrar inkişaf komissiyası
3. İnşaat və Tikinti materialları istehsalı müəssiləri ilə iş Komissiyası
4. Elm, təhsil və peşə təhsili müəssisələri ilə iş komissiyası
5. Turizm və xidmət üzrə iş Komissiyası
6. Nəqliyyat və Logistika müəssisələri ilə iş komissiyası
7. Qadın sahibkarlarla iş komissiyası
8. Səhiyyə və idman müəssisələri ilə iş komissiyası
9. Menecment Komissiyası
10. Reklam və Nəşriyyat müəssisələri ilə iş komissiyası
11. İnnovasiyalar və Rəqəmsal Texnologiyalar üzrə komissiya
12. Maliyyə institutları ilə iş komissiyası
13. Gənc sahibkarlarla iş komissiyası
14. Ticarət müəssisələri ilə iş komissiyası

AQRARKREDİT
SƏHMDAR KREDİT TƏŞKİLATI

# Aqrar sahəyə kredit xidməti məqsədimizdir!

20 il sizinlə

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatı
Azərbaycan, Bakı şəh., Az1006, Qədirli küç 125
Telefon: +994(12) 538 92 25, 498 27 31
E-mail: info@aqrarkredit.az
Veb: www.aqrarkredit.az




15 il
PAŞA Sığorta
*7000
www.pasha-insurance.az